AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

ELÇİN QARAYEV

# F.İ.SOYMONOVUN «XƏZƏR DƏNİZİNİN VƏ ORADA HƏYATA KEÇİRİLƏN RUSİYA İŞĞALLARININ, İMPERATOR BÖYÜK PYOTRUN TARİXİNİN BİR HİSSƏSİ KİMİ TƏSVİRİ» ADLI SƏYAHƏTNAMƏSİ AZƏRBAYCAN TARİXİNİN MƏNBƏYİ KİMİ

BAKI – 2006

Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.

Elmi redaktor: t.e.d. prof. **Tofiq Mustafazadə**

Rəyçilər: t.e.n.dos. **Camal Mustafayev**
t.e.n. **Güntəkin Nəcəfli**

**Qarayev E.T.** F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı

Monoqrafiyada 1722-1723-cü illərdə I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə, o cümlədən Azərbaycana yürüşünün səbəbi, hərəkəti istiqaməti və həmin dövrdə Azərbaycanın iqtisadi vəziyyəti XVIII əsr rus səyyahı F.İ.Soymonovun səyahətnaməsi əsasında araşdırılmışdır. Kitaba səyahətnamədən Azərbaycanın iqtisadi vəziyyətinə dair iqtibaslar daxil edilmişdir.

$E\ \frac{194700083006}{1958000906}$ 2006 ADPU

# GİRİŞ

Azərbaycan tarixinin ayrı-ayrı dövrlərinə həsr olunmuş əsərlərin yazılmasında tədqiqatçılarımız bir sıra tarixi mənbələrlə yanaşı müxtəlif illərdə ölkəmizdə olmuş səyyahların yol qeydlərindən, xatirə və əsərlərindən istifadə etmişlər. Səyyah məlumatlarının tədqiqata cəlb olunması tarixi həqiqətləri aydınlaşdırmaqda xüsusi əhəmiyyət kəsb edir.

XVIII yüzilliyin Azərbaycan tarixinə müraciət edərkən dövrlə bağlı müxtəlif səpgili mənbələr qrupu arasında səyyah məlumatları dəyərinə görə özünəməxsus çəkiyə malikdir. Belə səyahətnamələrdən biri rus donanma zabiti və səyyahı olmuş F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» əsəridir.

Vaxtılə Şərqin qüdrətli dövlətlərindən biri olan, Azərbaycanın da daxil olduğu Səfəvi imperiyası XVII əsrin sonları – XVIII əsrin əvvəllərində dərin iqtisadi və siyasi böhran keçirirdi. Böhranla əlaqədar olaraq Səfəvi imperiyasında, o cümlədən Azərbaycanda mərkəzi hakimiyyət zəifləmiş, ayrı-ayrı əyalətlərdə özbaşnalıq artmışdı. Şah hökumətinin həyata keçirdiyi islahatlar böhranın qarşısını ala bilməmişdi. Bütün ölkəni narazılıqlar və xalq üsyanları bürümüşdü. Belə bir tarixi məqamda iki nəhəng im-

periyanın – Osmanlı Türkiyəsi və Rusiyanın Azərbaycana açıq müdaxiləsi başlamışdı.

Apardığı islahatlar nəticəsində ölkə sənayesinin inkişafına nail olan və sənaye üçün xammal bazası axtaran I Pyotrun başçılıq etdiyi Rusiya dövləti həm də bu dövrdə dənizlərə çıxmaq uğrunda mübarizə apardığından Xəzər dənizinə və onun ətrafında yerləşən ölkələrə böyük maraq göstərirdı. I Pyotr planlarını həyata keçirmək üçün ilk növbədə Xəzər dənizinin tədqiqinə və onun ətrafında olan ölkələrin, o cümlədən Azərbaycanın vəziyyəti haqqında məlumatlar toplamağa başlamışdı. Bu məqsədini həyata keçirmək üçün Rusiya dövləti müxtəlif bəhanələrlə nümayəndələrini regiona göndərərək xeyli məlumatlar toplaya bilmişdi. Əldə olunmuş məlumatlar kəşfiyyat xarakterli idi və Azərbaycanın demək olar ki, bütün sahələrini – ictimai-iqtisadi həyatını, ticarətini, təbii sərvətlərini, siyasi durumunu, hərbi vəziyyətini və mədəniyyətini əhatə edirdi. Bütün bu məlumatlar səyahətnamələrdə toplandığından Azərbaycanın o dövrkü vəziyyətini öyrənmək baxımından əhəmiyyətlidir.

XVIII yüzilliyin birinci rübündə Xəzər dənizini tədqiq edərkən bu dəniz və Azərbaycanda baş verən hadisələr haqqında daha obyektiv məlumat verən Rusiya dövlətinin nümayəndələrindən biri də donanma zabiti və səyyahı olmuş F.İ.Soymonovdur. Səyyah Xəzər dənizini tədqiq edərkən bir neçə il regionda fəaliyyət

göstərmiş və gündəliyini yazmışdır. Onun şəxsən tərtib etdiyi gündəliyi «Xəzər dənizinin təsviri və dənizçilik jurnalının xülaləsi» adlanırdı. Lakin həmin «jurnal» sonralar «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğalarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adı altında çap olunmuşdu. Nəşr olunduğu vaxtdan məşhurlaşmış səyahətnamə istər rus, istərsə də Azərbaycan tədqiqatçılarının nəzərini özünə cəlb etmişdi. Belə tədqiqatçılardan V.N.Leviatovu, V.N.Lıstsovu, H.B.Abdullayevi, A.A.Əbdürrəhmanovu, F.M.Əliyevi, T.T.Mustafazadəni, G.N.Məmmədovanı və başqalarını göstərmək olar. Rus səyyahları içərisində özünəməxsus yeri tutan F.İ.Soymonovun səyahətnaməsində I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili əyalətlərə yürüşü təsvir edilmiş, Azərbaycan şəhərləri olan Dərbənd, Bakı, Salyan və Niyazabad limanı ilə bağlı hadisələr işıqlandırılmışdır.

F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsinin araşdırılması bir neçə səbəbdən vacibdir. Əvvəla, səyyah şəxsən şahidi olduğu və eşitdiyi hadisələri qələmə aldığından səyahətnamədə Azərbaycanın siyasi və iqtisadi tarixinə aid zəngin məlumatlar vardır. Səyyah əsərində Xəzər dənizinin coğrafi sərhədlərini verməklə yanaşı, Azərbaycanın təbii sərvətlərini təsvir etmiş, Dərbənd, Bakı, Salyan şəhərlə-

rinin və Niyazabad limanının vəziyyətini qələmə almışdı. Bundan başqa səyahətnamədə Azərbaycan – Rusiya iqtisadi, ticarət münasibətlərinə toxunmuşdur ki, bu da ölkəmizin həmin dövlətlə olan münasibətini aydınlaşdırmağa imkan yaradır.

Bundan əlavə, səyahətnamədə 1722-1723-cü illərdə I Pyotrun başçlığı ilə rus qoşunlarının Xəzərsahili əyalətlərə yürüşü haqqında geniş məlumat verilir. Bu tarixi yürüşün əsas iştirakçılarından biri olan F.İ.Soymonov yürüşü Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyi və ticarətin qorunması ilə bağlayır. Lakin səyyah əsil həqiqəti – Rusiyanın Xəzərsahili əraziləri işğal etmək niyyətini gizlədə bilməmişdir.Məhz yürüşün həqiqi məqsədini aydınlaşdırmaq baxımından səyahətnamənin əhəmiyyəti misilsizdir.

F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» səyahətnaməsi Azərbaycan tarixşünaslığında çoxdan bəlli olmasına və ondan istifadə edilməsinə baxmayaraq, onun həqiqi qiymətini verə biləcək tədqiqat əsəri yoxdur. Bu səbəbə görə, həmin səyahətnamə bizim tərəfimizdən ayrıca tədqiqat obyekti kimi seçilmişdir.

Monoqrafiyanın ərsəyə gəlməsində mənə dəyərli elmi məsləhətləri ilə böyük kömək göstərmiş Tarix İnstitutunun «Azərbaycanın qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü tarixi» şöbəsinin müdiri, tarix elmləri doktoru, pro-

fessor T.T.Mustafazadəyə, vaxt ayırıb əsəri oxuyaraq, ona müsbət rəylərini vermiş tarix elmləri namizədi, dosent C.M.Mustafayevə və tarix elmləri namizədi G.C.Nəcəfliyə, bununla belə bütün şöbə əməkdaşlarıma, nəhayət əsərin yazılmasında mənə mənəvi dəstək olmuş, dostum tarix elmləri namizədi R.Y.Niftəliyevə öz minnətdarlığımı bildirirəm.

# I FƏSİL

## F.İ.SOYMONOVUN HƏYATI VƏ ONUN «XƏZƏR DƏNİZİNİN VƏ ORADA HƏYATA KEÇİRİLƏN RUSİYA İŞĞALLARININ, İMPERATOR BÖYÜK PYOTURUN TARİXİNİN BİR HİSSƏSİ KİMİ TƏSVİRİ» ADLI SƏYAHƏTNAMƏSİ

XVIII əsrin əvvəllərində Rusiya dövlətinə başçılıq edən I Pyotr Xəzərsahili əraziləri işğal etmək məqsədilə xüsusi hərbi hazırlıq işləri görürdü. Bu məsələ ilə bağlı Səfəvi imperiyasına, habelə onun tərkib hissəsi olan Azərbaycana marağı artmış və onun adamları tərəfindən Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatı haqqında kəşfiyyat xarakterli ətraflı məlumat toplanmağa başlanmışdı. 1716-1718-ci illərdə Səfəvi sarayına göndərilmiş nümayəndə heyyəti bu işin öhtəsindən bacarıqla gələ bilmişdi. A.P.Volınskinin, C.Belin, A.İ.Lopuxinin Azərbaycanda olarkən topladıqları məlumatlar ölkəmizin iqtisadi, siyasi və mədəni həyatını öyrənmək baxımından əvəzsiz mənbələrdir(21; 50; 38).

Göstərilən mənbələrlə yanaşı, XVIII əsrin birinci yarısında Azərbaycanın iqtisadi və siyasi vəziyyətini öyrənmək baxımından F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı

səyahətnaməsi də xüsusi yer tutur (54).

F.İ.Soymonov öz dövrünün çox tanınmış və nadir şəxsiyyətlərindən biri olmuşdur. O, ilk rus hidroqrafı (coğrafiyanın yer üzündəki sularını öyrənən və təsvir edən bölməsi – E.Q), xəritəşünası, məşhur donanma zabiti və səyyah olduğuna görə tədqiqatçıların nəzər-diqqətini özünə cəlb etmişdir (52,44-48; 19,6; 49,59-61; 58; 51,555; 25; 24; 34).

Fyodor İvanoviç Soymonovun hansı ildə anadan olması haqqında tarixi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bir sıra əsərlərdə (49,59;51,555;25,4) onun 1682-ci ildə anadan olduğu göstərilir. Lakin F.İ.Soymonovun həyat və fəaliyyətindən bəhs edən monoqrfiya müəllifi L.A.Qoldenberq həmin tədqiqatçılardan fərqli olaraq səyyahın özü haqqında yazdığı məlumatları təhlil edərək onun 1692-ci ildə anadan olduğunu qeyd edir (24,59). O, əslinəcabətli nəslə mənsub olmuşdur. F.İ.Soymonovun ata-babaları XV əsrə gedib çıxan Moskva zadəgan nəslinə mənsub idi və onların Moskva ətrafı Serpuxov, Tarus və Leksin rayonlarında xeyli mülkləri vardı (24,5-6). F.İ.Soymonov ilk təhsilini ev şəraitində almışdı. O, uşaqlıq illərində riyaziyat və latın dilinə maraq göstərmiş və bu sahələrdə müəyyən uğurlar qazanmışdı.

XVIII əsrin əvvəllərində Rusiyada iqtisadi və siyasi vəziyyətin inkişafı ilə əlaqədar, I Pyotrun bilavasitə başçılığı ilə ölkənin bütün

sahələrində geriliyə qarşı mübarizə aparılırdı. Dövlət aparatından tutmuş, müxtəlif sahələrdə-təsərrüfatda, orduda, mədəniyyətdə geriliyə qarşı ciddi tədbirlər görülürdü. Bu illərdə müxtəlif təhsil ocaqları fəaliyyətə başlamışdı. 1701-ci ildə gəmi tikintisi və dənizçi mütəxəssisi hazırlayan Moskva gəmiçilik məktəbinin açılması mütərəqqi hadisə idi (24,10-11).

F.İ.Soymonov 1708-ci ildə Moskva dənizçilik məktəbinə daxil olur və burada qardemarin (çar Rusiyasında dəniz kadet korpusunun yuxarı sinif tələbəsi – E.Q.) rütbəsi ilə təltif olunur. Təhsilini başa vurduqdan sonra bir çox tələbələrlə birlikdə Rusya dövləti tərəfindən dənizçilik təcrübəsinə yiyələnmək üçün Hollandiyaya göndərilən F.İ.Soymonov özünün cəsurluğu və savadı ilə yoldaşlarının hörmətini qazanmışdı (25,6;24,15). Xaricidə olarkən alman, holland və latın dillərini mükəmməl öyrənmiş, təcrübə üçün iki dəfə Skandinaviya yarımadasını dövr etmiş, hətta Lissabon şəhərində olmuşdu (24,16; 25,6).

Dənizçilik təcrübəsini müvəffəqiyyətlə başa vuran F.İ.Soymonov 1715-ci ilin axırlarında vətəni Rusiyaya qayıdır. Xoşbəxt bir təsadüf nəticəsində o, I Ryotrla qarşılaşır. Belə ki, 1716-cı ilin əvvəllərində miçnam rütbəsini almaq üçün F.İ.Soymonov imtahan verərkən, imtahanın gedişini izləmək üçün şəxsən çar I Pyotr burada iştirak emişdi. Sınaq nəticəsində, 48 nəfər qardemarindən yalnız 17 nəfəri müvəf-

fəqiyyətlə imtahan verə bilmişdi (25,6;24,18). Bu hadisə sonralar gənc dənizçinin həyatında böyük rol oynamışdı.

Gənc dənizçi savadı və bacarığı ilə elə ilk andan I Ryotrun diqqətini özünə cəlb edir və onun göstərişinə əsasən 1716-cı il yanvarın 27-də çara məxsus 64 topu olan «İnqermanland» adlı gəmiyə miçman vəzifəsinə dəvət olunur (51,555;24,18). Baltik donanmasında qulluq edərkən gənc miçmanın hidroqraf kimi istedadı üzə çıxır. F.İ.Soymonov 1716-1718-ci illərdə Baltik dənizində – Qanqut, Daqeror və digər yerlərin tədqiqində yaxından iştirak etmiş və burada hidroqrafiya sahəsində ilk təcrübəsini qazanmışdı.

Baltik dənizi vasitəsilə Qərb ölkələrinə yol açmaq niyyətində olan I Pyotr eyni zamanda Rusiyanın cənubundakı Xəzər dənizini də nəzərdən qaçırmamışdı. IV İvan Qroznının (1533-1584) dövründə Xəzər dənizinə çıxış əldə edən Rusiya üçün XVIII əsrin əvvəllərinə qədər bu dəniz müəmma olaraq qalırdı.

«I Pyotrun çarlığı dövründə Xəzər dənizinin ticarət münasibətlərində əhəmiyyəti daha da artdı. Bu dövrdə Rusiya üçün Qara dənizə yol yox idi. Onun ətrafının bir hissəsi düşmənçilik etdiyi Türkiyəyə, digər hissəsi Krım xanına məxsus idi. Xerson, Yekaterinslav və Tavriya quberniyalarının şimal hissəsi boş çöllər, ticarət üçün dözülməz əngəl yaradan tatar ordasının daimi məskəni idi. Bu səbəblərə

görə, Böyük Pyotr Xəzər dənizini Şərq ölkələri ilə həqiqi ticarət əlaqəsi yaratmaqda görürdü. O, fikirləşirdi ki, bütün hind-Avropa ticarətini bu dəniz vasitəsilə yönəltmək lazımdır. Bu dəniz sözsüz İran, Mərkəzi Asiya xalqları, Kiçik Asiyanın bir hissəsi və varlı Zaqafqaziya üçün ticarət yolu idi. Xəzər dənizi vasitəsilə Şərq ölkələri ilə ticarətin inkişafı Rusiyanın varlanmasına, bütün sənayenin inkişafının genişlənməsinə xidmət edərdi və Böyük Pyotru belə bir fikrə gətirdi ki, imkandan istifadə edərək bu dənizi Rusiyanın məhəlli dənizi etsin» (35,553-554).

I Pyotr Xəzər dənizini tədqiq etmək və onun xəritəsinin tərtibinə nail olmaqı qarşısına məqsəd qoymuşdu. Bu məqsədlə XVIII əsrin əvvəllərində Rusiya dövləti tərəfindən Xəzər dənizini tədqiq etmək üçün oraya bir neçə ekspedisiya göndərilir. Lakin təşkil olunmuş ekspedisiyalar heç bir müvəfəqiyyət qazanmamışdı (34,25). Müvəffəqiyyətsizliyə baxmayaraq Xəzər dənizinin tədqiq olunması üçün mütəmadi olaraq ekspedisiyalar təşkil edilirdi. Belə ekspedisiyalardan biri knyaz Aleksandr Bekoviç-Çerkasskinin başçılığı ilə olmuşdu. F.İ. Soymonovun səyahətnaməsində bu ekspedisiya haqqında ətraflı məlumat verilir. Aleksandr Bekoviç-Çerkasskinin başçılığı ilə göndərilən ekspedisiyanın səbəbi belə açıqlanır: «1713-cü ildə adlı-sanlı Xoca Nefes (Nəcəf?) adlı bir türkmən Həştərxana gəlir. O, Həştərxanda olarkən xristianlığı qəbul etmiş

rusların Samanov adlandırdığı, əslən Gilanlı olan birisilə tanış olur və onlar dostlaşırlar. Onunla söhbətlərində Xoca Nefes xəbər verir ki, çar I Pyotr Amu-Dərya çayı ətrafını qızılla zəngin olan qumluğu çox olduğuna görə öz hakimiyyəti altına alarsa bu işdə tükmənlər ona kömək edəcəklər. Eyni zamanda o, qeyd edir ki, əvvəllər Amu – Dərya çayı Xəzər dənizinə tökülürdü, lakin sonradan özbəklər onun qarşısına bənd çəkərək çayın məcrasını Aral dənizinə yönəltmişlər. Bu işdə gəlir götürməsindən sevinən knyaz Samanov onu Moskvaya və Sankt-Peterburqa aparır. 1714-cü ilin yazında paytaxtda olan Samanov və Xoca Nefes I Pyotrun görüşündə olurlar. I Pyotra verilən məlumatı Xivə xanlığının səfiri də təsdiq emişdi» (54,5-6). Bu xəbəri alan I Pyotr oraya yeni heyyət göndərməyi qərara alır. Beləliklə, 1715-1716-cı illərdə Aleksandr Bekoviç-Çerkasskinin başçılığı ilə xüsusi ekspedisiya təşkil olunur. Həmin ekspedisiyada donanma zabitləri A.Kojin və M.Travin də iştirak edirdilər. Nəticədə, Xəzər dənizinin şərq sahillərinin xəritəsi tərtib olunur (54,9). Lakin bu ekspedisiya da gözlənilən nəticəni vermir. Knyaz Aleksandr Bekoviç-Çerkasski isə 1717-ci ilin avqustun axırlarında Xivə xanı tərəfindən öldürülür (54,26).

Xəzər dənizinin şərq sahillərinin tədqiqi səviyyəsi çar I Pyotru qane etmirdi. Ona görə də, Rusiya dövlətinin başçısı Xəzər dənizinin

qərb sahillərini öyrənmək və bu dənizin xəritəsini tərtib etmək üçün yeni ekspedisiya göndərilməsi qənaətinə gəlmişdi. Bu məqsədlə, 1719-cu il yanvarın 8-də xüsusi komissiya Karl fon Verdenin (o, hollandiyalı olsa da, İsveç donanmasının şturmanı idi və 1703-cü ildə ruslar tərəfindən əsr alınmış, əsirlikdə olarkən rus xidmətinə keçmişdi – E.Q) və F.İ.Soymonovun başçılığı ilə Xəzər dənizinin qərb sahillərini öyrənmək üçün ekspedisiya göndərməyi qərara alır (54,33). Bu dövrdə F.İ.Soymonov yaxşı xidmətinə görə leytenant rütbəsi ilə təltif olunmuşdu (24,20-21). Ekspedisiyanın məqsəd və fəaliyyəti üçün 1719-cu il yanvarın 18-də kapitan-leytenant Karl fon Verdenin adına xüsusi təlimat verilmişdir. Həmin təlimatda deyilirdi: «təcili olaraq Həştərxana getməli və oradan dəniz sahili ilə sağa dönərək Türkmənistan sahillərini tədqiq etmədən Astrabada, Astrabaddan isə birbaşa Həştərxana getmək lazımdır.Bütün istiqamətlərdəki yollara nizamla baxmalı: liman və çaylara və hansı gəmilər oraya yan alır? həmçinin fırtına vaxtı oradan xilas olmaq mümkündürmü? Əgər liman yoxdursa, sahil möhkəm və yaxud dayazdırmı? Birbaşa sahilə çıxmaq olarmı? Bizdə olan kimi düzəldilmiş yastıdiblilər (gəmilər) sahilə çıxarıla bilərmi? Sualtı qayalara, daşlara və s. baxmaq və bunları xəritədə düzgün əks etdirməli. Habelə dənizdən keçərkən hansı adalara və dayaz yerlərə təsadüf olunarsa,

həmçinin dənizin hansı hissəsinin genişliyi xəritədə əks etdirmək lazımdır» (24,21). Göründüyü kimi, təlimat kəşfiyyat səciyyəsi daşıyırdı. F.İ.Soymonov «Xəzər dənizinin təsviri və dənizçilik jurnalının xülasəsi» adlı gündəliyində bu təlimata belə qiymət verirdi: « Karl fon Verdenə verilmiş gizli şifahi əmrdən başqa, onlar tərəfindən alınan təlimat bütünlükdə ümumi idi. Bu təlimatın əhəmiyyəti Həştərxandan Astrabada qədər dənizin qərb sahillərini ticarətin xeyri üçün tədqiq etməkdən ibarət idi » (24,21-22). (Təəssüf ki, F.İ.Soymnovun «Jurnal»ından gətirilən bu iqtibas səyahətnamə Q.M.Miller tərəfindən çap olunarkən oradan çıxarılmışdır). F.İ.Soymonovun bu qeydinə baxmayaraq, təlimatın hərbi-kəşfiyyat səciyyə daşıması bütün aydınlığı ilə özünü biruzə verirdi. Xəzər dənizi tədqiq edilərkən təkcə ticarət məsələləri deyil, həmçinin gələcəkdə rus qoşunlarının cənub istiqamətində yürüşü də nəzərə alınmışdı.

F.İ.Soymonovun səyahətnaməsində bu tarixi ekspedisiyanın fəaliyyəti haqqında ətraflı bəhs edilmişdir. O yazırdı ki, xüsusi komissiyanın qərarına əsasən unter -leytenantlar Qriqori Zolotaryev və Pyotr Doroşenko başda olmaqla piyadalardan ibarət 89 nəfər ekspedisiyada iştirak etməli idi. Onlar 1719-cu il fevralın axırlarında Sankt-Peterburqdan hərəkət edərək aprelin əvvəllərində Kazan şəhərinə, oradan da onlar üçün hazırlanan böyük bir

botda (avarlı, yelkənli gəmi – E.Q) və digər üç kiçik qayıqda Həştərxan şəhərinə gəlirlər. Həştərxanda olarkən knyaz V.A.Urusov da onlara qoşulur. Həmçinin Həştərxan qarnizonunun 150 nəfərdən ibarət zabit və əsgərləri ekspedisiyaya cəlb olunuşdu. Ekspedisiyada iştirak edən gəmi heyyəti üç hissəyə bölünmüşdü və hər bir gəmiyə bir zabit başçılıq edirdi: Karl fon Verden «Müqəddəs Aleksandr» şnavını (uzunluğu 72-94 futa (1 fut – 30,5 sm.) bərabər, 10-15 topu olan iki dor ağaclı yelkənli gəmi – E.Q.), knyaz V.A.Urusov «Həştərxan» şnavını və F.İ.Soymonov isə «Müqəddəs Yekaterina» şnavını idarə edirdi (54,33-34). Botda gələnlər də onlarla bir yerdə açıq dənizə çıxmalı idi.

Beləliklə, ekspedisiya 1719-cu il may ayının axırlarında açıq dənizə çıxır. Ekspedisiya üzvləri iki dəstəyə bölünmüşdü. Botu idarə edən unter-leytenant Q.Zolotaryev və P.Doroşenko dəstədən ayrılaraq Volqa çayının mənsəbindən Terek çayının mənsəbinə qədər Xəzər dənizinin şimal hissəsini öyrənməli idilər. Digər üç şnav isə Tyülen yarımadasına, oradan Terek çayının mənsəbinə gələrək buradan Xəzər dənizinin qərb sahillərinin tədqiqinə başlayır (54,34-35). Bu ərazi haqqında lazımi biliklər əldə etdikdən sonra, ekspedisiya Aqraxan yarımadasına və oradan isə Dərbəndə gəlib çatır. Sonrakı istiqamət Niyazabad limanı-Abşeron yarımadası və Kürün mənsəbi idi. Heyət şlyubkalarda (yel-

kənli qayıq növü – E.Q.) Kür çayına keçərək 10 verst (1 verst-1,05 kilometrə bərabərdir – E.Q.) yol qət edir və geri dönür. Kür çayı mənsəbində işini yekunlaşdıran ekspedisiya üzvüləri 1719-cü il sentyabrın 7-də Həştərxana qayıdır (54,35-46).

Ekspedisiya başa çatdıqdan sonra F.İ.Soymonov heyyətin digər üzvləri ilə birlikdə əldə edilmiş materiallar əsasında Xəzər dənizinin qərb sahillərinin – Volqa çayının mənsəbindən Kür çayının mənsəbinə qədər xəritəsini tərtib edir. 1719-cu il oktyabrın 15-də çəkilib hazırlanmış xəritə «Volqa çayının mənsəbindən Kür çayının mənsəbinə qədər Xəzər dənizinin səthi xəritəsi...» adlanırdı. F.İ.Soymonov xəritə tərtib olunduqdan sonra əldə olunmuş materiallarla birlikdə Sankt-Peterburqa göndərilir. I Pyotr onların işindən razı qalmışdı. F.İ.Soymonov isə gələn ilin yayında ekspedisiyanı yenidən davam etdirmək əmri alaraq bir neçə həftədən sonra geri qayıdır (54,47-48;25,10;24,24).

Həştərxana qayıdan F.İ.Soymonov əvvəlki gəmi və heyyət üzvləri ilə birlikdə ikinci dəfə ekspedisiyaya hazırlaşır. Heyət üzvləri 1720-ci il may ayının axırlarında Həştərxandan hərəkət edərək birbaşa Kür çayının mənsəbinə gəlib çatırlar. Bu ərazini tədqiq etdikdən sonra onlar Qızılağac körfəzinə daxil olaraq Astara çayının mənsəbində sahilə çıxırlar. Yerli Astara bəyi onları hörmətlə qarşılayır. F.İ.Soymo-

nov Astarada olarkən onların hörmətlə qarşılandığını və qonaq dəvət olunduğunu yazırdı. Dəvəti qəbul edən Karl fon Verden, knyaz V.Urusov və F.İ.Soymonov üç qardimarinlə birlikdə yerli bəyin qonağı olurlar. Qonaqlıq qarşılıqlı hörmət şəraitində keçir. Yerli əhalinin yeməkləri, çalğı alətləri qonaqların çox xoşuna gəlir (54,49-50). Astaranı tərk edən ekspedisiya üzvləri əvvəl Ənzəli limanına, oradan Peribazar çayına daxil olaraq 5 verst hərəkət etdikdən sonra geri qayıdaraq Astrabada, Mazandarana qədər dəniz sahilini öyrənirlər. Bu yerləri tədqiq etdikdən sonra onlar 24 mil (1mil-1852metr – E.Q.) məsafəsində Xəzər dənizinin şərq sahili ilə şimala doğru səyahətlərini davam etdirir. Sonda geri qayıdaraq Həştərxana doğru hərəkət edirlər. Heyət üzvləri 12 gündən sonra Volqa çayının mənsəbinə gəlib çatır (54,50-53).

Həştərxana qayıdan bütün zabit heyəti əldə olunmuş nəticələri tezliklə Sankt-Peterburqa çatdırır. I Pyotrun göstərişinə əsasən, knyaz Aleksandr Bekoviç-Çerkasskinin, A.Kojinin və M.Travinin Xəzər dənizinin şərq sahillərinə aid tədqiqatları ilə birlikdə hər iki ekspedisiyanın nəticələri əsasında Xəzər dənizinin mükəmməl xəritəsi tərtib olunur. Xəritənin tərtib olunmasında F.İ.Soymonov xüsusi fəallıq göstərmişdi. Əldə olunmuş xəritənin bir nüsxəsi I Pyotr tərəfindən (I Pyotr 1717-ci il 22 dekabrında Paris Elmlər Akademiyasının üzvü

seçilmişdi – E.Q.) minnətdarlıq fərmanı ilə birlikdə Paris Elmlər Akademiyasına göndərilir (54,54;25,10;24,34;58,17) (Bax: 1-ci xəritəyə). Xəzər dənizinin bu mükəmməl xəritəsi Avropada səs-küyə səbəb olmuş və yüksək qiymətləndirilmişdi (25,10-11;24,34).

Xəzər dənizinin tədqiq olunmasında böyük fəallıq göstərən F.İ.Soymonov 1722-23-cü illərdə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşündə donanma zabiti kimi iştirak etmişdi. O, 1722-27-ci illər arasında Xəzər dənizində fəliyyət göstərən rus donanmasında quluq edərək bir neçə dəfə bu dənizin Azərbaycana aid olan hissəsində hidroqraf kimi tədqiqat işi aparmışdı. I Pyotrun Kür çayı mənsəbində iri ticarət şəhəri salması planı ilə əlaqədar olaraq F.İ.Soymonov 1722-ci il noyabrın 28-də, 1723-ci il martın axırlarında burada olmuş və nəticədə Kür çayının mənsəbinin xəritəsini tərtib etmişdi (54,113,132;25,14).

Lakin Xəzər dənizinin tərtib olunmuş xəritəsi F.İ.Soymonovu qane etmirdi. Səyyahın həyat və fəaliyyətindən bəhs edən V.Q.Qonçarov yazırdı: «F.İ.Soymonov bir neçə dəfə demişdi ki, Xəzər dənizinin xəritəsi müharibə şəraitində tələsik tərtib olunub, ona görə də onlar (əldə olunmuş nəticələr) ciddi yoxlanılmalıdır. I Pyotr onunla razılaşır və vəfat etməmişdən bir qədər əvvəl, 1725-ci ildə dənizin bütün sahillərini yoxlamağı icazə verir» (25,16). Beləliklə, Xəzər dənizinin şərq sahil-

lərini yenidən tədqiq etmək məqsədilə Admirallıq heyətinin (çar Rusiyasında hərbi donanma idarəsi və onun baş orqanları – E.Q.) fərmanına əsasən, xüsusi ekspedisiya göndərilməsi qərara alınır. F.İ.Soymonov bu ekspedisiyanın rəhbəri təyin olunur (54,205).

Ekspedisiyada iki gəmi – «Tsaritsın» qekpotu (yastı dibli gəmi – E.Q.) və «Həştərxan» şnavı iştirak edirdi. Qekbotda 10 çuğun top və 86 adam yerləşdirilmişdi. Şvanda isə 6 çuğun top və 54 adam var idi (54,205-206). F.İ.Soymanova ekspedisiyanın təşkilində-zabit heyyətinin, piyada əsgərlərin, gəmilərin seçilməsində geniş səlahiyyət verilmişdi.

Nəhayət, Həştərxandan yola düşən ekspedisiya 1726-cı il mayın 6-da açıq dənizə çıxır. F.İ.Soymonovun komandanlığı altında «Həştərxan» şvanı Xəzər dənizinin şərq sahilləri ilə hərəkət edərək Tuk-Karaqana istiqamət götürür. Bot isə Ural (Yaik) çayının mənsəbinə doğru hərəkət edir.

F.İ.Soymonov heyət ilə birlikdə əvvəl Kulali (Quləli?) adasına, oradan da Qarabоğazçöl körfəzinə daxil olur. Xəzər dənizinin şərq sahillərini öyrənən gəmi heyəti cənuba doğru hərəkət edərək Astrabad körfəzinə, oradan isə Xəzərin qərb sahillərilə şimala Gilan, Abşeron körfəzi Dərbənd istiqamətində gələrək orada olduqdan sonra Həştərxana qayıdır. Bu ekspedisiya 6 ay (1726-cı il mayın 6 dan-noyabrın 6-na kimi) davam etmişdi (54,204-235).

Həştərxan şəhərinə qayıdan F.İ.Soymonov ekspedisiya zamanı əldə olunmuş nəticələr əsasında Xəzər dənizinin yeni xəritəsini tərtib etmiş və onu «Admirallıq» donanma idarəsinə göndərmişdi. İdarədə onun işi yüksək qiymətləndirilir və nəticədə o, Sankt-Peterburqa dəvət olunur. Vətən qarşısında gördüyü xidmətə görə F.İ.Soymonov İmpeqatiça I Yekaterina tərəfindən üçüncü dərəcəli kapitan rütbəsi ilə mükafatlandırılır. Onun tərtib etdiyi yeni xəritəsi isə1731-ci ildə çap olunur (54,235-236) (Bax: 2-ci xəritəyə).

F.İ.Soymonovun 1727-1730-cu illər fəaliyyəti haqqında müxtəlif fikirlər vardır. Bir sıra tarixi ədəbiyyatda (49,60;51,555;25,18) F.İ.Soymonovun bu dövrdə Baltik donanmasında qulluq etməsi haqqında məlumatlar verilir. Lakin L.A.Qodenberqin qənaətinə görə, səyyah həmin illərdə məzuniyyət götürəqək ailə qurmuş və elmi fəaliyyətlə məşğul olmuşdur (24,56-58).

F.İ.Soymonov 1730-cu ildə «Admirallıq» hərbi donanma idarəsində prokuror vəzifəsinə işə qəbul edilir. İki il işlədikdən sonra 1732-ci ildə ober-şter-kriks komissar (donanmanın baş indendantı-donanmanın hərbi təsərrüfat işləri idarə edən – E.Q) vəzifəsinə təyin olunur. O, bu vəzifədə olarkən 1734-cü ildə Dansikin (Qdansk) mühasirəyə alınmasında iştirak etmişdi (42,85;25,20;51,555).

İşində məsuliyyətli, bacarıqlı və qabiliyyətli

olan F.İ.Soymonov tezliklə, daha yüksək vəzifələrə irəli çəkilirdi. O, 1738-ci ildə general-mayor rütbəsi alaraq, Senatda ober-prokuror vəzifəsini tutur. 1739-cu ildə isə F.İ.Soymonov general-kriqs komissar vəzifəsində Admirallıq heyyətinin vitse-prezidenti seçilir.Bu vəzifədə işləməklə bərabər F.İ.Soymonov Şimal Buzlu okeanının sahillərini tədqiq etmək üçün təşəbbüs göstərir. Nəhayət, 1740-cı ildə Ağ dənizin xəritəsi tərtib olunur (25,21).

1740-ci ildə Rusiya hakimiyyət dairələrində baş verən çəkişmələr ilə əlaqədər olaraq F.İ. Soymonov həbs edilir. 1730-1740-cı illərdə İmperatriçə Anna İvanovnanın dövründə Rusiya xidmətində olan alman mənşəli – Biron, Minix, Osterman və başqaları hakimiyyəti faktiki olaraq idərə edirdilər. Onlara qarşı A.P.Volınskinin başçılığı ilə rus əsilli zadəganların müxalifəti fəaliyyət göstərirdi. Bu mübarizədə İmperatriçəyə arxalanan Biron və digərləri müxalifətdə olan A.P.Volınskinin, P.M.Yeropkinin, A.P.Xuruşovun, P.Musin-Puşkinin, İ.Eyxlerin, İ.Sudanın və F.İ.Soymonovun həbsinə nail olurlar. İstintaq nəticəsində onlar dövlətə xəyanətdə günahkar bilinərək ölüm cəzasına məhkum edilirlər. Nədənsə sonradan Anna İvanovna onlardan bəzilərinin cəzasını yüngülləşdirmək üçün ayrıca fərman verir. Fərmana əsasən, F.İ.Soymonova, İ.Euxlerə verilmiş ölüm cəzası şəhər əhalisinin gözü qarşısında qırmancla şallaqlanaraq, ciddi nəzarət altında

ömürlük Sibir sürgününə-Oxotski şəhərinə göndərilməsi ilə əvəz edilmişdi. A.P.Volınskiyə, P.M.Yeropkinə və A.P.Xuruşova istintaq orqanlarının çıxardığı ölüm cəzası isə qüvvədə qalırdı (55,16-20;25,22;24,101). İki ilə qədər sürgündə olan F.İ.Soymonov 1742-ci ildə İmperatiçə I Yelezavetanın fərmanı ilə sürgündən azad olunur (25,22;24,124).

1743-1753-cü illərdə F.İ.Soymonovun həyat fəaliyyəti haqqında ədəbiyyatda ziddiyyətli fikirlər mövcuddur. Bəzi əsərlərdə (49,61;51,-555;25,23) onun özünün arzusu ilə Sibirdə qaldığını göstərilərsə, məsələn L.A.Qolderberq monoqrafiyasında (24,127) həmin illərdə F.İ.Soymonovun Moskva ətrafı mülkündə yaşadığını, təsərrüfatla və qohumları ilə mübahisəli torpaq məsələsinin həlli ilə məşğul olduğunu yazır.

Uzun illər dənizçilik işindən uzaq düşən F.İ.Soymonov nəhayət, 1753-57-ci illərdə Senat tərəfindən məxfi Nerçinski ekspediyasının rəhbəri təyin olunur. Ekspedisiyanın gərgin fəaliyyəti nəticəsində Şilka, Amur çaylarının, Nerçinski şəhərinin planı və xəritəsi tərtib olunur. Onun bu işi Senat tərəfindən yüksək qiymətləndirilir və F.İ.Soymonov yenidən hökümət işinə qaytarılır (24,143-144;25,24).

1757-ci il martın 17-də II Yekaterinanın fərmanına əsasən, F.İ.Soymonov Sibirin qubernatoru təyin olunur. Orada 6 il işləyən F.İ.Soymonov özünün bacarıq və qabiliyyəti

ilə Sibir quberniyasının inzibati və təsərrüfat həyatında böyük rol oynamışdı (25,25).

F.İ.Soymonovun Sibirdə fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilir və o, 1763-cü ildə Moskvaya Senatda işləməyə dəvət olunur. Bir müddət Moskvada işlədikdən sonra Sankt-Peterburqda, Senatda vəzifəsini davam etdirir. Senatda xidməti vəzifəsində işləməklə yanaşı o, hətta İmperatriçə II Yekaterinanın donanma işində onun yaxın məsləhətçilərindən biri olmuşdu (25,29).

1766-cı ildən istefaya çıxan F.İ.Soymonov Moskva əyalətinin Serpuxov şəhərində yerləşən mülkündə yaşayırdı. Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan F.İ.Soymonov 1780-cı ildə 88 yaşında (bəzi məlumatlara görə 98 yaşında) vəfat edir. O, Serpuxov şəhər monastrında dəfn olunur (24,219;25,29).

V.Q. Qonçarov onun şəxsiyyətini qiymətləndirərək yazırdı: «F.İ.Soymonov XVIII əsrdə Rusiyanın ən görkəmli şəxsiyyətlərindən biri idi. O, dənizçi, tədqiqatçı, hərbiçi, alim və inzibatçı olmuşdur» (25,30).

Məşhur hidroqraf, xərtəşünas, dənizçi, səyyah olan F.İ.Soymonovun müxtəlif məsələlərə həsr olunmuş 11 əsəri qalmışdır (25,31). Bu əsərlərin içərisində onun Azərbaycan tarixi ilə əlaqədar xatirələri də vardı. F.İ.Soymonovun Azərbaycanla bağlı nəşr olunmuş əsərləri aşağıdakılardır:

1.«Volqa çayının mənsəbindən, Yarkov

qolundan Astrabad çayının mənsəbinədək Xəzər dənizinin təsviri, xəritə və atlasla bir yerdə» SP.b.1731il.

2.«Bakı və onun ətraf əraziləri haqqında məlumat» Sankt-Peterburq xəbərləri», 1739 il.

3.«Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri». SP.b ,1763 il.

4.«Qədim, orta və yeni dövrlərdə Xəzər dənizinin ticarəti haqqında».SP.b,1769il.

Tədqiqat gedişində F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsindən istifadə etmişik. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, görkəmli səyyah 1719-1727-ci illərdə rus donanmasında qulluq edərkən Xəzər dənizi və onun sahillərində yerləşən ölkələr haqqında «Xəzər dənizinin təsviri və dənizçilik jurnalının xülasəsi» adlı gündəliyini yazmışdır. Həmin «jurnal» 1763-cü ildə Rusiya Elmlər Akademiyasının üzvü, tarixçi doktor Q.F.Miller tərəfindən «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarılarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adı altında Sankt – Peterburqda nəşr edilmişdir.

F.İ.Soymonovun göstərilən səyahətnaməsinə Rusiya və Azərbaycan tarixşünaslığında tez-tez müraciət edilməsi əsərin xüsusi əhəmiy-

yətə malik olduğunu göstərir. Səyahətnamə əsasən, Xəzər dənizinin təsviri və I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ölkələrə yürüşü haqqındadır. Səyahətnamənin yazılmasının səbəbini müəllif belə şərh edir: «Biz burada yalnız Böyük Pyotrun hansı çətinliklərlə üzləşərək Xəzər dənizi və onun ətraf ölkələri haqqında məlumat toplanmasını göstərəcəyik. Ölməz hökmdarın bu əziyyətini lazımli işlər cərgəsinə daxil etmək olar, çünki bu əziyyət təkcə maraq xatirinə deyil, həmçinin ölkənin sərhədlərinin təhlükəsizliyini təmin etmək və öz təbələrinə bir sıra Asiya ölkələri ilə yeni ticarət sahələrini göstərmək üçün çəkilmişdi» (54,3-4).

«Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnamə XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin öyrənilməsi baxımından çox qiymətlidir. Əsərdə Azərbaycanın Xəzərsahili əyalətlərinin, habelə, Dərbənd, Bakı, Salyan şəhərlərinin, Niyazabad limanının iqtisadi və siyasi vəziyyəti öz əksini tapmış, həmçinin Azərbaycan Rusiya münasibətləri, Dağıstan, İran tarixi ilə bağlı hadisələrə toxunulmuşdur.

Səyyah F.İ.Soymonov şəxsən şahidi olduğu və eşitdiyi hadisələri qələmə almışdır. Məsələyə belə yanaşdıqda onun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsi ilkin mənbə

hesab edilə bilər. 380 səhifədən, 13 fəsildən ibarət olan səyahətnamə həcimcə genişdir. Lakin səyahətnamənin bəzi fəsilləri tədqiqat işimiz üçün lazımli deyildir. Tədqiqat işinə aid olan fəsillər isə bunlardır:

Birinci fəsil «Əvvəlki təcrübə və kəşflər haqqında» adlanır. Bu fəsildə Aleksandr Bekoviç Çerkasskinin başçılığı ilə Xəzər dənizinin şərq sahillərini tədqiq etmək üçün göndərilmiş ekspedisiyanın səyahətindən bəhs edilir.

İkinci fəsil «1719-1720-ci illərdə Xəzər dənizinin qərb sahillərinin təsviri» adlanır. Fəsildə Xəzər dənizinin qərb sahillərini tədqiq etmək üçün 1719-1720-ci illərdə Rusiya dövləti tərəfindən Karl fon Verdenin və F.İ.Soymonovun başçılığı ilə göndərilmiş ekspedisiyanın işi təsvir edilmişdi. Göstərilmişdir ki, ekspedisiya zamanı Xəzər dənizinin xəritəsi tərtib olunmuş və Azərbaycanın dənizətrafı əyalətləri haqqında məlumat toplanmışdı.

«1722-ci ildə Böyük Pyotrun Xəzər sahilində yerləşən iran əyalətlərinə yürüşü haqqında» adlanan üçüncü fəsildə I Pyotrun başçılığı altında rus qoşunlarının Xəzərsahili əyalətlərə yürüşündən, Dərbənd şəhərinin işğalından və bu yürüşün yarımçıq qalması səbəbindən danışılır.

«Gilana (rus qoşununun) göndərilməsi haqqında» adlanan dördüncü fəsildə isə rus qoşunlarının Rəşt şəhərinə yürüşündən və oranın müqavimətsiz işğalından bəhs edilir.

VI fəsil «Bakı ekspediyası haqqında» adlanır. Fəsildə rus qoşunlarının Bakı şəhərinə yürüşü və onun işğalı təsvir edilmişdi. Bundan əlavə burada Bakının təbii sərvətlərindən və bir alay rus qoşununun Salyana göndərilməsindən danışılır.

VII fəsil «Gilan səfəri haqqında» adlanır və fəsildə general-leytenant M.A.Matyuşkinin Rəşt şəhərində yerləşən rus qoşunlarının baş komandan təyin olunmasından və F.İ.Soymonovla birlikdə oraya səfərindən bəhs edilir. Eyni zamanda 1724-1725-ci illərdə rəştlilərin rus qoşununa hücumlarından danışılırdı.

VIII fəsil «Xəzər dənizinin təsviri üçün yeni dəniz səfərı» adlanır. Burada 1726-cı ilin əvvəlindən başlayaraq F.İ.Soymonovun başçılığı ilə yaradılmış ekspedisiyanın Xəzər dənizinin həm şərq, həm də qərb sahillərinin yenidən tədqiqindən söhbət açılır. Bu ekspedisiya zamanı Xəzər dənizinin yeni xəritəsi çap olunmuşdu.

F.İ.Soymonov xatirə «Jurnal»ını istifadə etdiyi müxtəlif mənbələrdən və hadisələrin iştirakçısı olmuş adamların dediklərindən qaynaqlanaraq yazmışdır. Məsələn, səyahətnamədə, yürüşdə iştirak edən gəmilərin sayının 442 olduğu halda, imperatorun özü tərəfindən yazılmış məlumatda bu rəqəmin 274 göstərildiyinə rast gəlirik. Ola bilsin ki, F.İ.Soymonov bəzi məlumatların dəqiqləşdirilməsində «Yürüş jurnal»ından istifadə etmişdir. Bundan əlavə,

F.İ.Soymonov 1724-cü ildə Dərbənd şəhərində olarkən naib İmamqulu bəydən bu şəhərin tarixi ilə bağlı əlyazma kitab hədiyyə almışdı (Dərbəndnamə?). Onlar Dərbənddə naibin qonağı olarkən ev sahibi dedmişdi: «baxmayaraq ki, Dərbənd şəhəri Şah Qubad və onun oğlu Nuşiravan tərəfindən salıınıb, lakin bundan qabaq Böyük İsgəndər orada böyük daş sədd tikdirib ki, hələ də qalıqları görünür. Sübut üçün perqament üzərində ərəb dilində yazılmış bir kitab olduğunu söyləmişdi. Bu F.İ.Soymonovda qədim tarixi öyrənmək marağı yaratmışdı. General-leytenant M.A.Matyuşkinin xahişi ilə o, həmin kitabı naibdən alıb ozü ilə Gilana aparmışdı. Həmin kitab sonralar baş tərcüməçi, əslən Kazandan olan Yusupov familiyalı tatar ruhanisi tərəfindən rus dilinə tərcümə edilmişdi» (54,184; 24,48-49). Sözü gedən əlyazmadan «Xəzər dənizinin ticarət tarixindən» bəhs olunan fəsildə istifadə edilməsi qənaətinə gəlmək olar. F.İ.Soymonov 1724-cü ilin dekabrında Bakı şəhərində olarkən podpolkovnik Zimbulatov və onun adamlarının Salyanda öldürüldüyünü eşitmişdi. Bundan əlavə, F.İ.Soymonov Gilan ekspedisiyasında donanma zabiti kimi iştirak etmişsə də, Gilanda sonralar baş verən hadisələrin şəxsən iştirakçısı olmamışdı. Bütün bünlar səyahətnamənin yazılmasında səyyah gözlərilə gördüyü hadisələrlə yanaşı, eyni zamanda eşitdiklərini də nəzərdən qaçırmadığını və mövcud bəzi

mənbələrə istinad etdiyini bir daha sübut edir.

F.İ.Soymonovun «Jurnal»ını nəşr etdirmiş Q.F.Miller özü bu haqda etiraf edərək yazır ki, «onun jurnalı özünün iştirak etdiyi hadisələrin məzmununu əhatə edir. Lakin biz həmin hadisələrə digər məlumatlar da əlavə edəcəyik ki, Böyük İmperator Pyotr tarixinin bir hissəsini lazımi dərəcədə təsvir edək» (54,55). Səyahətnamənin tədqiqi göstərir ki, əsərdə hadisələr təsvir edilərkən A.Kontarinin «Şöhrətli Venetsiya respublikasının məşhur İran şahı Uzun Həsən sarayında səfiri Ambroca Kontarininin səyahəti», A.Cenkinsonun «Gündəliyi», A.Olearinin «Moskoviya və Moskoviyadan keçməklə İrana, oradan da geriyə səyahətin təsviri», E.Kempferin «Yad ölkələrin gözəlliyi», Korneli de Brunin «Moskvaya, İrana və şərqi Hindistanın bir hissəsinə səyahətı», İ.Gerberin «1728-ci ildə Xəzər dənizinin qərb tərəfindən – Həştərxan ilə Kür çayı arasındakı xalqları və əraziləri və onların vəziyyəti haqqında məlumatı», İ.Lerxin «İohan Lerxin səyahətnaməsindən çıxarış, 1733-1735-ci illər Moskvadan Həştərxana, oradan Xəzər dənizinin qərb sahillərində yerləşən ölkələrə davam edən səyahəti», «1746-1747-ci illərdə doktor və kollegiyanın məsləhətçisi Lerxin İrana ikinci səyahəti», C.Hanveyin «İngiltərədən Rusiya vasitəsilə İrana və Rusiyaya, Almaniya və Hollandiya vasitəsilə geriyə səyahətinin jurnalı ilə birlikdə Xəzər dənizində Britaniya ticarə-

tinin oçerki» səyahətnamələrindən, habelə səfir İsmayıl bəyin 1727-ci ildə «Peterburq xəbərləri»ndə alman dilində çap olunmuş məlumatından, I Şah Soltan Hüseynin qvardiya zabiti Mahmud bəy haqqında alman zabiti tərəfindən 1725-ci ildə Dərbənd şəhərində qələmə almış hekayətindən istifadə olunduğunu göstərir (54,135-149,149-150).

Səyahətnamənin təhlilindən görünür ki, müəllif bəzi hadisələri təsvir edərkən qeyri-dəqiqliyə yol vermişdir. Əvvəla o, I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşünü «İran yürüşü» kimi qələmə almışdır. Səyahətnamə araşdırılarkən məlum olur ki, həqiqətdə yürüşün əsl məramı gizlədilərək, guya I Şah Soltan Hüseynə (1694-1722) kömək etmək məqsədi ilə Şamaxı şəhərini qiyamçılardan təmizləmək bəhanəsi göstərilir, lakin sonrakı hadisələr əsasən Xəzərsahili Azərbaycan əyalətlərində cərəyan edirdi. I Pyotrun adından yazılmış «Manifest» «Şah həzrətlərinə qarşı üsyan qaldırmış..., Şamaxı şəhərini ələ keçirmiş..., rus tacirlərini qarət etmiş və öldürmüş...» qiyamçıların cəzalandırmasından ibarətdir. Bundan əlavə, F.İ.Soymonov yerli azərbaycan türklərini «fars» kimi qələmə verirdi.

F.İ.Soymonov I Pyotrun Xəzərsahili ərazilərə yürüşündə donanma zabiti kimi yaxından iştirak etmiş və Rusiya dövləti siyasətinin icraçılarından biri olmuşdur. O, «Xəzər dəni-

zinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsini yazmaqla rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşlərinə haqq qazandırmış, yürüşü Rusiya dövlətinin cənub sərhədlərinin və ticarətin təhlükəsizliyi məsələsi ilə əlaqələndirmişdir. Əsərdə yerli Azərbaycan xalqının rus qoşunlarına qarşı mübarizəsini «düşmən» kimi qələmə alaraq, mənfi münasibətini bildirmişdi.

Beləliklə, monoqrafiyada F.İ.Soymonovun tərcümeyi-halı və onun səyahətnaməsinin ətraflı öyrənməsi məqsədi qarşıya qoyulmuşdur. Ona görə ki, «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnamə XVIII əsrin birinci yarısında Azərbaycan tarixini öyrənən mənbə kimi əhəmiyyətlidir.

# II FƏSİL

# F.İ.SOYMONOVUN «XƏZƏR DƏNİZİNİN VƏ ORADA HƏYATA KEÇİRİLƏN RUSİYA İŞĞALLARININ, İMPERATOR BÖYÜK PYOTRUN TARİXİNİN BİR HİSSƏSİ KİMİ TƏSVİRİ» ADLI SƏYAHƏTNAMƏSİ XVIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANIN SİYASİ VƏ İQTİSADİ TARİXİNİN MƏNBƏYİ KİMİ

## 2.1. Siyasi vəziyyət

F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, İmperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» səyahətnaməsinin üçüncü fəsli I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşü ilə başlayır. Tarixi ədəbiyyatda (39;13,55) «İran yürüşü» adlandırılan bu yürüşün əsas məqsədi Xəzərsahili Azərbaycan torpaqlarının – Şamaxının, Dərbəndin, Bakının, Salyanın işğal olunması idi. Həmin yürüşün məqsəd və məramını aydınlaşdırmaq üçün bu dövrdə Azərbaycanda baş vermiş siyasi mənzərəsini təsvir etmək zəruriyyəti yaranır.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Azərbacanın da daxil olduğu Səfəvi imperiyası dərin iqtisadi və siyasi böhran keçirirdi (16,112; 47,295-298; 48,300; 13,35-65; 30,74-80) I Şah Soltan Hüseynin (1694-1722) başçılıq etdiyi

mərkəzi hakimiyyət zəifləmiş, dövlət məmurlarının, iri əyalət hakimlərinin özbaşnalığı artmışdı. İ.P.Petruşevski bu böhranın əsas səbəbini belə izah edir:«İran (Səfəvi-E.Q) iqtisadiyyatının bu tənəzzülünün əsas səbəbi feodal gəlir və vergilərinin artırılması nəticəsində kəndlilərin müflüsləşməsi, daxili bazarın kiçilməsi, məhsul istehsalının ixtisar olunması idi ki, bu da sinfi mübarizənin kəskinləşməsinə gətirib çıxartdı» (48,300).

Səfəvi dövlətinin bu vəziyyətə düşməsində dövrün mənbələri şahın özünü günahkar hesab edirdi. I Şah Soltan Hüseyn (1694-1722) dövlət işlərini başlı-başına buraxaraq günlərini məscidlərdə ibadətdə və hərəmxanada eyş-işrətdə keçirirdi. Dövlət bacarıqsız məmurlar tərəfindən idarə olunurdu (55,665;4,20). Ölkəni rüşvətxorluq bürümüşdü, bütün vəzifələr özbaşnalıq edən məmurlar tərəfindən satılırdı. Hakimiyyətsizlik xəzinənin əsas gəlir mənbələrindən biri olan ticarətin zəifləməsinə gətirib çıxardı. Quldurlar iri ticarət yollarında özbaşınalıq edir və ticarət fəaliyyətinə mane olurdular (57,6). İqtisadi böhran ərzaq qıtlığına və qiymətlərin kəskin şəkildə artmasına səbəb olmuşdu. 1703-cü ildə Şamaxıda olmuş Korneli de Bruin şəhərdəki bahalıqdan bəhs edərək yazırdı: «Şamaxıda hər şey həddindən artıq bahalaşmışdı. Çörək yüz ildən artıq bir müddətə 2 soldaya (solda-italyan mis puludur,1\20 – E.Q.) satıldığı halda, indi 10 soldaya qədər bahalaşıb. Başqa

malların qiymətləri bir o qədər qalxmışdır» (18,16).

Ölkəni bürümüş böhran orduda da özünü biruzə verirdi. Ordunun nizam-intizamı demək olar ki, pozulmuş, əsgərlər vaxtında məvacib ala bilmirdilər (57,6) Ölkənin və əhalinin təhlükəsizliyini qorumalı olan qoşun artıq əhalini qarət etməklə məşğul idi (18,16).

I Şah Soltan Hüseyn (1694-1722) ölkəni böhrandan çıxarmağın yolunu xəzinəni doldurmaq üçün yeni vergi siyasətini həyata keçirməkdə görürdü. 1699-1702-ci illər arası 15 yaşından yuxarı olan bütün kişilər əmlakları ilə birlikdə siyahıya alınır. Siyahıya alınmış əhali vergiləri yeni qayda ilə ödəməli idi. Həmçinin bu vergilərə yeni üç vergi növü əlavə olunmuşdu: «ab-i kuran» (kanal tikintiçində iştirak edə bilməyənlərdən alınınan vergi), «Şahzadə ixracatı» (şahzadələrin xərclərini ödəmək üçün yığılan vergi), «şeş dinar» (başqa ölkələrə mənsub şəxslərdən alınan «can vergisi») (27,18-20).

Şahın həyata keçirdiyi islahat gözlənildiyi nəticəni vermədi. Ona görə ki, yerlərdəki dövlət məmurları özbaşınalıq edərək vergiləri miqdarından çox yığaraq əksəriyyətini özləri mənimsəyirdilər. XVIII əsrin əvvəllərində Şamaxı şəhərində olmuş A.P.Volınski yazırdı : «Şirvan əyalətinin Şamaxı şəhəri ilə birlikdə bütün şəhər və kəndlərindən 80000 rubl (8000 tümən) dövlət vergisi yığılmalı idi. Lakin Şirvan hakimləri əhalidən ildə iki-üç dəfə artıq vergi toplamaq

yolu ilə öz ciblərini doldururdular. Mən orada olan zaman Key Xosrov adlı Şamaxı xanı 200000 rubl vergi yığmışdı» (21,12). Azərbaycanın digər bölgələrində də vəziyyət bu cür idi (38,19).

Mərkəzi hakimiyyətin zəifləməsi və şahın əyalətlərə təyin etdiyi hakimlərin özbaşnalığı əhali arasında narazılıq yaradırdı. Narazılıq elə bir həddə çatmışdı ki, şahın göndərdiyi fərmanlara məhəl qoyulmurdu. Şah tərəfindən təyin olunmuş məmurlar yerlərdən qovulur, onların yerinə əhali arasında böyük nüfuz qazanmış şəxslər seçilirdi (21,13;38,8). Səfəvi zülmünə qarşı narazılığın daha geniş yayılmış forması açıq silahlı üsyanlar idi. XVIII əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrində şah idarələrinə və qarnizonlarına silahlı hücumlar təşkil olunurdu. Artıq Şirvan və onun mərkəz şəhəri olan Şamaxı səfəvilər əleyhinə olan üsyanların mərkəzinə çevrilmişdi. 1707-1711-ci illərdə car-balakənlilərin üsyanı baş verdi (22,24;36,66). 1709-cu ildə Təbriz üsyanı (21,17;45,247), 1716-1719-cu illərdə Tiflis – Sarxar nayihəsi kəndlilərinin Şirvan kəndliləri ilə birlikdə bəylərbəyinin qoşununu darmadağın etməsi (17,7;57,67-68) səfəvilər əleyhinə yönəlmiş açıq silahlı üsyan idi.

XVIII əsrin əvvəllərində Azərbaycanda baş vermiş üsyanlardan ən böyüyü Hacı Davudun başçılığı ilə olmuşdu. Azərbaycan tarixşünaslığında bu üsyan haqqında kifayət qədər əsərlər

(36,68-72;10,21-51) mövcuddur. Üsyan nəinki Səfəvilər imperiyasında, eyni zamanda qonşu əcnəbi ölkələrdə də boyük səs-küyə səbəb olmuşdu. Hətta Rusiya dövləti bu üsyandan Xəzərsahili əyalətlərə yürüş üçün bir bəhanə kimi istifadə etmişdi.

Xalqı öz tərəfinə çəkmək üçün «dini» şüarlardan istifadə edən Hacı Davud onları «şiə Səfəvilərə qarşı birləşməyə çağırırdı» (23,95;15,-102;10,23). Onun bu çağrışı Şirvanda müvəffəqiyyət qazanır.

Üsyan başlamamışdan əvvəl Hacı Davud özünə müttəfiq axtarmaq üçün Dağıstan feodalları ilə münasibətlər qurur. Qazıkumıklı Surxay xan və Qaraqaytaqlı Əhməd xan onun planını bəyənərək Hacı Davuda qoşuldular (15,102;-10,23). Birləşmiş üsyançı dəstələri gözlənilmədən Səfəvi qarnizonlarına hücuma keçdilər. Lakin ilk cəhd uğursuzluqla nəticələndi. Hacı Davud 1719-cu ildə ələ keçirilərək, Dərbənd həbsxanasına salındı. Onun müttəfiqləri Surxay xan və Əhməd xan isə dağlara çəkildilər (19,4;10,23-24).

1720-ci ildə əlverişli vəziyyətdən istifadə edən Hacı Davud Dərbənd həbsxanasından qaça bilir (10,24). O, yenidən üsyan rəhbəri kimi fəaliyyətə başladı. Hacı Davud bu dəfə də müttəfiq kimi Qazıkumıklı Surxay xanı seçmişdi. Qeyd etmək lazımdır ki, 1709-cu ildə əfqan gilzai tayfaları Mir Veysin başçılığı ilə Səfəvi dövlətinə qarşı üsyan qaldırmışdı. Bu üsyan genişlənərək ölkənin paytaxtı İsfahanı təhlükə

altına aldı. Mir Veys öldükdən sonra onun bu işini oğlu Mir Mahmud davam etdirirdi. 1720-ci ildə əfqanlar İsfahan şəhərinə yaxınlaşmağa başlamışdı (4,42). Şah I Soltan Hüseynin (1694-1722) üsyanın qarşısını almaq üçün qoşunu belə yox idi. Ona görə də şah, qoşun toplamaq məqsədilə əyalətlərə adamlarını göndərməyə məcbur oldu. F.İ.Soymonovun səyahətnaməsində şahın əyalətlərdən qoşun toplamaq cəhdi belə təsvir edilir: «1720-ci ildə Mir Mahmud İran (Səfəvi) sərhəddinə yaxınlaşarkən Şah Hüseyn özünün qvardiya zabiti Mahmud bəyi pulla və fərmanla Dərbənd şəhərinə göndərir. Fərmana görə, Şamxal, Usmi və Qaraqaytaq hakimləri tərəfindən dövləti müdafiə etmək üçün üsyançılara qarşı qoşun göndərilməli, şah tərəfindən göndərilən pulla isə həmin qoşunu silahlandırılmalı və yürüş təmin edilməli idi. Lakin həmin məbləğ nəzərdə tutulmuş məqsəd üçün kifayət etmədi. Bu səbəbdən Mahmud bəy məcburən Dərbənd şəhərində xeyli ləngiməli oldu (54,150)». Əslində şahın şahın qoşun yığmaq planını Hacı Davud pozmuşdu. Surxay xan şaha gömək məqsədilə öz qoşunu ilə İsfahana gedərkən Şirvanda Hacı Davudla qarşılaşmış və nəticədə Surxay xan şah əleyhinə çıxmaq üçün onunla razılaşmışdı (23,95).

Hacı Davud Surxay xanı öz tərəfinə çəkdikdən sonra onların üsyançı dəstəsi Şabrana və Xudat qalasına hücum edərək həmin yerləri ələ keçirdi (23,108). Lakin üsyançı dəstələrinin

Bakı və Dərbənd şəhərlərinə hücumu müvəffəqiyyətsizliklə nəticələndi (15,102;10,25).

Bakı və Dərbənd şəhərlərində heç bir uğur qazanmayan Hacı Davud və onun müttəfiqləri Qazıkumıklı Surxay xan, Usmi Əhməd xan və Ərəş hakimi Əli Sultanın birləşmiş qüvvələri 1721-ci ilin avqust ayında Şamaxı şəhəri üzərinə hücuma keçdilər (57,79;22,65). Tezliklə, şəhər üsyançı dəstə tərəfindən mühasirəyə alındı. Bəylərbəyinin köməyi ilə şəhər əhalisi üsyançılara 25 gün müqavimət göstərsədə. Şamaxı «sünni» əhalisinin köməyi ilə üsyançıların əlinə keçir. Şəhərə daxil olan üsyançılar dəhşətli qırğın və qarət törətdilər. Mənbələr qırğın nəticəsində öldürülənlərin sayını 4000-5000 arasında olduğunu yazırdi (57,79;22,65). Şəhərdə yalnız yerli əhali deyil, eyni zamanda əcnəbi tacirlər də qarət olunmuşdu. Qarət zamanı rus tacirləri 500000 rubl məbləğində əmlak itirdilər. Tək Yevreyinovun isə 170000 rubl miqdarında əmlakı qarət olundu (55,373;10,33-34). Rus tacirlərindən öldürülənlərin sayı 5 nəfər idi (40,51). Hacı Davudun üsyançı dəstəsi Azərbaycanın digər vilayətlərinə hücum etsə də heç bir uğur qazana bilmədi (36,74;46,30;23,95).Yürüşünü başa vurmuş Hacı Davud Şamaxı şəhərinə qayıdır. O, Şamaxı şəhərini özünün iqamətgahı elan etdi və bütün əyaləti Surxay xanla bölüşdürdü (23,95;57,83-84).

Şirvanda möhkəmlənən Hacı Davud üçün güclü humayə lazım idi. Şamaxı şəhərinə hücum

etməmişdən əvvəl onun tərəfindən Rusiya hökumətinə müraciət edilsə də, müraciəti qəbul olunmamışdı (7,73;10,28). Sonra isə o, himayə üçün Krım xanı vasitəsilə Osmanlı Türkiyəsinə müraciət etmişdi (10,35;43,31). İstambula dəvət olunmuş Hacı Davud məqsədinə nail olaraq, Sultanın himayəsi altında Şirvan hakimi təyin olunmuşdu (23,95;57,83-84).

XVIII əsrin əvvəllərində Səfəvi imperiyasında, o cümlədən Azərbaycanda siyasi vəziyyətin ağır olduğu bir vaxtda Rusiya və Osmanlı dövlətləri bu regiona açıq müdaxilə etməyə başlayırlar. Hər iki imperiya Azərbaycana yiyələnmək uğrunda rəqabət apardığından Səfəvi imperiyasında baş verən hadisələri diqqətlə izləyirdilər (36,75).

Bəhs olunan dövrdə həm Avropanın iri ölkələri, həmçinin Rusiya və Osmanlı imperiyaları Azərbaycanın xam ipəyi uğrunda mübarizə aparırdı. Qərbi Avropaya ilə xam ipək Osmanlı Türkiyəsindən keçməklə Aralıq dənizi vasitəsilə daşınırdı. Xam ipək ticarətindən Osmanlı imperiyası küllü miqdarda gəlir əldə edirdi. Rusiya dövləti həmin ticarət yolunu Xəzər-Volqa yoluna keçirməklə Osmanlı Türkiyəsinin xam ipək ticarətindən götürdüyü gəliri onun əlindən almaq niyyətində idi. (39,53). F.İ.Soymonovun səyahətnaməsində I Pyotrun xam ipəyin Rusiya ərazisindən daşınması üçün gördüyü tədbirlərdən də bəhs edir: «İmperator 1711-ci ildə ermənilərlə bağlamış olduğu müqaviləyə görə,

onlar Azərbaycan – İran ipəyini Osmanlı Türkiyəsi ərazisindən deyil, Rusiya ərazisindən (Avropaya) daşımalı idilər. Bununla razılaşan şah xam ipəyi ölkəsindən yola salmaq üçün erməni tacirlərinə müəyyən güzəştlər vermiş, həmçinin təbələrinə xam ipəyi yalnız erməni tacirlərinə satılmasını əmr vermişdi. Rusiya ərazisindən keçərkən ermənilərdən alınan kömrük haqqı yüngülləşdirilmişdi. Belə ki, 1711-ci ildən onlardan kömrük haqqı kimi qiymətli daşlar, mirvari alınmamalı, onlar Həştərxana, yaxud Terekə gələrkən təhlükəsizlikləri üçün xüsusi mühafizə dəstəsi ilə təmin olunmalı idilər. Lakin onlar (ermənilər) üzərinə götürdükləri öhdəliyi yerinə yetirmədilər. Onlar əvvəlki kimi yenə də xam ipəyi Türkiyə ərazisindən daşıyırdılar, xam ipəyin cüzi hissəsi Rusiyaya aparılırdı. Bu da rus tacirlərinin haqlı narazılığına səbəb olurdu. Belə olan təqdirdə I Pyotr 1719-cü il fərmanı ilə erməniləri onlara verilən güzəştlərdən məhrum edir. Lakin çox keçmir ki, həmin güzəştlər erməni tacirlərinə yenidən qaytarılır. Müqavilənin şərtlərini yerinə yetirməyə söz verdiklərinə görə, onlar 1720-ci ildə I Pyotr tərəfindən bağışlanılırlar» (54,330-331). I Pyotrun verdiyi güzəştlər tək erməni tacirlərinə aid deyildi. 1718-ci ildə xam ipək ticarətini aparan bütün əcnəbi və eyni zamanda rus tacirlərinə də güzəşt fərmanı verilmişdi (54,331-332). I Pyotrun Kür çayının mənsəbində iri ticarət şəhəri tikdirmək və regionun bütün ticarətini

burada mərkəzləşdirməklə Hştərxana aparmaq fikri vardı (54,100).

I Pyotr qabaqcadan hazırlamış olduğu böyük planını həyata keçirmək üçün məqam gözləyirdi. Səfəvi imperiyasının ağır vəziyyətə düçar olması və Hacı Davudun başçılığı ilə üsyançıların iri ticarət mərkəzi olan Şamaxı şəhərini ələ keçirməklə burada möhkəmlənməsi, rus tacirlərinin üsyançılar tərəfindən qarət olunması və bəzilərinin öldürülməsini bəhanə edən I Pyotr Xəzərsahili ərazilərə qoşun çıxartmışdı.

1721-ci ildə Şimal müharibəsinin başa çatması Rusiyanın cənub istiqamətində hərbi yürüşləri üçün əl-qolunu açır (33,77;53,143). I Pyotr Cənubi Qafqazı işğal etmək üçün xüsusi plan hazırlamışdı. Bu tədbirlərdən biri də regionun xristian əhalisindən məqsədyönlü istifadə etməkdən ibarət idi. O, «xristianları müsəlmanların istismarından xilas etmək» bəhanəsilə ermənilərdən və gürcülərdən maksimum yararlanmaq niyyətində idi (54,100). XVIII əsrin əvvəllərində İsrail Orinin Rusiya səfiri sifətində Şamaxıya gəlməsi və ermənilərlə görüşməsi bu məqsədə xidmət edirdi (4,34;59,245-250). 1718-ci ildə A.P.Volınski Şamaxı şəhərində olarkən Kaxetiya çarı VI Vaxtanq tərəfindən gizli surətdə göndərdiyi Fərsədan bəy adlı çaparla əlaqə yaratması, onunla VI Vaxtanqın planının müzakirə edilməsi və gələcəkdə rus qoşununun bu regiona yürüşü zamanı onlarla birgə fəaliy-

yət göstərmək arzusu həmin planın tərkib hissəsi idi (11,72-74). F.İ.Soymonov «İmperator Gürcüstanda xristianlığı bərpa etmək arzusunda» olduğunu yazmaqla, I Pyotrun planından xəbər verirdi (54,100). Sonralar Xəzərsahili ərazilərə hücum edərkən rus qoşununun tərkibində erməni və gürcülərdən ibarət alayların fəaliyyət göstərməsi həmin planın ayaq açdığını göstərir (54,186).

1721-ci ildə Şimal müharibəsindən qalib çıxan I Pyotr hərbi qüvvələrini cənub istiqamətdə toplamağa başlayır. V.P.Lıstsov yazır ki, «I Pyotr məsləhətçiləri arasında fikir ayrılığına və özünün şübhələrinə baxmayaraq, Türkiyəni xəbərdarlıq etmək və eyni zamanda əlverişli meydan olan Xəzərsahili əraziləri işğal etmək üçün 1722-ci ilin yayında hərbi yürüşə başlamağı qərara alır» (39,55).

F.İ.Soymonovun yazdığına görə, cənub istiqamətində yürüş 1722-ci il may ayının 15-də Moskvadan başlayır. I Pyotr hələ Moskvada olarkən yürüşə hazırlıq üçün bir neçə vacib göstərişini vermişdi. Çarın əmrinə əsasən, 1716-1718-ci illərdə Azərbaycanda olmuş və bu ərazilərə yaxşı bələd olan A.P.Volınski Həştərxana qubernator təyin olunur. Əsasən Həştərxandan başlanacaq hərbi yürüşün hazırlanmasında və təchizatında A.P.Volınski yaxından iştirak etmişdi. Bundan başqa, yürüşə hazırlanacaq hərbi gəmilərin səfərbər olunması ilə əlaqədar olaraq, F.İ.Soymonov da daxil olmaqla bir sıra

donanma zabitləri Həştərxan şəhərinə qabaqcadan göndərilmişdi (54,55).

Yürüşün hazırlanmasında göstərişlərini verən İmperator I Pyotr həyat yoldaşı ilə, «Moskvareçkim» adlı gəmisində Moskvadan Nijni Novqoroda doğru hərəkət edir. Bir neçə gün burada qaldıqdan sonra I Pyotr may ayının 27-də onu müşayət edənlərlə birlikdə Kazana, iyunun 15-də isə Həştərxana gəlib çatır (54,56-58). Həmin gün I Pyotrun əmrinə əsasən Xəzərsahili ərazilərdə yaşayan xalqlara yürüşün məqsəd və məramlarını bildirmək üçün «Manifest» yazılır. Bu sənəd İmperatorun adından knyaz Dmitri Kantemir tərəfindən tərtib edilmidi. «Manifest»də I Pyotr yürüşün əsil məqsədini gizlədərək, guya rus qoşunlarının I Şah Soltan Hüseynə (1694-1722) göməyə gəldiyini, Şamaxı şəhərini ələ keçirmiş Hacı Davud və onun müttəfiqlərini şaha qarşı çıxdıqlarına, 300 rus tacirinin 4 milyon rubl mallarını qarət etdiklərinə görə cəzalandırılacağı göstərilirdi. «Manifest» türk, Azərbaycan, fars dillərinə tərcümə edilərək çap olunmuşdu (54,58-64). Bu Azərbaycan dilində çap olunmuş ilk sənəd hesab olunur (2,9).

«Manifest» qvardiya poruçiki A.Lopuxin başda olmaqla 30 çaparla Dərbən, Bakı və Şamaxı şəhərlərinə yaymaq üçün Tarki şamxallığına göndərilmişdi.

İmperator I Pyotr Həştərxana gəlib çatdıqdan sonra yürüşün hazırlanması üçün bir ay

vaxt sərf edir. Bu vaxt ərzində böyük donanma hazırlanır. Donanmanın hazırlanmasında xüsusi fəallıq göstərən F.İ.Soymonov yazırdı: «donanmaya 3 şnav (uzunluğu 72-94 futa bərabər, 10-15 topu olan iki dor ağaclı yelkənli gəmi – E.Q.), 2 böyük bot (avrlı, yelkənli gəmi – E.Q.), 1 quker (2 dor ağacı, enli burnu və dal tərəfi dairəvi olan ticarət gəmisi – E.Q.), 9 şuit, 17 tyalok, 1 yaxta (yelkənli yüngül qayıq-E.Q), 7 evers, 12 qoliot (italianca galeotta – çox da böyük olmayan iki dor ağaclı gəmi – E.Q.), 34 last gəmisi (last-dəniz istilahı olub 40 futa bərabər yonulmamış ağac, iki tona bərabər ölçü vahididir – E.Q.), çoxlu ostrov qayıq (adamlar arası xəbər verən böyük ölçülü gəmi – E.Q.) cəlb edimişdi. Ümumiyyətlə, yürüşdə 442 gəmi iştirak edirdi». Daha sonra səyyah məlumatını belə davam etdirir: «lakin İmperatorun özü tərəfindən yazılmış məlumatda bu rəqəm 274 göstərilir. Ehtimal etmək olar ki, Əlahəzrət bütün gəmiləri donanmaya cəlb etməmişdi» (54,64-65).

Bu tarixi hərbi kompaniyaya çoxlu əsgəri qüvvə cəlb edilmişdi. Yürüşdə iştirak edən qoşunun sayı və tərkibi 22,000 piyada, 20000 kazak dəstəsindən, 30000 tatar, 20000 kalmık, 9000 süvari, 5000 donanma əsgərlərindən ibarət idi. Bütün qoşunda olan əsgərlərin ümumi sayı 106000 nəfərdən ibarət idi (54,65).

Hazırlıq işləri tam başa çatdıqdan sonra I Pyotrun özü başda olmaqla rus qoşunu 1722-ci

il iyunun 18-də iki istiqamətdə – quru və dəniz yolu ilə Həştərxandan cənuba doğru hərəkətə başlayır (Bax: 3-cü xəritəyə). İmperator başda olmağla hökümət nümayəndələri ayrı-ayrı gəmilərdə qərarlaşmışdı və hər gəmiyə bir donanma zabiti başçılıq edirdi. I Pyotr Həştərxan qubernatoru A.P.Volınski ilə birlikdə Zolotaryevin idarə etdiyi böyük botda, bütün donanmanın baş komandanı General Admiral qraf Apraksin leytenant F.İ.Soymonovun idarə etdiyi «Xanım Anna» adlanan qukerdə, məxfi müşavir qraf Tolstoy podporuçik Luninin idarə etdiyi «Həştərxan» şnavında, Moldova hökmdarı knyaz Kantemir podporuçik Yuşkovun idarə etdiyi «Müqəddəs Aleksandr» şnavında, Kapitan fon Verden isə «Müqəddəs Yekaterina» şnavında yerləşirdi. «Kabinet» adlanan qoliotda isə mirzə Makarov başda olmaqla bütün dəftərxana işçiləri mövqe tutmuşdu. Göründüyü kimi, donanmanı idarə edənlərin hamısı vaxtılə Xəzər dənizinin tədqiq edilməsində yaxından fəal iştirak etmiş, Xəzərsahili əyalətlərə yaxşı bələd olan zabitlərdir (54,66-67).

İyunun 27-də Aqraxan burnuna çatan rus donanması səhərisi günü sahilə piyada qoşun hissələri çıxarılır (54,88;20,12).



Şəkil.1.Aqraxan körfəzinin planı. 1722-ci il.

Onlar burada Briqadir Veteraninin komandanlığı altında ikinci istiqamətdə quru yol ilə hərəkət edən süvari qoşunun gəlməsini gözləməli idi.Lakin bu süvari hərbi hissələrin Dağıstan ərazisində, Andreyev kəndində yerli əhalinin güclü müqavimətinə rast gəlməsi və onların çətin vəziyyətə düşməsi haqqında xəbər gəlir. F.İ.Soymonov yazırdı: «Andreyev kəndində Briqadir Veteraninin komandanlığı altında olan qoşun hissələrinin itkiyə məruz qaldığını I Pyotra Terek kazaklarının çaparı xəbər gətirir. Tezliklə ceneral-mayor Krolotovun başçılığı ilə dörd draqun alayı Veteranininin köməyinə göndərilir. Döyüşdə ruslar 80 nəfər itirir. Əvəzində isə böyük qənimət ələ keçirilir və bütün kənd yerlə-yeksan edilir» (54,80-81). Avqustun 5-də birləşmiş piyada və süravi qoşun hissləri ertəsi günü Sulak çayına

çatır. Burada bütün qoşun iki gün ərzində körpülər vasitəsilə Sulak çayını keçməli olur.

Aqraxan körfəzində sahilə çıxan I Pyotr quru yolla süvari hissələrilə birlikdə Dərbəndə doğru hərəkət edir. Hökmdarın əmrinə əsasən,General Admiral Apraksin Aqraxan körfəzində dayanmış gəmilərin komandanlığını leytenant F.İ.Soymonova tapşırır. F.İ.Soymonova «Çeçen» adasında qərar tutmuş gəmilərin başçısı kapitan Karl fon Verdenlə birlikdə dəniz yolu ilə Dərbəndə getmək sərəncamı verilmişdi (54-85-86).

Dağıstan hakimlərinin rus qoşununun yürüşünə münasibəti bir mənalı deyildi. Bəzi hakimlər ruslarla yaxınlaşmaq siyasəti yeridirdi. Rus qoşunu Sulak çayı sahilində mövqe tutarkən Aksay sultanı Mahmudun və Tarki şamxalı Əbdulgireyin nümayəndələri hədiyyələrlə I Pyotrun qəbulunda olurlar. Sultan Mahmud I Pyotra seçilmiş 6 at və qoşunun azuqəsi üçün 100 öküz, Şamxal isə 600 qoşqu öküzü, azuqə üçün isə 150 öküz, birinin yəhəri qızıl və gümüşlə bəzədilmiş üç seçmə at göndərmişdi (54,86-87).

Bir həftəyə yaxın Sulak çayı sahilində dincələn rus qoşunu avqustun 11-də cənuba doğru hərəkət edərək, avqustun 12-dəTarki şəhərinə daxil olur. Həmin gün Dərbənd naibi İmamqulu bəy tərəfindən göndərimiş nümayəndə heyəti də I Pyotrun qəbuluna gəlmişdi. Onlar naibin adından yüz bir dərbəndlinin imzaladığı

məktubu I Pyotra təqdim etmişdilər (54,88). Əvvəllər də, I Pyotr dərbəndlilərdən məktub almışdı. Bu I Pyotrun adından yazılmış «Manifest»də Dərbənd sakinlərinin cavab məktubu idi. 1722-ci il avqustun 4-də alınmış məktub Dərbənd şəhərinin 49 sakini tərəfindən yazılmışdı. Məktubda I Pyotrun adından yazılmış «Manifest»in onlar tərəfindən müzakirə edilməsindən bəhs edilir, üsyançıların Dərbənd ətrafını çapıb talamasından və belə bir vaxtda Rusiya dövlətinin şahın müttəfiqi kimi ona kömək məqsədilə üsyançıları cəzalandırmaq üçün başlamış yürüşündən sevindiklərini bildirirdilər (2,39-40).

Belə bir məktubun yazılması səbəbsiz deyildi. Belə ki, bu dövrdə Dərbənddə qeyri-sabit siyasi vəziyyət yaranmışdı. Qonşu hakimlərin və eyni zamanda Hacı Davudun və Qazıqumıqlu Surxay xanın üsyançı dəstələrinin arası kəsilməyən hücumları nəticəsində Dərbənd ətrafı kəndlər qarət olunur, əkin sahələrinə və bağlara böyük ziyan vurulurdu. Hücumların qarşısını almaqda aciz qalan Dərbənd sulatnı əyaləti başlı-başına buraxaraq Səfəvi sarayına qaçmışdı (23,8). Dərbənddəki qeyri-sabit vəziyyəti F.İ.Soymonov belə təsvir edir: «Dərbənd şəhərinin naibi yaxud rəisi tərəfindən göndərilmiş bir neçə nümayəndə Tarki şəhərinə gəldi. Onlar hökmdarın (I Pyotrun) gəlməsindən məmnun olduqlarını və Əlahəzrətin himayədarlığından istifadə etdiklərini təsdiq etdilər.

(Elçilər) bildirirdi ki, yerli hakim olan sultan 1721-ci ildə Şamaxı şəhərini tutaraq qarət etmiş Hacı Davud və Qazıqumıqlı Surxay xanın qorxusundan Dərbənddən qaçmışdır. 1722-ci ilin yazında Mir Veysin oğlu Mir Mahmuda zəiflik göstərən İran (Səfəvi) şahından kömək gözləmək mümkün olmadığından, Rusiya hökmdarının himayə təklifini qəbul etmək istəyirlər» (54,88).

Dərbənd sultanlığı sarsıntı içində idi. Şəhərində iki qruplaşma yaranmışdı. Arslan bəyin başçılıq etdiyi birinci qrup ruslara qarşı düşmən mövqeyində dayanmışdı və onlar Dərbənd şəhərini Hacı Davuda və Qaytaq Usmisinə təhvil vermək istəyirdi. Yüzbaşı İmamqulu bəyin tərəfdarları olan ikinci qrup Dərbənd şəhərində öz mövqeyini möhkəmləndirmək üçün rus qoşununun gəlməsindən istifadə edərək, onlara yaxınlaşmaq siyasətini yeridirdi. Qruplaşmalar arasında baş vermiş mübarizədə üstünlük qazanmış İmamqulu bəyin tərəfdarları başçısını şəhərin naibi təyin edirlər (5,23-24). I Pyotra göndərilmiş həmin məktub məhs onun tərəfdarlarının adından yazılmışdı. Lakin Dərbənd şəhərində İmanqulu bəyin tərəfdarları qalib gəlsə də burada rus qoşununa qarşı düşmən mövqeyində dayanan qruplar hələ də fəaliyyətlərini davam etdirirdilər.

Həmin günü, yəni avqustun 4-də I Pyotr Dərbənd naibi İmamqulu bəyin şəxsən özü tərəfindən yazılmış ikinci məktubunu da almışdı.

Məktubun məzmunundan görünür ki, İmamqulu bəy Dərbənd şəhərinin acınacaqlı vəziyyətindən danışır, özü haqqında məlumat verərək, əsilzadə nəslinə mənsub olmasından, Dərbənd şəhərinin üsyançılardan qorunmasında özünün fədakarlığından bəhs etmişdi (2,41-42). Qeyd olunan məktublarda dərbəndlilər Rusiya dövlətinin başçısını Səfəvi şahının dostu kimi qəbul edir və rus qoşunlarının işğalçılıq yürüşünü şaha kömək məqsədilə edildiyini sadəlövcəsinə inanırdılar.

F.İ.Soymonov qeyd edir ki, «Dərbənd naibindən səmimi məktub alan I Pyotr onun niyyətinin təmizliyini və rus qoşununun gəlişinə hazırlıq görmək üçün polkovnik Naumovu bir poruçik və 12 don kazakla birlikdə Dərbənd şəhərinə göndərir. Lakin digər bir mənbədə, yəni «yürüş jurnalı»nda avqustun 19-da polkovnik Naumovun başçılığı ilə Dərbənd şəhərinə göndərilmiş qoşunun sayının 271 nəfər əsgər və draqundan ibarət olduğu göstərilirdi (39,123). Naumov Dərbənd şəhərinə çatan zaman artıq kapitan Karl fon Verdenin başçılığı ilə yük gəmiləri şəhərin qarşısında idi (54,88-89).

Polkovnik Naumov Dərbənd şəhərinə daxil olduqdan sonra naib İmamqulu bəyin razılığı ilə şəhərin şimal və dəniz tərəfində yerləşən qapılarında xüsusi keşikçi dəstə yerləşdirir. F.İ.Soymonvo yazır ki, «bu tədbir düşmən mövqeyində duran dərbəndlilərdən I Pyotra qarşı ola biləcək təhlükənin qarşısını olmaq

üçün görülmüşdü» (54,89).

Rus qoşunu avqustun 16-da Tarki şəhərini tərk edərək cənuba doğru hərəkət etməyə başlayır. Avqustun 19-da qoşun hissələri Qaraqaytaq sərhəddində dincəlmək üçün düşərgə salır. Onlar burada dincələrkən utemişli sultan Mahmud 16000 qoşunla rus hərbi hissələrinə hücum edir (42,36;44,15). F.İ.Soymonov bu hadisəni öz əsərində ətraflı təsvir edir. O, yazırdı: «General Admiral Utemişli sultanın yanına yasaul və üç kazakla birlikdə məktub göndərir. Məktubda İmperatora öz itaətini bildirmək üçün ya sultanın özünün gəlsini, ya da nümayəndəsini göndərməsi göstərilirdi. Məktubu oxuyan sultan Mahmud yasavulu üç kazakla birlikdə öldütdürür. O, Usmi əyalətindən topladığı 16000 qoşunla gözlənilmədən ruslara hücum edərək, onları qırmaq fikrində idi. Lakin onun arzusu yerinə yetmədi. Belə ki, sultan ruslara qarşı lazımi qədər silahlı qüvvə çıxara bilməmişdi. Lakin elə ki, onlara qarşı güc çıxarıldı düşmən qaçmağa başlayır. Onlar Sultanın iqamətgahı yerləşən Utemişə qədər təqib edilirlər. Beş yüz evdən ibarət olan həmin yer (Utemiş) ruslar tərəfindən qarət olunur və külə döndərilir. Həmçinin, əlavə altı kənd də yerlə yeksan edilir. Düşmənlərdən ölənlərin sayı min nəfərə çatırdı. Əldə olunan qənimət isə 7min iribuynuzlu və 4min xırdabuynuzlu mal –qaradan ibarət idi» (54,90-91). Bu döyüşdə rus qoşunu 5 draqun və 7 kazak itirmişdi (42,36).

Dağıstan ərazisindən keçərkən ara-sıra müqavimətə rast gələn rus qoşunu nəhayət, avqust ayının 23-də Dərbənd şəhərinə yaxınlaşmaqda idi (Bax: 3-cü xəritəyə). Naib İmamqulu bəy və onun yaxın adamları şəhərdən bir qədər aralıda I Pyotrun görüşünə gəlirlər (20,17-18;42,36). F.İ.Soymonovun səyahətnaməsində I Pyotrun qarşılanma mərasimi belə təsvir edilir: «Naib Dərbəndin adlı-sanlı adamlarından ibarət geniş tərkibli nümayəndə heyətilə şəhərin bir verstliyində İmperatoru qarşılayır. Əlahəzrətə şəhər darvazasının iki gümüş açarı gümüş qabda təqdim edilir. Sonra o, deyir: «O və bütün Dərbənd əhalisi Əlahəzrət, Ümumrusyanın Böyük İmperatoru onlara himayədarlıq etməsi üçün gəlməsindən çox sevinirlər. İndiki vəziyyətinə görə, şəhər İran şahı tərəfindən salınmasına baxmayaraq, inşasının başlanğıcını Böyük İsgəndərdən götürmüşdür. Ona görə ki, şəhər bunu sübüt edən çoxlu qalıqlara malikdir. Şəhərin üsyançıların qarətedici hücumlarından qorumağa söz vermiş və ondan (İsgəndərdən) geri qalmayan Böyük hökmdarın hakimiyyətinə verilməsi ədəbli və ədalətli olar. Böyük İmperatorun itaətli təbəsi olacağımı özümə şərəf bilirəm. Şəhər açarlarının sizə təhvil verilməsi bunu sübut edir» (54,92).



Şəkil.2. Dərbənd şəhərinin planı. 1722-cı il.

Qeyd olunan təmtəraqlı mərasimdən sonra rus qoşunu təntənəli şəkildə Dərbənd şəhərinə daxil olur. Şəhərdə yerləşən rus qoşunu iki dəstəyə bölünür: birincisi, nizami piyada qoşunu dəniz kənarında yerləşən düzənlikdə düşərgə salır, ikincisi də, suvari draqun dəstəsi və kazaklar atlarını yemləmək üçün Mollakənd çayının mənsəbindən 5 verst aralıda yerləşdirilir. Bundan əlavə, Dərbənd şəhərinin limanı gəmilərin lövbər salması üçün əlverişli olmadığına görə, kapitan fon Verdenin başçılıq etdiyi ərzaqla yüklənmiş gəmi heyyəti şəhərdən iki mil (1mil-1852m) cənubda yerləşən Mollakənd çayının mənbəsində lövbər salmalı olur (54,93).

Dərbənd şəhərində yerləşən rus qoşunu şəhərə baxış keçirərkən dərbəndlilərin güclü silah və sursata malik olduğu məlum olur. Şəhərdə 238 artilleriya qurğusu, o cümlədən 60 mis və

178 dəmir top, xeyli barıt və silah saxlanıldığı müəyyən edilir (20,20,42,41).

Dərbənd şəhərində bir müddət dincəldikdən sonra rus qoşunu cənuba doğru hərəkət edərək Müşkür mahalını müqavimətsiz işğal edir. I Pyotr yürüşü davam etdirməklə Şamaxı şəhərinə və oradan Tiflisə getmək niyyətində idi (42,44). Lakin müəyyən səbəblərə görə, I Pyotr yürüşü tezliklə dayandırıb Rusiyaya qayıtmaq məcburiyyətində qalmışdı. Tarixi ədəbiyyatda (42,44;-10,50; 5,26; 43,49; 6,31) geri qayıtmağın səbəbi kifayət qədər işıqlandırıldığı üçün F.İ.Soymonovun səyahətnaməsində bu məsələ ilə bağlı məqamə toxunmaq istəyirik. O, yazırdı: «Un və başqa ərzaqla yüklənmiş 12 gəmi kapitan Karl fon Verdenin komandanlığı ilə Mollakənd çayının mənsəbində lövbər salmışdı. Gəmiləri briqadir Levaşevin başçılığı ilə 4min əsgər qoruyurdu. Gecə yükləri boşaltmaq ərəfəsində güclü şimal küləyi əsir və həmçinin gəmilərə su sızmağa başlayır. (Əsgərlər) onlara (gəmilərə) dolan suyu boşaltmağa çalışsalar da onlar günortaya qədər davam gətirirlər. Nəhayət, axın gücləndiyi üçün suyu boşaltmağa gücləri çatmır. Başqa əlac qalmadıqda gəmilərin lövbərlərini kəsirlər. On iki gəmi bir-birinin ardınca iki saat ərzində dənizin dibinə oturur. Xeyli un islanaraq xarab olur» (54,96-97). Ərzağın xarab olması rus qoşununu çətin vəziyyətə salmışdı. Lakin ərzaq çatışmazlığının qarşısını almaq üçün Həştərxandan kömək gözlənilirdi.

F.İ.Soymonov qeyd edir ki, «Həştərxandan kapitan Vilboanın başçılığı ilə 30 gəminin gəlməsi gözlənilirdi. Lakin gəmilər vaxtında gəlib çıxmadığından fikirləşirdilər ki, o ordunun Dərbənddə xeyli qaldığını təsəvvür etmədiyindən ola bilsin ki, Niyazabad limanına gedib çıxıb. Onda General Admiralın əmrinə əsasən Soymonov oraya göndərilir. Onları Niyazabadda tapmyan Soymonov səhəri günü Dərbəndə qayıdır. Bu vaxt Vilboa gəmiləri ilə Aqraxan görfəzində olması haqqında xəbər gəlir. Gəmilər pis vəziyyətdə olduğu üçün o, açıq dənizə çıxmadan çəkinirdi» (54,100-101).

Kapitan Vilboa gəmilərin acınacaqlı vəziyyətdə olmasına baxmayaraq Dərbənddə yerləşən qoşuna ərzağı vaxtında çatdırmaq istəyirdi. Kapitan açıq dənizə çıxsa da onun bu cəhdi baş tutmamışdı. Çünki dənizə çıxan vaxt cənubdan əsən güclü qasırğa nəticəsində zədələnən gəmilərə su sızmağa başlayır. Gəmi heyəti açıq dənizdə gəmilərə su sızmasının qarşısını ala bilmir. Əlacsız qalan kapitan gəmiləri əvvəlki vəziyyətinə qaytarmalı olur.Komandanlıq kapitan Vilboaya açıq dənizə çıxmağın lazım olmadığını bildirmək üçün kapitan-leytenant Bernardı və leytenant F.İ.Soymonovu onun yanına, Aqraxan körfəzinə göndərir. Bunun məqsədi yürüşü dayandırıb geri qayıdan qoşunu təchiz etmək üçün xarab olmamış ərzağı qorumaq idi (54,100).

Rus qoşununun təchizatı üçün nəzərdə

tutulan ərzağın çox hissəsinin xarab olduğuna və Həştərxandan göndərilən köməyin gəlmədiyinə görə I Pyotr yaxın adamları ilə məsləhətləşmək üçün hərbi şura çağırmalı olur. Hərbi şurada bir aylıq azuqə qaldığı üçün, yürüşü davam etdirməyin mümkün olmadığına görə, Dərbənd şəhərində xüsusi qoşun hissələri yerləşdirərək Həştərxana geri qayıtmağın vacibliyi qərara alınır. Hərbi şuradan sonra I Pyotrun əmrinə əsasən, polkovnik Yunkerin başçılığı ilə Dərbənd şəhərində xüsusi qoşun hissəsi saxlanılır (54,99,101). I Pyotr bu və ya digər lazimi işləri gördükdən sonra 1722-ci il sentyabrın 6-da rus qoşununun bir hissəsi ilə Rusiyaya geri qayıdır (43,27).

İmreratorun özü Rusiyaya qayıtsa da, rus qoşununun cənuba doğru yürüşü dayandırılmamışdı. I Pyotr Həştərxana qayıtdıqdan sonra rus qoşunlarının yürüşü davam etdirməsi üçün bir neçə göstəriş vermişdi. Onun göstərişinə əsasən, ilk növbədə Bakı və Rəşt şəhərlərini işğal etmək üçün xüsusi hərbi ekspedisiyalar təşkil olunmuşdu.

Rus qoşunlarının Xəzərsahili əyalətlərə yürüşü ərəfəsində yazılmış «Manifest» Bakıya da göndəilmişdi. I Pyotr hələ Dərbənd şəhərinə daxil olmamışdan əvvəl, avqustun 22-də Bakı əyanlarının bir qrup nümayəndəsi tərəfindən «Manifest»ə cavab məktubu almışdı. F.İ.Soymonovun səyahətnaməsində həmin məktubun məzmunu göstərilib. Məktubun məzmunu be-

lədir: «Allahın mərhəmətilə, İmperator Həzrətlərinin Şaha olan dostluluq sədaqətinə sadiq qalaraq, qiyamçıları cəzalandırmaq üçün Şirvan vilayətinə yollandığını, onlara göndərilmiş manifestdən öyrənmişlər. Onlar Əlahəzrətə xidmət etmək və ona itaət göstərmək istəyirlər. Həmçinin, iki ildən bəri Əlahəzrət şahın düşmənlərindən müdafiə olunduqlarını, həmin cinayənətkarların dərhal layiqincə cəzalandırılmasını, özlərinin isə Əlahəzrət tərəfindən mühafizə edilməsini arzuladıqlarını bildirirlər» (54,94-95).

Bu məktub on üç nəfərin imzası ilə göndərilmişdi (9,57-58;2,56-57). S.Aşurbəyli məktubu yazanlar arasında Bakı sultanı Məhəmməd Hüseynin də imzasının olduğunu qeyd edir (14,210). Əslində, «məktub bütün Bakı əhalisinin arzusunu əks etdirmirdi və həmin məktub Bakı şəhər hakimindən deyil, əvvəlcədən Rusya padşahından özləri üçün mərhəmət axtaran qeyri-rəsmi adamlar tərəfindən yazılmışdı» (54,95).

Bakı şəhərindən F.İ.Soymonovun səyahətnaməsində göstərilən məzmunda məktubun alınması I Pyotru çox sevindirir. Ona görə də o, Dərbənd şəhərinə daxil olduqdan bir qədər sonra avqustun 25-də leytenant Lunini dəniz yolu ilə xüsusi hazırlanmış şnavda Bakıya göndərmişdi. I Pyotr Bakı şəhərini asanlıqla ələ keçirəcəyini güman edirdi. Leytenant Luninin geri qayıtmasını gözləməyən İmperator 1722-ci

ilin 30 avqustunda Moskvaya Dövlət Senatına göndərdiyi məktubunda «Bakı şəhərinin məktub vasitəsilə Əlahəzrətin ixtiyarına» (54,95) verildiyini yazırdı. Lakin I Pyotr belə nəticələyə gəlməkdə çox tələsmişdi.

Leytenant Lunin Bakıya əhalini itaətə gətirmək üçün fars dilində yazılmış cavab fərmanı aparırdı. Fərmanda deyilirdi: «Şahın sədaqətli qonşusu və müttəfiqi İmperator Həzrətləri həmin yerləri (Bakını) qiyamçılardan müdafiə etmək niyyətilə gəlib. Dərbənd naibi şəhərin xeyri naminə gecikmədən Əlahəzrətin yüksək mərhəmətini qəbul etdi. Ona görə də, Bakı şəhəri özünün təhlükəsizliyi üçün Dərbənddən ərzaqla və digər lazımi avadanlıqla təchiz edilmiş rus qoşununu qəbul etsin» (54,93-94). Belə məzmunlu fərmanla gələn leytenant Lunin Bakı şəhərinə buraxılmır. Lakin Lunin imperatorun vermiş olduğu yazılı əmri Bakı əhalisinə çatdırmasına nail olmuşdu. Fərmanla tanış olan Bakı əhalisi fərmana özlərinin narazılığını bildirmişdi. F.İ.Soymonov yazırdı: «Bakı əhalisi məktubu Lunindən qəbul etməsinə baxmayaraq, onu şəhərə buraxmadılar. Bir neçə saatdan sonra ona «Onlar (Bakı əhalisi) uzun illərdən bəri hər hansı kömək almadan qiyamçılardan müdafiə olunurlar və gələcəkdə də müdafiə olunacaqlar. Ona görə (şəhərə) heç bir qoşun və bir batman azuqə belə lazım deyildir» yazılmış cavab məktubunu verdilər» (54,94).

I Pyotr tərəfindən yazılmış fərmana Bakı

əhalisinin bu cür münasibəti yuxarıda qeyd olunan məktubun bütün bakılıların fikrini əks etdirməməsini sübut edir. Dərbənddə olduğu kimi Bakı şəhərində də rus qoşununa münasibətdə iki qruplaşma əmələ gəlmişdi. Birinci qrupa Bakı sulatnı Məhəmməd Hüseyn bəy başçılıq edirdi. O, Rusiyanın barışmaz düşməni idi və Hacı Davudla gizli əlaqə saxlayırdı. İkinci qrupa Məhəmmədqulu bəy və Dərgahqulu bəy başçılıq edirdi. Onların tərəfdarları tacir və sənətkar olduğundan Rusiya ilə yaxınlaşma siyasəti yeridirdi. Ona görə də, Bakı şəhərini rus qoşununa təslim etmək istəyirdilər. I Pyotrun fərmanına mənfi cavabı isə Bakı sultanı və onun tərəfdarları vermişdi (39,125-126;10,48).

I Pyotr Bakı əhalisindən gözləmədiyi cavabı alanda buranı silah gücünə işğal etmək qərarına gəlmişdi. O, Həştərxanda olarkən Bakı şəhərinə yürüşə hazırlaşmaq əmrini vermişdi. General-mayor M.A.Matyuşkin isə Bakı şəhərinə hücum edəcək rus qoşunlarının baş komandanı təyin olunur.

Osmanlı Türkiyəsinin bu əraziyə müdaxilə etməsindən ehtiyatlanan I Pyotr Bakı şəhərini ələ keçirməsinə böyük əhəmiyyət verirdi. O, Bakının tezliklə işğalına çalışırdı. Onun M.A.Matyuşkinə göndərdiyi 1723-cü il 13 may tarixli sərəncamında deyilirdi: «Gürcüstandan alınmış məlumata görə, paşa onları əz təbəliyinə keçməyə məcbur edərək, Şamaxıya doğru hərəkət edir.Bakını tutmamağın qorxuludur.... »

(35,603-606). Buna görə də, İmperator Bakı şəhərini işğal etmək üçün M.A.Matyuşkini tələsdirirdi. Bakıdan əlini üzəcəyindən təşvişə düşmüş I Pyotr « Yazda Kazandan 15 hekbot gələn kimi dörd alay götürərək Bakıya getməyi və oranı tutmağı» əmr etmişdi (54,159).

I Pyotrun əmrinə əsasən, Bakı şəhərinə yürüşə hazırlıq işləri gücləndirilmişdi. Donanma 15 hekbot, 5 qoliot və 1 neçə busdan ibarət idi. Yürüşdə iştirak edəcək gəmilər ərzaq, silah və sursatla təchiz olunmuşdu. Donanma üç dəstəyə bölünməli idi. Birinci dəstəyə baş konmandan general-mayor M.A.Matyüşkin, ikincisinə general-mayor knyaz Trubetskoy, üçüncüsünə isə briqadir knyaz Baryatinski başçılıq edirdi. Üç dəstəyə bölünmüş donanmanı F.İ.Soymonov, knyaz Urusov və Puşkin idarə edirdi. Artilleriya isə mayor İ.Q.Gerberin rəhbərliyi altında olmalı idi (54,159-160).

1723-cu il iyunun 20-də dəniz yolu ilə Həştərxandan çıxan M.A.Matyüşkinin konmandanlığı ilə rus qoşunu iyulun 6-sinda Bakı körfəzində lövbər salır (Bax: 3-cü xəritəyə). M.A.Matyüşkin Səfəvi şahı II Şah Təhmasibin Sankt-Peterburqdakı səfiri İsmayıl bəyin Bakı əhalisinə yazdığı məktubunu da özu ilə gətirmişdi. Məktub «Bakı əhalisinin rus qoşununa könüllü təslim edilməsi» haqqında idi. Bakı ətrafında lövbər salan M.A.Matyuşkin birinci olaraq mayor Neçayevi həmin məktubla şəhərə göndərmişdi. Eyni zamanda mayor Neçayev

Baş komandanın adından bakılılara belə bir şifahi məlumatını da çatdırmalı idi: «O, (Matyuşkin) şəhəri qiyamçılardan müdafiə etmək üçün Ümumrusiya İmperatorunun əmri ilə göndərilib. Ona görə də, o, ümid edir ki, Sultan bu işə mane olmayacaq, əksinə, İsmayıl bəyin tövsiyəsinə əməl edəcəkdir» (54,160). Lakin Bakı şəhərinin əhalisi mayor Neçayevi şəhərə buraxmamışdılar. O, iki saat limanda cavab gözləməli olur. Nəhayət bakılılar tərəfindən yazılmış «Bakı şəhərinin əhalisi Əlahəzrət Şahın təbələridir. Onlar artıq dörd ildi ki, qiyamçı Davuda qarşı dayana bilmişdilər və bundan sonra həmin qiyamçı nə qədər yaşasa da, güc toplasa da, ondan qorxmayacaq və həmçinin kömək üçün nə bir nəfər qoşun, nə də bir batman azuqə istəmirlər. Səfirin məktubuna gəldikdə isə o, Rusiyada yazılmışdır və üstəlik onlar İsmayıl bəyin məsləhətinə, yaxud əmrinə əməl etməyə borclu deyillər» (54,160-161) məzmununda məktub rus hərbiçisinə verilmişdi.

Bakı əhalisindən müsbət cavab ala bilməyən general-mayor M.A.Matyuşkin qoşuna şəhərə müxtəlif istiqamətlərdə hücuma hazırlaşmaq əmrini verdi. Əmrə əsasən, ilk növbədə polkovniklər Ostafyev və Bezobrazov dörd batalyonla sahilə çıxmalı, mayor İ.Q.Gerber isə iki hekbotu və 18 funtluq çuğun topun yerləşdiyi 5 digər gəmini hazırlıq vəziyyətinə gətirilməli idi (54,161).

İyul ayının 21-də səhər saat 7-dən etibarən

rus əsgərləri bir neçə gəminin köməyi ilə şlyupka və botlarda sahilə çıxarılmağa başladı. F.İ.Soymonovun yazdığına görə « bu iş elə uğurla həyata keçirildi ki, Bakı əhalisi onlara mane ola bilmədi. Rus əsgərlərinin xeyli hissəsi sahilə çıxaraq mövqe tutdular. Bu vaxt toplar sahildə quraşdırılana qədər şəhərdən güclu suvari dəstəsi rus qoşununa qarşı hücuma keçir. Lakin mayor İ.Q.Gerber iki səhra topunu vaxtında quraşdırdığından, onlardan atılan atəş suvariləri geri qayıtmağa məcbur edir» (54,162)

Dəniz tərəfdən də rus gəmiləri Bakı şəhərinə hücuma hazırlıq vəziyyətinə gətirilmişdi. F.İ.Soymonov yazır ki, bu vaxt yeddi gəmi şəhərə yaxınlaşaraq yarımdairə şəklində lövbər salır. Əmrə əsasən hekbotlardan ikisi şəhərə atəş açmalı, beşi isə şəhər divarlarını dağıtmalı idi. Birinci mühasirədəkilər toplardan şəhərə yaxınlaşan rus gəmilərinə atəş açmağa başladılar. Lakin rus gəmiləri mövqe tutub toplardan bakılılara cavab atəşi açanda onlar bir saat belə davam gətirə bilməyərək toplarını qoyub geri qaçırlar. Mortirlər (qısalüləli top) də öz işini gördü, ştik-yunker Çirkovun ustalığı sayəsində onlardan atılan üçüncü mərmi atəşindən sonra şəhərdə yanğın baş verir. Həmin gün axşama qədər şəhərə 94 mərmi atılır. Eyni zamanda sahildə iki batalyon batareya düzəldib oraya dörd qaubiç (qısalüləli ağır top) yerləşdirirlər. Mühasirədəkilərə qala divarlarında top atəşinin açdığı yarığları tutmağa macal vermə-

mək üçün şəhər gecə-gündüz atəşə tutulurdu. Lakin bakılılar təslim olmaq fikrində deyildilər. Əksinə, süvari dəstəsi imkan düşən kimi batareyaya tez-tez hücumlar edirdilər (54,162-163)».

Bakı şəhər əhalisinin inadkarlığını görən M.A.Matyuşkin hiyləyə əl atır. O, iyulun 25-də göstəriş verir. Həmin göstərişə əsasən, gecə sahildə yerləşən düşərgədə hücumun haradan olunacağını göstərən çaşdırıcı həyacan siqnalı verməli, mühasirədəkilər bütün qüvvələrini həmin yerə yönəldəndə gəmilərdə yerləşən qoşun desant çıxarıb top mərmisinin qala divarının dağıtdığı yerindən şəhərə daxil olmalı idilər. Lakin gecə sahildən əsən külək planın həyata keçirməsinə mane olmuşdu. Güclü külək gəmiləri silkələdiyinə görə, atəşi davam etdirmək mümkün olmamışdı. Artıq Bakı əhalisi gecə mərminin dağıtdığı divarı yenidən hördülər (54,163).

Ertəsi günü rus qoşunu hücumu dayandırmalı olur. Baş konmandan M.A.Matyuşkin bakılıları təslim etmək üçün yeni bir təşəbbüs göstərir. Səyahətnamədə göstərilir ki, iyulun 26-da şəhərə qarpız aparan bir yerli kəndlini general–mayor M.A.Matyuşkinin yanına gətirirlər. Sorğu-sual nəticəsində onun heç nədən xəbəri olmadığı məlum olur. Ruslar kəndliyə Bakı sultanının və sakinlərinin adına yazılmış məktubu verərək, onu şəhərə ötürürlər. F.İ.Soymonov öz əsərində məktubun mətnini də verir: «General-

mayor onları (Bakı əhalisini) şahın səlahiyyətli səfirinin məktubuna inanmadıqlarına və onun məsləhətinə əks getdiklərinə, habelə onun (M.A.Matyuşkinin) tərəfindən göndərilmiş elçisini şəhərə buraxmamaqla onu təhqir etdiklərinə görə məzəmmət edir. Onlar nəzərə alsınlar ki, şəhər divarları nə qədər möhkəm olsa da, rus mərmilərindən uçub dağılmışdır. Deşikləri tutub malalasalar da, bunun köməyi olmayacaqdır, suvaq hələ qurumamışdır. Ona görə də, divar ilk atəşdən uça bilər. Odur ki, öz adımdan İmperatorun mərhəmətini vəd edərək sizə təslim olmağı məsləhət görürəm. Əgər onlar bundan sonra müqavimət göstərsələr və müəyyən olunmuş gündə təslim olmasalar, şəhər silah gücünə alındıqdan sonra heç kimə aman verilməyəcəkdir» (54,164).

Kəndli vasitəsi ilə Bakı sakinlərinə çatdırılan məktub bakılılara böyük təsir göstərmişdi. Nəticədə, şəhər sakinləri bir saat keçməmiş dəniz sahili qala divarlarının bürcünə ağ bayraq sancmalı olmuşdu. Eyni zamanda sahildən işarə edərək onların fikrini öyrənmək üçün adam göndərməsini bildirmişdilər. General-mayor M.A.Matyuşkin zabitlərdən ibarət iki silahlı şlyupkanı sahilə göndərdi. Gəmilər şəhər əhalisinin dörd nümayəndəsi ilə birlikdə geri qayıdırlar. Şəhər nümayəndələri əhalinin şəhəri təslim etmək istədiyini və onlara muqavimət göstərdiklərinə görə üzürhaqlıqlarını bildirmişdi. General-mayor M.A.Matyuşkin nümayən-

dələrin iştirakı ilə bağlanacaq müqavilənin şərtlərini yazmış zərfi onlara verərək şəhərə göndərir. Şəhəri rus qoşununa təslim etməyə gəlmiş nümayəndələr, şəhərin qapılarını açmaq üçün mühasirədən əvvəl içəri tərəfdən qapıların qarşısına tökülmüş torpağın təmizlənməsi üçün bir neçə saatlıq vaxt verilməsini istəmişdilər (54,165).

Beləliklə, verilmiş möhlət başa çatdıqdan sonra Bakı şəhərinin rus qoşununa təslim olunması mərasimi başlamışdı. F.İ.Soymonov özünün səyahətnaməsində Bakı şəhərinin təslim edilməsi və rus qoşununun oraya daxil olmasını belə təsvir edir: «Sahildə yerləşən batalyon sıraya düzüldü. Bakı əhalisinin demək olar ki, hamısı şəhərdən çölə silahsız çıxdı. Rusların qəbulu üçün hər şeyin hazır olduğunu general-mayora bildirdilər. Qəbul yaxşı keçdi. Tezliklə, şəhər qapısı və digər yerlər silahlı keşikçilərlə tutuldu. Cümə məscidinin qarşısındakı böyük meydanda əsgərlər üçün qaupvaxt təsis edildi. Rus əsgərləri boş qalmış hind və erməni karvansaralarında yerləşdirildi» (54,165-166).

F.İ.Soymonova görə, Bakı şəhəri rus qoşunu tərəfindən 1723-cü il iyulun 26-da işğal edilmişdi. Bakının işğal edilməsi münasibətilə I Pyotr Sankt-Peterburqda təmtəraqlı mərasim keçirmişdi. İmperator 1723-cü il sentyabrın 8-də general-mayor M.A.Matyuşkinə yazdığı məktubda, onu Bakı şəhərinin alınması münasibətilə təbrik etmiş və general-leytenant rütbəsi ilə təltif

olunduğu bildirmişdi (54,177;23,98;35,603).

Bakı şəhəri işğal edildikdən sonra rus əsgərlərinin şəhərdə apardığı yoxlamalar zamanı bakılıların 80 mis və çuğun topu və dəzgahsız iki böyük qaubiçə malik olduğu məlum olmuşdu.



Şəkil.3. Bakı şəhərinin planı. 1723-cü il.

Bundan əlavə, şəhər qarnizonun 700 nəfərdən ibarət olduğunu öyrənə bilmişdilər. Bu qarnizona şəhərin nüfuzlu şəxslərindən olan Dərgahqulu bəy başçılıq edirdi. Ruslar Dərgahqulu bəy başda olmaqla onları hərbi xidmətə götürdülər. Bakı sultanının aqibəti isə acınacaqlı olmuşdu. Sultan Məhəmmədhüseyn ruslara qarşı düşmən mövqeyində dayandığına və Hacı Davudla gizli surətdə məktublaşdığına görə, üç qardaşı ilə birlikdə həbs olunaraq Həştərxana göndərilmişdi (54,177;23,98).

Bakı şəhərində rus qoşunu yerləşdikdən

sonra I Pyotrun fərmanına əsasən, briqadir knyaz Baryatinski şəhərin komendantı təyin olunmuşdu. Polkovniklərdən Ostafyev, Bezobrazov və Frazer köməkçi kimi onun yanında saxlanılmışdı. General-maylor M.A.Matyuşkin və knyaz Trubetskoy başda olmaqla gəmilərin əksəriyyəti Həştərxan şəhərinə geri qayıdır. Gəmilərdə olan artilleriya, hərbi sursat və ərzaq boşaldılaraq Bakı şəhərinə daşınmışdı (54,177).

Beləliklə, Bakı əhalisinin müqavimətinə baxmayaraq rus qoşunu şəhərin işğalına nail oldu. Ölkədəki hakimiyyətsizlik, şəhərdə ayra-ayrı qruplar arasında hakimiyyət uğrunda gedən mübarizə, Hacı Davudun başçılığı ilə üsyançı dəstələrin ara verməyən hücumları nəticəsində şəhərin özünü müdafiə qabliyyəti zəifləmişdi və bundan istifadə edən həmin dövr üçün müasir hərbi texnikaya malik olan rus qoşunu Bakı şəhərini ələ keçirə bilmişdi.

F.İ.Soymonovun məlumatına görə, Həştərxana geri qayıdan general-leytenant M.A.Matyuşkin I Pyotrdan xüsusi təlimat alır. Təlimatda, Kür çayı mənsəbinə qoşun göndərilməsi və həmin ərazilərin də işğal olunması göstərilirdi. General-leytenant M.A.Matyuşkin Bakı şəhərinin komendantı briqadir knyaz Baryatinskiyə təlimatın icrası üçün xüsusi sərancam ünvanlamışdı (54,54,178).

I Pyotr Kür çayı mənsəbinə yaxın yerdə yerləşən Salyanı tutmağı vacib hesab edirdi. F.İ.Soymonovun yazdığına görə, İmperator Kür

çayının mənsəbində iri ticarət şəhəri saldırmaqla regionun bübün ticarətini buraya cəlb etmək niyyətində idi (54,180). Bundan əlavə F.İ.Soymonov general-leytenant M.A.Matyuşkinlə olan söhbətində I Pyotrun Saylyan haqqında olan fikrini belə şərh edir: « Doğrudur, hökmdar dedi: Salyan çox gözəl yerdir, lakin dənizdən uzaqda yerləşir. Soymonov tərəfindən təklif edilmiş yer isə şəhər salmaq üçün daha əlverişlidir. Onda hökmdar general-leyntenant M.A.Matyuşkinə ora gedərək, həmin yerdə qala tikməyi və sonra da Gilana gedib qoşunun baş komandanlığını qəbul etməyi əmr edir» (54,179-180).

Salyan mahalının varlı bir yer olması, əhalinin əkinçilik və maldarlıq ilə məşğul olması haqqında dövrün digər mənbəyi də məlumat verir. Mənbədə göstərilir: «Salyanda bütün İranda (Səfəvilər imperiyasında) məşhur olan atlar vardır. Buranın iqtisadiyatında ipəkçilik əsas yerlərdən birini tuturdu. Mahaldan yığılan vergi sultan və Şamaxı Bəylərbəyi ilə bölüşdürülürdü» (23,99-100). Bundan əlavə, Salyanda Kür çayı sahilində balıq tutmaq üçün vətəgələr vardır. Balıq ticarətindən xeyli gəlir əldə edilirdi. Səfəvi şahı dövründə balıq vətəgələri 15 000 rubla icarəyə verilmişdi (23,100).

Rus qoşunlarının hücumu ərəfəsində Salyanı Fatma xanım idarə edirdi. Mənbələrdə o, naib Məhəmmədhüseyn bəyin arvadı kimi xatırlanır. Lakin arxiv sənədlərində Fatma xanım

mərhum Salyan hakiminin anası oluğu göstərilir (43,146). Fatma xanım rus qoşunlarının bu ərazilərə hücumundan ehtiyat edərək Şamaxıya gedəndə Məhəmmədhüseyn bəyi öz yerinə Salyanı idarə etmək üçün naib təyin emişdi (43,146-147).

General-leytenant M.A.Matyuşkindən xüsusi sərəncam alan Bakı şəhəri komendantı briqadir knyaz Baryatinski podpolkovnik Zimbulatovun başçılığı ilə bir batalyondan ibarət rus əsgərini Salyanı işğal etmək üçün ora göndərmişdi. Məlumatı İmperatora çatdırmaq məqsədilə kapitan Netisov Sankt-Peterburqa yola salınmışdı. Salyana göndərilən qoşunla maraqlanan İmperator «buyurdu ki, Salyana çoxmu əsgər göndərilib? O isə belə məlumat verir: bir batalyon. Çox azdır, dedi hökmdar. Ona görə ki, Salyan xanımı böyük oğrudur və çox təhlükəlidir» Salyana göndərilən qoşunun az olduğunu söyləyən I Pyotr briqadir knyaz Baryatinskiyə oraya əlavə əsgər yollamasını və Saylan xanımından ehtiyat etməsini xüsusi əmr göndərməklə bildirmişdi (54,178-179).

Salyan əhalisinin ruslara münasibətdə onlara nifrət etməsi səbəbsiz deyildi. Bu 1720-ci il may ayının axırlarında, kapitan Karl fon Verden və leytenant F.İ.Soymonov tərəfindən Kür çayının mənsəbi tədqiq edilərkən baş vermiş hadisə ilə bağlı idi. Səyahətnamədə həmin hadisə belə təsvir edilir: «Salyan sakinləri uzaqdan rus gəmilərini gördülər, (Salyanlılar)

onların (rusların) buraya hansı niyyətlə gəldiyini bilmək istəyirdilər. Dənizçilərimiz bunu gözləmirdilər. Zabitlər Kürün mənsəbindən şimalda yerləşən balıq vətəgələrinə baxmaq üçün bir neçə əsgərlə sahilə çıxdılar. Onların yanında quş vurmaq üçün bir neçə çaxmaqdaşlı tüfəngdən başqa heç bir silah yox idi. Hamıya elə gəlirdi ki, aşağı nəmli torpaq (onları) hər bir hücumdan qoruyacaqdı. Onlar balıq tutmağa başlamışdılar ki, 300 atlı əllərində odlu silah və kaman qamışlıqdan çıxaraq balıq tutulan yerə yaxınlaşdılar. Zabitlərimiz onları böyük qoşun hesab edərək qorxdular. Onlar (zabitlərimiz) atlıları özləri üçün təhlükə hesab etdilər, lakin avarçəkənlər uzaqda olduqlarına görə, onlara necə kömək edəcəklərini bilmədilər. Əgər geriyə şlyupkalara qaçsaydılar belə onlara heç nə kömək etməzdi, ona görə də onlar heç bir qorxaqlıq etmədən olduqları yerdə qaldılar. Onlar (salyanlılır) belə bir cəsarətin böyük ümiddən və böyük gücdən olduğunu zənn etmişdi. Nəhayət, cəsarətə gələn 2başçı və 20-30 sıravi yaxına gəldilər və salam verərək soruşdular: «dənizçilər kimdir? hara gedirlər? Onlara tərcüməçi vasitəsilə qısa cavab verilir. Lakin salyanlılar daha çox maraqlanmağa başladıqda və eyni zamanda çoxlu adamın yaxınlaşdığını görən kapitan Karl fon Verden onlara « onların qarşısında dayanan onlar kimi və onlardan da böyük zabitdir, onlar (başçılar) atlardan düşmədiyinə görə onlarla daha danışmaq istəmir» deyilmə-

sini buyurur. Sonra o zabitlərlə şlyupkalara doğru gedir, avarçəkənlər də onlarla bir yerdə sahildən uzaqlaşırlar. Salyanlılar isə yerlərindən tərpənməmişdilər. Beləliklə, dənizçilərimiz təhlükədən sovuşurlar. Sonralar onlar eşitmişdirlər ki, Salyan əhalisi ümumi üsyanlar zamanı, İran (Səfəvi) dövlətindən ayrılmışdılar. Onlar ruslar gedən ərəfədə qumlu sahildə at çapmaqla və nizə atmaqla özlərinin cəsurluğunu və məharətini göstərməyə başlamışdılar ki, gəmilərdən rusların atdığı bir neçə top atəşi onları qorxudur» (54,44-46).

Salyanlıların rus qoşununa düşmən münasibət göstərməsini Fatma xanımın Bakı komendantı briqadir knyaz Baryatinskiyə yazdığı məktubu bir daha sübut edir. Məktubda yerli hakimlərlə razılaşmadan Salyanda rus qoşun hissələrinin yerləşdirilməsinə narazılıq ifadə olunmuşdu (5,47).

Rus zabiti podpolkovnik Zimbulatovun başçılığı ilə bir batalyon 1724-cü ilin avqust ayında Bakıdan çıxaraq dəniz yolu ilə Salyana doğru hərəkət edir. Kür çayına keçən Zimbulatov Salyan xanımının yaşadığı evin əks tərəfində düşərgə salmış və burada öz mövqeyini möhkəmləndirməyə başlamışdı (54,185). Salyan naibi Məhəmmədhüseyn bəy rus qoşununun əlverişli mövqe tutmasından çox narahat olmuşdu (54,185). O, rusların gəlişini Salyan üçün heçdə ürəkaçan olmadığını dərk edirdi və rusları bu ərazidən uzaqlaşdırmağa çalışırdı. Ona

görə də o, belə bir hiyləyə əl atdı. Fatma xanımın məsləhətilə rusların etimadını qazanan şəhər naibi podpolkovnik Zimbulatovu bütün zabit heyətilə birlikdə qonaq çağırır. Bu hadisə 1724-cü ilin 31 avqustunda baş vermişdi. Ziyafətdə podpolkovnik Zimbulatov ilə birləikdə 6 zabit və 15 əsgər də iştirak etmişdi (43,149). Ziyafət zamanı onların hamısı öldürülmüşdü. F.İ.Soymonov bu hadisəni belə təsvir edir: «Podpolkovnik heç bir hiylədən qorxmayaraq özü ilə müdafiə olunmaq üçün lazımi qədər əsgər götürməyərək bütün zabitlərlə (Fatma xanımın) dəvətinə getdi. Lakin onlar masa arxasında şənləndikləri zaman xanımın adamları sıyrılmış qılınc və xəncərlə zabitlərə hücum edərək onların hamısını öldürdülər» (54,185). Sonra Fatma xanımın adamları Kür çayının digər sahilində yerləşmiş rus qoşununun üzərinə hücuma keçərək onlara müxtəlif xəsarət yetirdilər və bəzilərini gəmilərə kimi təqib edərək öldürdülər.Salyanlıların hücumu nəticəsində başsız qalmış rus qoşunu zabit heyətindən sağ qalmış xəstə proporşiki özləri ilə götürərək geri Bakı şəhərinə qayıdırlar (54,185-186).

Səyahətnaməyə görə, I Pyotr Kür çayı mənsəbində yerləşən Salyanı işğal etməyi çox vacib hesab edirdi. Onun bu yerlər haqqında geniş planı var idi. I Pyotr bu ərazini işğal etməklə orada iri tacarət şəhəri tikdirmək niyyətində idi. Həmin şəhər regionun bütün ticarətini özündə birləşdirməli və xristianların dayağı olmalı idi.

Xəzər dənizini Rusiyanın daxili dənizinə çevirməyə can atan I Pyotrun Xəzərsahili əyalətlərə yürüşünün tərkib hissəsinə Gilan əyalətini və onun mərkəzi olan Rəşt şəhərini işgal etmək məsələsi də daxil idi. Səfəvilər dövlətinin inkişaf etmiş bu əyaləti nəinki Şərq ölkələrində, eyni zamanda Qərbdə də məşhur idi. F.İ.Soymonovun səyahətnaməsində Gilan əyalətinin işğalı haqqında geniş bəhs edildiyindən və rus tədqiqatçısı V.P.Lıstsovun monoqrafiyasında (39) rus qoşunlarının Rəşt şəhərinə hücumuna ötəri toxunulduğuna görə bu tarixi hadisəni hərtərəfli təsvir etmək niyyətindəyik.

Rus qoşunlarının hücumu ərəfəsində Gilan əyaləti Səfəvilər imperiyasının iqtisadi cəhətdən inkişaf etmiş əyalətlərindən biri idi. Bu əyalət haqqında F.İ.Soymonov özünün səyahətnaməsində ətraflı bəhs etmişdir. O, Gilan əyalətinin coğrafi mövqeyi haqqında məlumat verərək yazırdı: Gilan əyaləti dəniz sahili boyunca 50 verst uzanır, eni isə dənizdən əyaləti farsdan ayıran dağlara qədər 30 verstdir» (54,192). 1716-1718-ci illərdə Səfəvi imperiyasında olmuş məşhur rus səfiri və səyyahı A.P.Volınski Gilan əyalətindən bəhs edərkən onun Məncili, Rəşt, Lahıcan, Kəskər, Astara kimi şəhərlərinin olması haqqında məlumat vermişdi (21,13).

Gilan əyalətinin iqtisadiyyatında kənd təsərrüfatı əsas yeri tuturdu. Əkinçilik kənd təsərrüfatının aparıcı sahələrindən biri idi. Əyalətdə buğda, arpa və çəltik əkinçiliyi geniş yayılmışdı.

Xüsusi ilə, Gilan əyaləti çəltik istesalatında daha çox şöhrət qazanmışdı. Çəltik burada bol yetişdirildiyindən nəinki yerli əhalinin tələbatını ödəyirdi, eyni zamanda qonşu əyalətlərə də ixrac edilirdi (54,192). F.İ.Soymonovun verdiyi bu məlumatı digər mənbələr də təsdiq edirdi (21,22;50,70).

Əyalətin inkişaf etmiş kənd təssərüfatı sahələrindən biri də maldarlıq idi. F.İ.Soymonovun səyahətnaməsində əhalinin çoxlu iri və xırda buynuzlu mal-qara saxlanması haqqında da maraqlı məlumat verilir. Onun yazdığına görə, Səfəvilər imperiyasında Gilan öz atları ilə də məşhur idi (54,192).

Meyvəçilik və bostaçılıq əyalətdə geniş inkişaf etmişdir. Burada sitrus meyvələri, narincı, xurma, əncir, nar, gavalı, üzüm, zeytun bol idi (54,193).

Gilan əyaləti özünün üzümü ilə də ad qazanmışdı. Yerli əhalinin üzümdən əla keyfiyyətli şərab istehsal etdiyini yazan F.İ.Soymonov Gilan üzümündən Dərbənd üzümünə nisbətən daha keyfiyyətli alınan şərabın Fransada istehmal olunan şəraba oxşaması haqqında məlumat verir (54,193).

Gilan əyalətinin iqtisadiyyatında aparıcı yeri xam ipək istehsalı tuturdu. Xam ipəkdən şah sarayı küllü miqdarda gəlir əldə edilirdi. F.İ.Soymonovun məlumatına görə, I Pyotr Həştərxanda olarkən Gilan əyaləti haqqında ətraflı məlumat toplamağa başlamışdı. Əyalətlə

maraqlanan Rusiya dövlətinin başçısı bura yaxşı bələd olan bəzi adamlarla söhbət aparmışdı. I Pyotrla söhbətində hind taciri Amburan ölkədə (Səfəvilər imperiyasında) baş verən böhrandan əvvəl Gilan əyalətinin təkcə Osmanlı Türkiyəsinə ildə 7-9 pud (1 pud – 16 kq.), hər pudu 70-90 rubl olan 9000 tay xam ipək ixrac olunduğunu qeyd etmişdi (54,108). Xam ipəkdən şah sarayının külli miqdarda gəlir əldə etməsinin şahidi olan A.P.Volınski Etimadudövlənin özündən Gilan əyalətindən hər il şah xəzinəsinə 900 000 rubl vergi daxil olunduğunu eşitmişdi (21,13).

Gilan əyalətinin mərkəz şəhəri olan Rəşt əyalətin ən çox inkişaf etmiş ticarət şəhərlərindən biri idi. F.İ.Soymonov Rəşt şəhərinin coğrafi mövqeyindən bəhs edərək yazırdı: «Rəşt şəhəri $36^0$ 40' arasında Xəzər dənizindən 10-12 verst aralı, Peribazar çayının qolu üzərində Gilanın mərkəzində yerləşirdi......, şəhərin yerləşdiyi ərazi 5 kvadrat verst sahəni əhatə edirdi» (54,188-189). 1716-1718-ci illərdə Səfəvi imperiyasında olmuş A.P.Volınski Rəşt şəhəri haqqında daha ətraflı məlumat verərək yazırdı ki, «Rəşt şəhəri düzənlik yerdə, hər tərəfdən meşə və tut ağacları ilə əhatə olunmuşdu. Şəhərdə səkkiz mindən çox ev var idi» (21,22). Rəşt şəhərində evlər adətən kərpicdən tikilirdi (54,189).

Rəşt şəhəri xam ipək ticarətinin mərkəzi olduğu üçün bu şəhərə Türkiyədən, İrandan, Bu-

xaradan və Hindistandan böyük ticarət karvanları gəlirdi. Bura Avropa və Asiyadan gələn ticarət mallarının cəmləşdiyi məkan hesab olunurdu. Şəhərdə 50–dən çox karvansara var idi (54,189-190).

Rəşt şəhərində Avropadan gətirilmiş mahud və digər yun parçaları, İrandan, Buxaradan, Hindistandan gətirilmiş pambıq parça və ipək parçaları ilə dəyişdirirdilər (54,190). Ticarət isə əsasən xam ipəklə aparılırdı. Hər il Aralıq dənizi və İran körfəzinə çoxlu xam ipək ixrac olunurdu (54,190). Buradan xam ipək ixrac edilməklə yanaşı eyni zamanda xam ipəkdən müxtəlif çeşiddə parçalar istehsal edən Səfəvii şahlarına məxsus çoxlu müəssisələr fəaliyyət göstərirdi. A.P.Volınskinin yazdığına görə, dövlətin xam ipəkdən xalis gəliri 100-300 tümən arasında idi (21,22).

Xam ipək yerli ticarət adamlarına saysız miqdarda gəlir gətirirdi. Tacirlər o qədər varlanmışdırlar ki, dövlət işlərinə belə qarışırdılar. F.İ.Soymonov yazırdı: «Ticarət böyük gəlir gətirdiyindən tacirlər özlərini zadəganlarla bərabər tuturdular. Yerli tacirlər və meşşanlar dövlət işlərində iştirak edirdilər. Şah öz adından şəhərin və qəzaların idarəçiliyini vəzirə tapşırmasına baxmayaraq, o(vəzir), mühüm məsələlərdə meşşanların razılığı olmadan işini qura bilmirdi. Şəhərdə vəzirlik gəlirli vəzifə olduğundan vəziri tez-tez dəyişirdilər» (54,189).

Səfəvi imperiyası daxilində baş vermiş ümu-

mi böhran nəticəsində Gilan əyaləti, xüsusi ilə də onun mərkəzi şəhəri olan Rəşt əvvəlki şöhrətini itirməyə başlamışdı. Qonşu ölkələrdən gələn karvanların getdikcə azalması ticarəti zəiflətmişdi. Bunun səbəbi səyahətnamədə belə təsvir olunur: «Tez-tez adı çəkilən quldur Davud bəy Şirvanda Türkiyədən gələn bir neçə karvanı qarət etdt, sonra isə əsasən, əfqanların yırtıcılığı İranın bütün yollarını, xüsusən də Hindistandan gələn yolları təhlükəli etdi. Həmçinin rus qoşunlarının büraya yürüşü əhali içərisində çaşqınlıq yaratmışdır. Briqadir knyaz Levaşevin dərc etdirdiyi manifestdən biləndə ki, Gilan əyaləti Rusiyaya (Səfəvi şahı tərəfindən) güzəşt edilib, varlı tacirlər Rəşt şəhərini tərk etməyə başladılar. Tanınmış ticarət şəhəri hərbi şəhərə çevrilirdi» (54,191-192).

I Pyotr Xəzərsahili əyalətlərə yürüşünü yarımçıq saxlayıb geriyə qayıdan zaman Həştərxanda olan nərə və ağ balıq tutulan Uçuq adlanan yerə baxmağa getmişdi. Bu zaman kabinet kuryeri Çebotayev Rəşt vəzirinin Həştərxan qubernatoruna məktubunu və Rusiya konsulu Semyon Abramovun məlumatını A.P.Volınskiyə çatdırmışdı. F.İ.Soymonovun səyahətnaməsində həmin məktubun məzmunu göstərilib. Məktubda yazılırdı: «Yerli əhali qiyamçılar tərəfindən sıxışdırıldığından, rus qoşununun gəlməsini və onları mühafizə etməsini arzu edir» (54,103-104). Məktubun məzmunu ilə tanış olan I Pyotr fürsəti əldən verməyərək general-

admiral Apraksin, imperatorun gizli müşaviri qraf Tolstoy və Həştərxan qubernatoru A.P.Volınskinin iştitrakı ilə gizli müşavirə keçirir. Müşavirədə payızda Gilana rus qoşun hissələrinin göndərilməsi qərara alınır (54,104).

Gilan əyalətinə qoşun göndərməmişdən əvvəl əyalətin siyasi və iqtisadi vəziyyəti ilə tanış olmaq üçün imperator I Pyotr Həştərxan şəhərinin özündə Rəşt şəhərində ticarət işləri ilə məşğul olan bir neçə tacirlə ətraflı söhbət etmişdi. Belələrindən biri uzun illər Gilan əyalətində yaşamış və bu əyaləti yaxşı tanıyan Moskva taciri Yevreyinovun mirzəsi Andrey Semyonov idi. I Pyotr ətraflı məlumat toplamaq üçün özü şəxsən onu sorğu-suala tutmuşdu. Andrey Semyonov ilə söhbəti zamanı Rəşt şəhərindən Qəvzinə gedən yol I Pyotrun diqqətini cəlb etdi. İmperatorun əmrinə əsasən onun verdiyi məlumatlara əsasən kapitan-leytenant F.İ.Soymonov Rəşt şəhərinin dolama yollarını xəritədə qeyd etmişdi. Qəzvin yolu İranın mərkəzi rayonlarından keçərək Rəşt şəhərinə gələn yol idi. I Pyotr Qəzvin yolu ilə bağlı polkovnik Şipova xüsusi təlimat vermişdi. Təlimatda bu yol üstündə qala tikməklə qiyamçıların və iranlıların Gilana gəlişinin qarşısını almağın vacibliyi vurğulanırdı (54,107).

Həştərxanda yaşayan,əslən Hindistanlı olan tacir Amburan da I Pyotora Gilan əyaləti haqqında xeyli maraqlı məlumatlar vermişdi. O, Gilan əyalətinin xam ipək istehsalında xü-

susi yer tutduğunu və hər il xarici dövlətlərə küllü miqdarda xam ipək ixrac edildiyini qeyd etmişdi (54,108).

Gilan əyaləti və onun mərkəzi Rəşt şəhəri haqqında lazımi qədər məlumat toplayan I Pyotr yürüşdə iştirak edəcək qoşunun hazırlanmasına sərəncam vermişdi. Yürüşdə polkovnik Şipovun komandınlığı altında iki batalyon rus qoşun hissələri iştirak edəcəkdi. Bu ekspedisiyada 14 gəminin iştirakı nəzərdə tutulmuşdu. Gəmilərə kapitan-leytenant F.İ.Soymonov başçılıq etməli idi (54,106-108).

I Pyotr Şipovun qarşısında Rəşt şəhərinin işğalı məsələsini qoymuşdu. Şipov Rəşt şəhərini tutmaqla onu əldə saxlamalı, eyni zamanda ləzgilərin (dağıstanlıların) və əfqanların hücumlarının etimal edildiyi yolları səngərlərlə möhkəmləndirməli idi (39,128).

Yürüşdə iştirak edən gəmilər beş gün müddətində hazırlıq vəziyyətinə gətirilir və 1722-ci il noyabrın 14-də heyət Həştərxandan dəniz yolu ilə cənuba doğru hərəkət etməyə başlayır (54,109). V.P.Lıstovun əsərində yürüşün başlanma vaxtı səhf olaraq 4 noyabr göstərilib (39,128).

Rus gəmiləri dekabr ayının əvvəlində Ənzəli körfəzinə daxil olaraq Peribazar çayının körfəzində lövbər saldıqdan sonra yürüşün komandanı polkovnik Şipov, kapitan Yazıkovu Rəşt şəhərinə göndərir. O, kapitan Yazıkova rus qoşununun gəlməsini və eyni zamanda yük-

lərin boşaldılaraq daşınması üçün atların göndərilməsini Rəşt vəzirinə və rus konsulu Semyon Avramova çatdırmaq göstərişini vermişdi (54,113-114). Şəhərə gələn Yazıkov yerli əhali tərəfindən pis qarşılanır. Rəşt şəhərində iki gün ləngiyən kapitan şəhər darğası ilə birlikdə polkovnik Şipovun yanına qayıdır.



Şəkil.4.Peribazarın planı. 1722-ci il.

Kapitan Yazıkov, polkovnik Şipova şəhərdə olduğu müddətdə orada baş verən hadisələr haqqında məlumat verir. Kapitan Yazıkovun verdiyi  məlumata görə «o şəhərə gələn kimi oranın adlı-sanlı əyanları  məsləhətləşmək üçün vəzirin evinə yığışırlar. Məsləhətləşmələrdən sonra ona (kapitan Yazıkova) şahın icasəsi olmadan şəhərə rus qoşununu buraxa bilməyəcəklərini bəyan edirlər. Ona görədə o (Yazıkov) geri qayıdaraq polkovnikə desin ki, gəmilərdə qalsınlar, əks halda yerli əhali onlara müqavimət

göstərəcəkdir» (54,114-115). Kapitan Yazıkovun belə məlumatla geri qayıtması polkovnik Şipovu çox məyus edir. Onda polkovnik darğa vasitəsilə yerli əhaliyə aşağıdakı məzmunda cavab göndərir: «Rəşt sakinlərinin özləri üsyançılardan müdafiə olunmaq üçün bizim gəlməyimizi xahiş etmişdilər. İmperator əlahəzrətləri onların xahişini yerinə yetirib. Polkovnik onların (Rəşt əhalisinin) heç bir köməyi qəbul etməməyindən və onu Rəşt şəhərinə buraxmaq istəməməyindən şübhələnir. O, gəmidə qala bilməz və imperatorun əmri olmadan geri qayıtmaq mümkün deyil. Əlbətdə, o, Rəşt şəhərində yaşamalıdır və bundan əlavə yükləri daşımaq üçün atlar ilə təmin olunmalıdır. O, başqa heç bir şey tələb etmir. Hansısa bir avaranın mənə etiraz etməsi lazımi müzakirə edilməlidir. Böyük hökmdar ədalətsiz rəfdardan hiddətlənərək bu işdə günahı olanları cəzalandırmayacağını bilmək olmaz?» (54,116). Lakin polkovnik Şipovun bu məktubu də cavabsız qalır. Rəşt əhalisi rus əsgərlərini şəhərə buraxmaq niyyətində deyildi.

Yerli əhalinin inadkarlığının şahidi olan polkovnik Şipovun əmrinə əsasən, iki alay bir neçə topla şlyupka və qayıqlarda sahilə çıxarılır. Rus qoşununun sahilə çıxarıldığını eşidən Rəşt Vəziri tezliklə, müdafiə olunmaq üçün bir neçə artilleriya qurğusunu hazır vəziyyətə gətirmişdi. Lakin vəzir sonradan fikrini dəyişərək «polkovnikin həqiqətən imperator tərəfindən

Gilanı qiyamçılardan qorumaq üçün göndərilməsi haqqında əlahəzrətin öz dəsti xətti ilə yazılmış fərmanı varsa, onda rus qoşununu Rəşt şəhərinə buraxdığı üçün şahın hüzurunda cavab verməyin asan olacağını» bildirmişdi (54,117). Məlumat konsul Semyon Avramov vasitəsilə polkovnik Şipova çatdırılır. Polkovnik Şipov vəziri inandırmaq məqsədilə onu Peribazara dəvət etmişdi. Vəziyyət ilə maraqlanaraq 200 nəfərlik nümayəndə heyəti ilə oraya gələn vəzir ruslar tərəfindən təntənəli şəkildə qarşılanmışdı. Belə ki, onların şəhəfinə 200 əsgər əllərində tüfəng sıraya düzülmüşdü (54,54,117). Tərəflər arasında dostluq şəraitində keçən görüşdə polkovnik Şipov Rəşt şəhərinə gəlməsinin səbəbini bəyan edərək imperatorun fərmanını onlara təqdim edir. Fərmanı götürən vəzir onu hörmət əlaməti olaraq öpür və başının üstünə qaldırır. Beləliklə polkovnik Şipov Rəşt şəhərinə daxil olmağın icazəsini ala bilmişdi (54,117-118).

Rus qoşunları Rəşt şəhərinə sakit şəraitdə daxil olur. F.İ. Soymonov yazır ki: «Rəşt camaatı rus marşının müşayətilə nizamla gedən əsgərlərə tamaşaya çıxmışdı» (54,118). Polkovnik Şipov şəhərə daxil olduqdan sonra səlahiyyətindəki 5 alayla şəhərin kənarında yerləşən rus tacirlərinin yaşadığı, qarşısında geniş meydan, bir tərəfində isə çəmənlik olan karvansarada yerləşir. Peribazarda isə podpolkovnik Kolyubakinin başçılığı ilə iki alay saxlanılmışdı (54,118).

Rus qoşunları heç bir güllə atmadan Rəşt şəhərinə daxil olsa da, çox keçmədən burada baş verən hadisələr onların vəziyyətini gərginləşdirmişdi.



Şəkil.5. Rəşt şəhərinin planı. 1722-1725-ci illər.

Bu 1722-ci ilin oktyabr və dekabr aylarında əfqan-gilzayilərin üsyanının müvəffəqiyyət qazanması, onların əvvəl İsfahanı, sonra isə Qəzvini ələ keçirməsi ilə əlaqədar idi (4,68,72,73 ;39,129). Rəşt şəhərində belə məlumatı eşidən polkovnik Şipov general-leytenant M.A.Matyuşkinə həyacanlı xəbər göndərmişdi: «Əfqanlardan böyük təhlükədəyəm. İsfahanı işğal ediblər, deyirlər Şah nəzarət altındadır, başqa şayələrə görə Şah öldürülüb. Qəzvini də əfqanlar işğal edib, şahın oğlu Qəzvindən qaçıb. Harada olduğu bilinmir» (54,120). Polkovnik Şipov təhlükənin qarşısını almaq üçün bir sıra tədbirlər görməli olmuşdu.

Rus qoşunlarının vəziyyətinin kəskinləşməsi

həm də Səfəvi səfiri İsmayıl bəy ilə bağlı idi. Belə ki, Rus qoşunlarının cənuba yürüşü ərəfəsində öncə I Şah Soltan Hüseyn (1694-1722), sonra isə II Şah Təhmasib (1722-1732) tərəfindən Rusiya dövlətinə göndərilmiş səlahiyyətli səfir İsmayıl bəy bu zaman Rəşt şəhərində idi. O, bir səfir kimi üsyan başçısı Əfqan Mir Mahmuda qarşı Rusiya ilə müqavilə bağlamalı idi. Müqaviləyə əsasən, Rusiya şaha kömək edəcəyi təqdirdə II Şah Təhmasib Xəzər dənizi sahilindəki bəzi əyalətləri ona güzəştə gedəcəkdi (54,121).

İsmayıl bəy I Şah Soltan Hüseyn tərəfindən əfqan üsyançılarının İsfahan şəhərinə yaxınlaşması ərəfəsində Rusiyaya yola salınmışdı. Əfqan üsyançılarının başçısı Mir Mahmudun İsfahanı ələ keçirib, taxt-taca yiyələnərək I Şah Soltan Hüseynin həbs olunması xəbərini eşidən İsmayıl bəy Səfəvi dövlətinin taxt-tacının yeganə varisi II Şah Təhmasibin yanına gedir. Bir yerdə qərar tuta bilməyən II Şah Təhmasib isə gah Təbrizdə, gah da Ərdəbildə olurdu. O, şah kimi «zəif ağla malik idi və bütün nazirlərinin məsləhəti ilə hərəkət edirdi» (54,121). Çıxılmaz vəziyyətdə qalan II Şah Təhmasib İsmayıl bəyi səlahiyyətli səfir kimi Rusiya dövlətinə göndərməli olmuşdu.

Rəşt şəhərində olan səfir İsmayıl bəy ruslar tərəfindən himayəyə götürülmüşdü. Polkovnik Şipov onu Peribazarda saxlanılan gəmiyə aparıb rus zabitləri Lunin və Tatişevə tapşırmışdı.

İsmayıl bəy səhəri günü dəniz yolu ilə Rusiyaya yola salınmalı idi. Lakin hadisələrin mürəkkəb hal alması onu gecə yola salmağı məcbur edir. Belə ki, axşam saat 9-da rus konsulu Semyon Abramov şahın əmrinə əsasən səfirin geri qaytarılacağı haqqında kapitan-leytenant F.İ.Soymonova məlumat verdiyinə görə, ruslar tərəfindən həmin əmr alınana qədər səfiri tezliklə yola salmaq lazım gəlmişdi (54,122). Həqiqətən, İsmayıl bəyin geri qaytarılması üçün əmr olmuşdu. Rus konsulu İsmayıl bəyin geri qaytarılması üçün Şahın xüsusi fərmanının olmasını Rəşt vəzirindən xeyli əvvəl eşidmişdi. Şahın fərmanını gətirən çaparın Rəşt şəhəri yaxınlığındakı kənddə qərar tutduğunu eşidən Semyon Abramov çaparı evinə qonaq çağıraraq onu yaxşı qarşılamış və Rəştə getməyini gecikdirmişdi. Bu zaman o, polkovnik Şipova və F.İ.Soymonova bunun haqqında xəbər göndərmişdi. Gəmilərin açıq dənizə çıxmasından hali olan kimi konsul çoxlu pul verərək çaparı yola salmışdı (54,123-124). Lakin çapar vəzirin yanına gəldikdə artıq gec idi. Rusların qurduğu hiylə nəticəsində həmin gecə səfir İsmayıl bəy Rusiyaya yola salınmışdı. Hətta, Rusiyaya yola salınarkən belə səfir aldadılmışdı. Səyahətnamədə göstərilmişdir ki, «F.İ.Soymonov səfirə deyir: «gözlənilən gecə yarısı onun yolu üçün çoxlu xoşbəxtlik vəd edir, ondan əlavə yarım ay yol gedəcəklərindən (sahilə) doğru su gələnə qədər açıq dənizə çıxmaq üçün tələsmək lazım-

dır». Səfir bununla razılaşır və bütün şlyupka və qayıqlar dənizə çıxmaq üçün yedəyə alınır» (54,123).Beləliklə, heç bir şeydən xəbəri olmayan səfir İsmayıl bəy rusların hiyləsi nəticəsində Rusiyaya yola düşür.

Qeyd edilən hadisələrdən sonra yerli əhalinin ruslara münasibəti tamamilə dəyişmişdi. Rus qoşununu şəhərdən çıxarmaq üçün Rəşt əhalisi silahlanaraq bir yerə toplaşmışdı. Onların köməyinə qonşu Kəskər və Astara Vəzirləri də qoşun gətirmişdilər. F.İ.Soymonovun məlumatına görə, «bir neçə həftə keçdikdən sonra erməni və gürcü tacirləri xəbər verir ki, ruslara qarşı artıq 15 000 əhali yığılıb» (54,125).

Bu xəbəri alan rus qoşunu baş verə biləcək hücumun qarşısını almaq üçün xüsusi hazırlığa başlayır. Polkovnik Şipovun əmrinə əsasən rus əsgərlərinin yerləşdiyi karvansaranın ətrafında iki səngər qazılmışdı. «Vəzir bunun səbəbini soruşduqda polkovnik cavab verir ki, (onlara qarşı) təhlükə olmamasına baxmayaraq, Avropa hərbi qaydasında belə ehtiyatlı olmaq tələb olunur» (54,125).

Yerli əhali tam hazır olan kimi, 1723-cü il fevralın axırlarında Rəşt, Kəskər və Astara vəzirləri ruslara qarşı tələblər irəli sürmüşdülər. Polkovnik Şipova həmin tələbnamədə göstərilirdi ki, «onlar (yerli əhali) rus qoşununun bu əraziyə gəlməsinə dözmək istəmirlər. Rəşt əhalisi özləri düşməndən qoruna bilərlər və rus

qoşunu şəhəri tərk etsin». (54,125). Polkovnik Şipov «Biz bura vəzir və Rəşt əhalisinin onları müdafiə etmək çağrışı ilə gəlmişik. İmperatorun bizi bura göndərməsi Şaha və İran (Səfəvi) dövlətinə dostluğunu sübut edir, ona görə də, mən şübhə etmirəm ki, o bizi buradan lazım gəldikdə geri çağıracaqdır. Lakin İmperator Həzlətlərinin adından fərman olmasa mən yerimdən tərpənməyəcəyəm. Onlar məndən mümkün olmayan şeyi tələb edirlər, artıq buradan iki gəmi İsmayıl bəy ilə yola salınıb, onların gəlməsini gözləmək lazımdır. Ola bilsin ki, mənim yanımda olanların (rus qoşununun) hamısı geri qayıtsın. Əgər mən hansısa bir qərarı mərhəmətli Hökümdarımızın fərmanı olmadan edə bilsəydim, bu ümidlə ki, o, mənim etdiyim hərəkəti bağışlayaydı və imperator mənə öz müdrikliyi ilə günah saymazdı. Mən nə ağır yükləri Dərbəndə göndərə, nə də həmin gəmilər qayıtdıqdan sonra qoşunla geri qayıda bilərəm» cavabını yazmışdı(54,126-127). Beləliklə, polkovnik yerli əhalini aldadaraq vaxt qazanmaq istəyirdi.

1723-cü il martın 17-də kapitan-leytenant F.İ.Soymonov 8 gəmidə açıq dənizə çıxaraq Həştərxana qayıdır. Peribazarda kapitan-leytenant Zolotoryevin başçılığı ilə bir quker, bir iri bot və bir evers qalır. Quker və botda artileriya yerləşdirilmişdi (54,129). Lakin tezliklə polkovnik Şipovun yalanı üzə çıxır. Rusiyaya qayıdan gəmilərdə heç nə aparılmadığına, ha-

belə rus qoşununun buradan getməyəcəklərinə tam əmin olan yerli əhali Vəzirlər başda olmaqla polkovnik Şipova təzyiq göstərərək Rəşt şəhərini tərk etməsini tələb edirlər. F.İ.Soymonovun məlumatına görə: «Rəştlilər polkovnik Şipova bildirirlər ki, «onun üç gəmisi və qoşunun dörddə bir hissəsi qalıb. O, bu qoşunla heç bir şeyə nail ola bilməyəcəkdi». Polkovnik Şipov qərar verməkdə tələsmirdi: «Hələlik mən Şahın fikrini bilmədən, onlardan heç bir əmr qəbul etməyi səbəb görmürəm». Polkovnik Şipovun bəhanələrinə cavab olaraq olan yerli əhali bir neçə gündən sonra Şah tərəfindən yazılmış uzun mətnli fərmanı ona göstərirlər. Fərmanın şah tərəfindən yazılmadığını hesab edən polkovnik Şipov öz mövqeyindən geri çəkilmədi. Yerli əhali ona yenə də hədə-qorxu gəlsə belə o,müdafiə olunacağına qərar verməklə yerli əhalini xəbərdar etmişdi ki, «Əgər düşmən (rəştlilər) hərəkətə başlasa,onda Vəzirlər müharibənin bütün nəticələrinə və baş verənlərə görə özlərinin cavabdeh olacaqlarını fikirləşsinlər» (54,130).

Rus qoşunlarının şəhərdən getməyəcəklərinə əmin olan rəştlilər səhəri günü martın 18-də 4 topdan və bir neçə kiçik silahdan Karvansaranı atəşə tuturlar. Nəticədə rus qoşunlarının kapitanı Rezin öldürülür. Yerli əhali tərəfindən karvansaraya edilən atəşlərə əhəmiyyət verməyən rus əsgərləri gözləmə mövqeyi tutaraq gecənin düşməsini gözləyirlər. Polkovnik Şipovun

əmrinə əsasən, gecənin düşməsilə kapitan Şillinqanın başçılığı ilə qrenader alayı arxa qapıdan çıxaraq rəştlilərə hücum etməli idi. Həmdə eyni zamanda iki alay ön qapıdan çıxaraq həyacan siqnalı verməli idi. Rus qoşununun belə tədbiri baş tutur. Gözlənilmədən hər iki tərəfdən hücuma məruz qalan yerli əhali çaşqınlıq içərisində qaçmağa başlayır. Rusların hücumu yerli əhali üçün xeyli itgi ilə nəticələnir, belə ki, onların yarısı qaçarkən, yarısı isə karvansaranın qarşısında öldürülür. Rus əsgərləri müəyyən müddətdən sonra döyüş meydanını rəştlilərdən təmizləyir, qaçanları isə şəhərin küçələrinədək təqib edirlər. Beləliklə, bu toqquşma nəticəsində yerli əhalidən ölənlərin sayı 1000 nəfərdən çox idi (54,130-131).

Gecə əməliyyatı yerli əhali üçün acınacaqlı qurtarsa da, onlar yenidən hücumlar etmək istəyirdilər. Karvansarada yerləşən rus qoşununa edilən hücumun heç bir nəticə verməyəcəyini anlayan Rəşt əhalsi hücumu başqa istiqamətdə etmək qərarına gəlmişdi. Belə ki, onlar Ənzəli körfəzində yerləşən üç rus gəmisini məhv etmək fikrində idilər. F.İ.Soymonov yazır ki, bu zaman hər üç gəmidə cəmi 100 nəfər rus əsgəri saxlanmışdı. Hücum edənlərin sayı isə 5 000-ə çatırdı. Yerli əhali gecə vaxtı 4 çuqun topu sahildə yerləşdirirlər. Səhər tezdən onlar həmin toplardan rus gəmilərinə atəş açmağa başladılar. Kapitan-leytenant Zolotaryevin əmrinə əsasən, rus gəmiləri onlara atılan atəşlər

altında sahildə yerləşən toplara sarı üzürlər. Sahildə yerləşən toplardan atılan atəş nəticəsində rus əsgərlərindən ölənlər də olur. Rus gəmiləri rəştlilərin batareyasına yaxınlaşan kimi əsgərlər toplardan və kiçik çaplı tüfənglərdən onları cavab atəşinə tuturlar. Rus əsgərlərinin güclü cavab atəşi qısa vaxt ərzində hücum edənləri geri qaçmağa məcbur edir. Rus əsgərləri Ənzəli gölündən keçib qaçmaq istəyən bir neçə İran səndəlını (kiçik iran gəmisi) ələ keçirirlər. Uğursuzluğa düçar olan yerli əhali rus qoşununu bir müddət sakit buraxmalı olur (54,132).

Tezliklə, Rəşt şəhərində yerləşən rus qoşununa əlavə kömək gəlir. Ərzaq və digər lazımi avadanlıqlarla yüklənmiş üç evers gəmisi kapitan-leytenant Myatlevin başçılığı ilə Rəşt şəhərinə göndərilmişdi. Bundan başqa, briqadir Levaşevin başçılığı ilə dörd piyada batalyonu buraya yola salınmışdı (54,133). Briqadir Levaşevin başçılığı ilə köməyə gəlmiş hərbi qüvvə 24 top və 2 min əsgərdən ibarət idi. (39,129). Rəşt şəhərinə gələn briqadir Levaşev polkovnik Şipovun yerinə rus qoşununun baş komandanı təyin edilir (54,186). Lakin Rəşt şəhərində yerləşən rus qoşununun baş komandanı olan briqadir Levaşevi tezliklə general-leytenant M.A.Matyuşkini əvəz edir. F.İ.Soymonov yazır: «Bakı ekspedisiyasından sonra Həştərxana qayıdan general-leytenant M.A.Matyuşkin I Pyotrdan xüsusi fərman alır. Həmin fərmanda ona Kürün mənsəbində qala tikməyi, sonra oradan Gilana

gedib orduya komandanlığı qəbul etdiqilməsi göstərilirdi. Bu məqsədlə Kazan tatarlarından, çermislilərdən və çuvaşlardan ibarət 5.000 nəfərlik işçi ayrılmışdı. Onlar general-leytenant M.A.Matyuşkindən xeyli əvvəl Bakıya və Gilana göndərilmişdi (54,180).

İmperator I Pyotrun göstərişinə əməl edən general-leytenant M.A.Matyuşkin və kapitan-leytenant F.İ.Soymonov 1724-cü il noyabrın 10-da Həştərxandan çıxaraq həmin ayın 24-də Dərbənd şəhərində, dekabrın 3-də Abşeron körfəzində olurlar. Onlar dekabrın 22-də Ənzəli limanına, 24-də isə Rəşt şəhərinə gəlib çatırlar (54,182-186). General-leytenant M.A.Matyuşkin Rəşt şəhərinə gələn kimi burada yerləşən rus ordusunun komandanlığını öz üzərinə götürür. Rəşt şəhərindəki 6 piyada batalyonu, 500 nəfər draqun (süvari qoşun hissəsi), gürcü, erməni və don kazaklarından təşkil olunmuş alay I Pyotr tərəfindən təzəcə general-mayor rütbəsi almış Levaşevin komandanlığı altında idi. General-leytenant M.A.Matyuşkin özü ilə əlavə olaraq 300 nəfər əsgər də gətirmişdi (54,186-187).

General-leytenant M.A.Matyuşkin Rəşt şəhərinə daxil olan zaman buradakı rus qoşunu çətin vəziyyətdə idi. Ruslar Kəskər vəzirinin komandanlığı altında 20.000 nəfərlik yerli əhalinin hücumuna məruz qalmışdı. Rus qoşunu iki dəstəyə bölünməklə müqavimət göstərirdi. Onlardan biri karvansarada, digəri isə Qəzvin

yolu üzərində rus əsgərləri tərəfindən tikilmiş, «yeni qala» adlanan qalada mövqe tutmuşdular (54,187).

Səyahətnamədə göstərilir ki, general-leytenant M.A.Matyuşkin burada vəzifəyə başlayanda onun birinci işi yerli əhalinin rus qoşununa edilən hücumları qarşısını almaq üçün II Şah Təhmasibə məktub göndərməsi olmuşdu. Matyuşkin yazırdı: «Bu hərəkət hər iki saray tərəfindən bağlanmış müqaviləyə uyğun deyildir. Ruslar onlara güzəşt olunmuş əyalətlərə yiyələnməkdən başqa heç nə etməyiblər və iranlıları az da olsa incitməyiblər. (Yerli əhali) onlarla (rus qoşunu ilə) düşmən kimi rəftar edir, hər gün onlar qorxu içərisində yaşayırlar: xahiş edirəm ki, öz vəzirinə başqa fərman göndərəsiniz, əks təqdirdə məcbur olub silah gücü ilə hücum edənləri qovacayıq, bu da əlbəttə, şaha xeyir gətirməz, Şah İsmayıl bəylə bağlanmış müqaviləni təsdiqləsə və rus qoşunlarını burada saxlasa, onu (şahı) düşmənlərdən qoruyacağına söz verirəm» (54,195-196). Lakin məktub cavabsız qalır. Çünki bu dövrdə II şah Təhmasibin vəziyyəti çətin idi və öz nazirlərindən asılı idi. F.İ.Soymonov qeyd edir ki, «Şah Təhmasib zəif iradəli olduğuna görə öz nazirlərindən çox asılı idi. Onlar Rusiya himayəsində yaşayan İsmayıl bəyi isə vətən xaini hesab edirdilər» (54,196).

1725-ci ilin əvvəllərində rəştlilərin rus qoşununa hücumları daha da artmışdı. Bu dəfəki

hücumdan bir gün qabaq erməni və iran tacirləri xəbər gətirmişdilər ki, səhərisi günü rus qoşununa qarşı güclü hücum gözlənilir. Lakin onların hücumun hansı istiqamətdə olacağı barədə məlumatları yox idi. Bu xəbəri alan rus komandanlığı qoşunu hazırlıq vəziyyətinə gətirmişdi. Hər tərəfə qoşun göndərmək mümkün olmadığından, düşmən görünən zaman həyacan siqnalı vermək üçün müxtəlif yerlərdə xüsusi keşikçi dəstələri qoyumuşdu. F.İ.Soymonov yazırdı, «hücumun iki qaladan birinə olacağı gözlənilirdi. Lakin yeni qalaya düşmənin hücumuna daha çox ehtimal olunurdu. Burada məcburiyyət üzündən canlarını qurtarmaq üçün dağ yolu (yerli əhalinin) təhlükəsizliyinə cavab vermirdi. Ona görə də, onlar Fuz və Səfidrud çayları arasındakı yolla gəlmişdilər. Rəşt əhalisi müxtəlif dəstələrlə gələrək karvansaranın qarşısındakı çəmənlikdə birləşdilər. Əhəmiyyətli mövqelərdə lazımi qədər əsgər qoyulduqdan sonra qalan rus qoşunu buraya cəmləşdirilmişdi» (54,197).

Birinci hərəkətə gələn rəştlilərin süvari dəstəsi rus qoşununa yaxınlaşmadan böyük sürət və hay-küy ilə çəmənliyə yığışırlar. Onların ardınca yerli əhalinin piyada qoşunu dağ yolu ilə meşə arasındakı açıq yerdə atlı dəstəsinin yanında qərar tuturlar. Lakin hücum edənlər yaxına gəlməyə cürət etmirlər. F.İ.Soymonov qeyd edir ki, onlar elə məsafədə dayanmışdılar ki, nəinki bir güllə, hətta üç güllə belə hədəfə gedib çata bilməzdi. Elə ki, rus əsgərləri kiçik

mortirlərdən süvarilərə atəş açdı, o saat onlar ətrafa dağılışmağa başladılar. Sonradan onların hamısı geri əvvəlki yerlərinə qayıdaraq qəhrəmanlığını göstərməyə davam etdilər. Rus əsgərləri bir neçə saat yerli əhalinin hücuma keçəcəyini gözlədilər. Lakin heç nə baş vermədi, nəhayət, onların qeyri-nizami atəşlərindən təngə gələn general onları döyüş meydanından qovmaq üçün bir batalyon piyada qoşununa hücuma keçməyini, üç rota draquna isə kömək üçün onların ardınca getməsini əmr etdi. Bu hərbi hissələr hücuma keçməmişdən əvvəl o (general), rəştlilərin süvari dəstəsini səhra toplarından atəşə tutmaq göstərişini verir. Axırda onlar döyüş meydanından qaçdılar, ruslar isə hərəkət edərkən heç bir maneyəyə rast gəlmədilər» (54,197-198).

Qaçanları təqib edərkən rus qoşunu da itki vermişdi. Səyahətnamədə göstərilir ki, «çəmənliyin ortasında dərinliyi dizdən olan kiçik çay axırdı. Rus əsgərləri həmin çaya çatdıq- da rəştlilərin atdığı güllələr rus əsgərlərinə dəyirdi. Lakin, çayı keçdikdən sonra rusların itkisi azalır. Bir neçə alay sıraya düzülür. Elə bu zaman atlı dəstəsi hay-küylə hücuma keçir. Elə ki, rus qoşunu aramsız atəşə başladı, onlar ətrafa dağıldılar. Bunları görən piyada qoşun hissələri qaçmağa başladı. Rus draqun dəstəsi beş verstə qədər onları (yerli əhalini) təqib etdi. Bu döyüş zamanı yerli əhalidən xeyli ölən və yaralanan oldu» (54,198-199).

Rəşt əhalisinin hücumları üç gün müddətində davam etmişdi. Sonra isə bir həftə sakitlik yaranmışdı. Düzənlikdən axan kiçik çay döyüşən tərəflər arasında sərhəddə çevrilmişdi və onların heç biri sərhəddi keçməyə cürət etmirdi. Sərhəddi keçən isə cəzalandırılırdı. Belə ki, bir dəfə yerli əhali rus əsgərləri tərəfində vuruşan gürcü rotmistrini sərhəddi keçərkən tutaraq qulağını kəsib, üzünün bübüt dərisini soymuşdular. (54,199-200).

1725-ci ilin mart ayına qədər Rəşt əhalisinin rus qoşununa qarşı düşmənçilik hərəkətləri haqqında məlumat yoxdur. Lakin bəzən Peribazarda yerləşən rus gəmilərini hücumları ilə onları narahat edirdilər (54,54,201).

Tərəflər arasında yaranmış sakitçilik çox davam etməmişdi. Astaradan yeni təyin olunmuş Vəzir əlavə qoşun ilə Rəşt şəhərinə gəlir. O, özündən əvvəlki Vəzirin rus qoşununa qarşı apardığı döyüş qaydasından narazı olduğunu bildirmişdi. Yeni Vəzir özündən qabaqkı Vəziri tənqid edərək deyirdi: «o, əvvəlki Vəzirdən də cəsarətli hərəkət edəcəkdir». Yeni Vəzir Rəşt şəhərinə gələn kimi rus qoşununa qarşı ciddi hücuma hazırlaşmağa başladı. O, ilk növbədə düzənlikdəki çayın saşilində düşərgə salmaqla rus qoşununa hücum etmək üçün çayın o tayına keçmək niyyətində idi. Ruslar hücum edənlərə qarşı üç batalyon piyada və bir neçə süvari çıxarır. Nəticədə yerli əhali ilə rus əsgərləri arasında qanlı döyüş baş verir. Döyüşdə Vəzirin

qoşunu böyük itki verir, sağ qalanlar isə döyüş meydanını qoyaraq qaçmağa vaşladılar. Qaçanların bəzisi çayı keçən zaman suda boğulur. Döyüşdə rus qoşunundan da xeyli ölən vardı (54,201).

Rus qoşunu qaçanları təqib edərkən ətraf kəndlərə qədər gedib çıxmışdılar. F.İ.Soymonvoun məlumatına görə, «rus zabitinin başçılıq etdiyi hərbi hissə əhalini itaətə çağırmaq üçün yaxınlıqdakı kəndə göndərilir. Həmin hissə dar cığır ilə gedərkən gözlənilmədən yerli əhali onlara hücum edir. Rus əsgərləri çevik tərpənərək özləri ilə gətirdikləri kiçik toplardan hücum edən yerli əhalini atəşə tutdular. Atəş öz işini görür və hücum edənlər geriyə qaçırlar. Bu hadisə mühasirəyə düşmüş digər rus qoşununu da xilas edir. Mühasirəyə alınmış digər hərbi hissə köməyə gələn əsgərlər ilə birləşərək öz mövqeylərinə qayıdırlar. Bu əməliyyatda rus əsgərləri stikyunker Lvovdan başqa heç bir itkiyə məruz qalmır. Stikyunker Lvov isə sinəsindən almış güllə yarasından vəfat edir. Beləliklə, general-leytenant M.A.Matyuşkin Rəşt şəhərində olarkən yerli əhalinin hücumu belə dəf edilir (54,202).

Rus qoşunu Gilana qədər Xəzərsahili əraziləri işğal etdikdən sonra I Pyotr bu işğalı rəsmləşdirmək üçün bəhanə axtarırdı. İsmayıl bəyin səfirliyi Saknt-Peterburq sarayı üçün əlverişli fürsət idi. Ruslar tərəfindən Rəşt şəhərində aldadılaraq dəniz vasitəsilə Rusiyaya göndərilən

İsmayıl bəy 1723-cü il 10 avqustda Saknt-Peterburqa gəlib çatmışdı. Səyahətnamədə göstərilir ki, İsmayıl bəy avqustun 14-də I Pyotrun qəbulunda olmuş və uzun sürən danışıqlardan sonra 1723-cü il sentyabrın 12-də şahın səlahiyyətli səfiri kimi İsmayıl bəy Rusiya dövləti ilə müqavilə bağlayır. «Peterburq müqaviləsi» adlanan bu mıüqaviləyə görə, Dağıstan, Şirvan, Gilan və Mazandaran da daxil olmaqla Astarabada qədər ərazi Rusiya dövlətinə güzəşt edilirdi (54,133-134;60,185-189;20,215-218).

V.P.Lıstsovun yazdığına görə, «Peterburq müqaviləsi»ni təsdiq etmək üçün 1724-cü il mayın 1-də Ərdəbildə iqamətgahı olan II Şah Təhmasibin yanına rus konsulu Semyon Avramov və knyaz Boris Meşerski göndərilmişdi. Şahın qəbulunda olan rus nümayəndə heyyəti İsmayıl bəy tərəfindən imzalanmış müqaviləni şahın təsdiq etməsini təklif etmişdilər. Lakin şahın nazirləri onlara İsmayıl bəyin dostluq münasibətləri yaratmaq üçün göndərildiyini, kömək üçün Rusiya dövlətinə müraciət etməyin onun səlahiyyətində olmadığı haqqında məlumat verirlər. Heç bir şeyə nail olmayan Semyon Avramov və Boris Meşerski əli boş geri qayıdırlar. Lakin şahın nazirləri onları sağ buraxmaq istəmirdilər və onların ardınca əsgər göndərmişdilər (39,189). Qeyd olunan hadisə F.İ.Soymonov səyahətnaməsində ətraflı təsvir edilir: « Bu vaxt rus konsulu Ərdəbildə şahın yanında olarkən çətin bir vəziyyətə düşmüşdü, şahın bir

neçə xidmətçisi onu qarət etmək istəmişdi. O, qaçaraq qapını içəridən bağlasa da, onlar qapını sındırırlar. (Konsul) məcbur olub onlara atəş açmış, (onlardan) bir neçəsini öldürmüşdü. Konsul onların qisas alacağından bərk qorxuya düşmüşdü. Lakin sarayın bu işə qarışması onu müdafiə etmişdi. O, bir böyük şüşə şərabla şah nazirlərilə nəinki barışmış və eyni zamanda onlarla dost olmuşdu» (54,196).

Vətən xaini adlandırılan Səfəvi səfiri İsmayıl bəy qorxusundan bir daha vətənə qayıda bilməmişdi. Rəşt şəhərində rus qoşununun himayəsi altında olan səfir İsmayıl bəy geri Həştərxana qayıdıb, 20 ildən çox burada yaşamışdı (54,200).

Səyahətnamədən görünür ki, Gilan əyalətini və onun mərkəzi Rəşt şəhərini işğal etmək I Pyotrun planında əsas yerlərdən birini tuturdu. Gilan əyaləti Səfəvi imperiyasının iqtisadi cəhətdən inkişaf etmiş əyalətlərindən biri idi. Şah hökuməti buradan küllü miqdarda gəlir əldə edirdi. Lakin ümümi böhran zamanı və rus qoşununun hücumu Gilan əyalətini ağır vəziyyətə saldı. Rus qoşununun hücumu zamanı beynəlxalq ticarət şəhəri olan Rəşt şəhəri döyüş meydanına çevrildi. Müxtəlif ölkələrdən ticarət məqsədilə gələn iş adamlarının Rəşt şəhərinə gəlməsinin ardı kəsildi. Tacirlərin çoxu müharibə meydanına çevrilən Rəşt şəhənini tərk etdi. Bu da şəhərin iqtisadiyyatını acınacaqlı vəziyyətə saldı.

## 2.2. İqtisadi vəziyyət

F.İ.Soymonovun səyahətnaməsində Azərbaycanın iqtisadi vəziyyətindən də bəhs edilir. Səyahətnamədə Azərbaycanın Xəzərsahili əyalətlərinin siyasi vəziyyətinə nisbətən iqtisadi vəziyyəti haqqında az məlumat olmasına baxmayaraq, həmin məlumatların araşdırılması mühüm əhəmiyyətə malikdir.

Səyahətnamədə əsasən, Dərbənd, Bakı şəhərlərinin, Niyazabad limanının iqtisadi vəziyyətindən bəhs edilmiş və eyni zamanda həmin şəhərlərin coğrafi mövqeyi təsvir edilmişdir.

XVIII əsrin əvvələlərində Səfəvilər imperiyasının dərin iqtisadi və siyasi böhran keçirməsi, daxildə baş vermiş üsyanlar, imperiyanın mövcudluğunu saxlamaq uğrunda gedən müharibələr bu dövlətin tərkibində olmuş Azərbaycanın umumən durumuna mənfi təsir göstərməyə bilməzdi. Lakin imperiyanın dərin böhran dövrünü yaşamasına baxmayaraq səyahətnamədən göründüyü kimi, XVIII əsrin birinci rübündə Azərbaycanın iqtisadi həyatında, ticarətində müəyyən canlanma nəzərə çarpırdı.

Məlumdur ki, Azərbaycan şəhərləri ticarət və sənətkarlıq mərkəzi kimi əsrlər boyu böyük şöhrət qazanmışdı. Belə şəhərlərdən biri Dərbənddir. Dərbənd şəhəri Xəzər dənizinin sahilində yerləşdiyi üçün, F.İ.Soymonov öz səyahətnaməsində bu şəhərin coğrafi mövqeyini belə təsvir edirdi: «Dərbənd dəniz kənarında yerlə-

şən bir şəhərdir. Şəhər üç hissəyə – aşağı, yuxarı və orta hissələrə bölünürdü. Şəhərin yaxınlığında çoxlu kəndlər görünür və hər iki tərəfində uzaqdan sanki qoşuna oxşayan ağ daşlardan qəbirlər vardır» (54,36).

Səyyahın Dərbənd şəhərinin coğrafi mövqeyi haqqında söylədiyi bu fikri təxminən eyni vaxtlarda həmin şəhərdə olan İ.Gerber də təsdiq edirdi. O, Dərbənd şəhərini dörd hissəyə – yuxarı, iki orta, dəniz kənarı hissələrə bölürdü. Onun yazdığına görə «şəhərin yuxarı hissəsində rus əsgərləri yerləşirdi. Şəhərin hər iki orta hissəsində şəhər naibi və yerli əhali yaşayırdı. Burada çoxlu məscid və tacirlərin yaşadığı karvansara var idi. Dördüncü dəniz kənarı hissədə heç kim yaşamırdı. Qədim dövrlərdə burada yunanlar və xristianlar yaşamışdır və onlar buradan qovulmuşlar, tikililəri isə sökülmüşdür» (23,86). Dərbənd şəhəri dəniz kənarında yerləşsə də onun limanı gəmilərin lövbər salması üçün əlverişsiz idi. Sualtı daşlar, qayalar burada gəmilərin sahilə yan almasına maneçilik törədirdi (23,85).

XVIII əsrin əvvəllərində Dərbənd şəhərini Səfəvi şahlarının təyin etdiyi sultan idarə edirdi. Sultanın 600 nəfər süvarisi və 1000 nəfər piyada qoşunu vardı (23,85). Lakin Dərbənd əhalisinin hamısı hərbi işi yaxşı bilirdi və lazım gəldikdə 5000-ə qədər döyüşçü toplanırdı (38,30). Hacı Davudun başçılığı ilə baş vermiş üsyan zamanı sultan şəhəri tərk edərək mərkəzə qaçmışdı və

onun yerinə yerli xalq naib İmanqulu bəyi şəhər hakimi təyin etmişdi (54,88).

Dərəbənd və onun ətraf kəndləri iqtisadi cəhətdən inkişaf etmiş bölgələrdən hesab olunurdu. Dərbəndin iqtisadi həyatında kənd təsərrüfatı əsas rol oynayırdı. Burada bol buğda, apra və çəltik becərilirdi. Əkilən bu məhsullar tamamilə əhalinin tələbatını ödəyirdi (54,37).

Dərbənd şəhəri xüsusi ilə, özünün zəfəran bitkisi ilə daha məşhur idi. Şəhər və onun ətraf kəndlərində yetişdirilən zəfəran nəinki yerli əhalini təmin edirdi, habelə Rusiya və qonşu ölkələrə ixrac olunurdu. F.İ.Soymonovun yazdığına görə, Dərbənd şəhəri rus qoşunu tərəfindən tutulduqdan sonra imperator I Pyotr yerli zəfəranla maraqlanmışdır. Onun əmrinə əsasən, M.A.Matyuşkinin göstərişilə polkovnik Yunker burada yığılmış bir neçə yeşik zəfəranı Sankt-Peterburqa göndərmişdi (54,183). Daha sonra səyyah «1723-cü ildə Dərbənddə 420 funt zəfəran yığıldığını» qeyd edirdi (54,352). Zəfərandan həm mətbəxtdə, həm də məişətdə qiymətli bitki kimi istifadə edilirdi. Belə ki, müxtəlif xörəklərin hazırlanmasında, həmçinin parçaların və xalçaların rənglənməsində bu bitkinin əvəzi yox idi (26,25).

Səyahətnamədən məlum olur ki, Dərbənd şəhəri və onun ətraf kəndələri müxtəlif meyvə bağları ilə də məşhur idi. Bağlar alma, armud, gavalı, üzüm, əncir və digər meyvələrlə dolu idi (54,36-37). Digər mənbədə «şəhərin hər iki tə-

rəfində, dəniz boyunca uzanan bağların sayı 1500-ə çatdığı və (bu bağların) 18 kv.verst (1,06 km-ə bərabər) sahəni tutduğu» göstərilirdi (32,525). Dərbənd üzümü şirəliyinə və dadına görə daha məşhur idi. Bu üzümdən yüksək keyfiyyətli şərab hazırlanırdı. Mənbələrdə Azərbaycan şərabının Avropa şərabı ilə müqayisəsinə dair maraqlı faktlara rast gəlmək olur. XVIII əsrin əvvələlərində Azərbaycanda olmuş fransız missionerləri Dərbənd üzümündən əla keyfiyyətli şərab hazırlanmasını ağızdolusu tərifləyərək yazırdılar: «Avropadakı kimi üzüm yetişdirən üzümçülər bol üzüm yığırlar. Əgər yığım zamanı ona bir qədər su qarışdırmasalar, üzümdən tünd şərab əldə etmək olar. Qara üzüm iki növdədir: biri çox balacadır, digəri isə iridir, ağ üzüm isə tumsüzdur» (22,19).

F.İ.Soymonovun səyahətnaməsində də Dərbənd üzümü haqqında maraqlı məlumat vardır. Yerli əhalinin üzümdən şəhab istehsal etməsindən bəhs edən səyyah qeyd edir ki, «yerli əhali yüksək təzyiq altında üzümü əzərək ona su əlavə edib çubuqla qarışdırırdılar. Ona görə də, o (şərab) tünd dada malik olmur». Dərbənd şəhəri rus qoşunları tərəfindən işğal edildikdən sonra İmperator I Pyotr yerli üzüm növləri ilə maraqlanmışdı. O, hətta Dərbənd üzümündən keyfiyyətli şərab istehsal etmək məqsədilə bu işdə xüsusi səriştəsi olan macar ustalarını dəvət etmişdi. Burada işə başlayan macar ustaları «Dərbənd yaxınlığında torpaq şoran olduğuna

görə, üzümün duzlu, ondan hazırlanan şərabın macar şərabı ilə müqayisə etmək mümkün olmadığını» deyirdilər (54,183-184). Lakin çox sonralar Dərbənd şəhərində olan səyyah İ. Lerx bura üzümündən hazırlanan şərab haqqında yazdıqları F.İ.Soymonovun yuxarıda göstərdiyi məlumatından tam fərqlənirdi. Dərbənd üzmündən keyfiyyətli şərab hazırlandığının şahidi olmuş İ.Lerx yazırdı: «Şərab Burqund və Şampan şərablarını xatırladır. Hətta onlardan da tünddür, onu yandırdıqda spirt kimi alovlanır» (37,8). Bir mənbədə Dərbənd şəhərində istehsal olunan spirtli içkilər haqqında da məlumat verilir. Orada qeyd edilir ki, hər il burada yaşayan xristianlar 45 min vedrə çaxır, 4 min vedrə araq, müsəlmanlar isə 5 min vedrə çaxır istehsal edirdilər. Bundan əlavə yerli əhali üzümdən sirkə və doşab da istehsal edirdi. Hər il istehsal olunan 6 min pud doşabın 5min pudu dağ kəndlərinə satılırdı. Doşabın qiyməti 80 qəpikdən 1 rubla qədər idi (32,525).

F.İ.Soymonov səyahətnamədə Dərbənddən Niyazabada qədər olan Xəzərsahili Azərbaycan əraziləri ən mənzərəli və münbit torpağı olan yerlər kimi təsvir edilir. Bu ərazilər Müşkür, Şabran, Rustav və Beşbarmaqdır (23,87-93). Buranı səyyah belə təsvir edir: «dağlarla dəniz arasında çoxlu çayları , meşələri və əhalisi olan kəndlər geniş düzənliklərdə yerləşir. Burada çoxlu mal-qara tövlələri, əkin sahələri və gözəl meyvə bağlar var. Bu əraziləri bütün Xəzər də-

nizi sahillərinin ən gözəl yerləri hesab etmək olar» (54,38-39). Dərbənd sultanı həmin ərazilərdən çoxlu gəlir əldə edirdi (23,86).

Bakı Xəzər dənizi sahilində yerləşən ən əlverişli liman şəhəri olmaqla şərq ölkələrinə gedən ticarət yolu üzərində yerləşirdi. Səyahətnamədə Bakı şəhəri və onun iqtisadi vəziyyəti haqqında ətraflı məlumat verilir. Səyahətnamədə yazırlır: «Bakı körfəzi gəmilərin lövbər salması üçün çox əlverişlidir. Bakı şəhəri ağ daşdan tikilən üçqat divarlarla əhatə olunmuşdur. Qabaq divarın hündürlüyü bir sajen (3 arşın və ya 2,134 metrə bərabər), orta divarın hündürlüyü iki sajen, içəri divarın hündüolüyü isə üç sajendir. Şəhərdə mövcud olan məscidlərdən başqa, məşhur Şah Abbas tərəfindən tikilmiş evi xüsusi qeyd etmək lazımdır» (54,42).

Bakı şəhərinin iqtisadi həyatında neft hasilatı əsas yeri tuturdu (3,34-36;14,224-232). Nadir yanacaq növü olan nefti əldə etmək üçün müxtəlif ölkələrin bu əraziyə can atmasına səbəb olmuşdu. Bakı nefti haqqında XVIII əsrin əvvəllərində burada olmuş C.Bel, İ.Gerber. Fransiz missionerləri, İ Lerx, C.Kuk kimi səyyahlar ətraflı məlumat vermişlər. F.İ. Soymonovun səyyahətnaməsində də neftin hasilatı və ondan istifadə edilməsi haqqında qiymətli məlumatlara rast gəlmək olur. F.İ.Soymonov yazır:«Bakı şəhərindən 12 verst aralıda neft quyuları yerləşir» (54,169). XVIII əsrin birinci yarısında Azərbaycanda olmuş səyyah İ.Lerx

bu fikri təsdiq edərək, neft quyularının sayını göstərərək yazırdı: «İran (Səfəvi) şahı dövründə neft quyularının sayı 52 idi və ona görə də bu məhsulla böyük ticarət aparılırdı, indiki dövrdə (rus işğalı dövründə) isə quyuların yalnız 26-sı istifadə edilirdi» (3731).

Səyyahların əsərlərində Bakı ərazisində ağ və qara neftin çıxarıldığının şahidi oluruq. Burada çıxarılan ağ neft daha yüksək qiymətləndirilirdi və baha qiymətə satılırdı. Fransız missionerləri neftdən bəhs edərək yazırdılar:«Neft bir növ yağdır, su ilə birlikdə çıxarılır. Sonra onu ayırıb kanallar vasitəsilə axıdırlar. O (neft) qara və ağ olur. Ağ neft yüksək qiymətləndirilir, daha yaxşı satılır və ixrac edilirdi. Qara neftdən isə yerlərdə istifadə olunur, əhali ona israfçılıqla yanaşır, onu baş barmağı qalınlığında olan fitildə-lampalarda yandırırdılar» (22,17). F.İ.Soymonov Bakıda olarkən 4 futdan 10 futa qədər (30,479 sm-ə bərabər rus və ingilis uzunluq ölçü vahidi) dərinliydə olan bir neçə neft quyusuna rast gəlmişdi (54,170). Səyyah İ.Lerx isə Bakı şəhəri rus işğalı altında olduğu dövrdə burada beş ağ neft quyusu olduğunu və həmin quyuların 12 rus əsgəri tərəfindən mühafizə edildiyini yazırdı 37,28).

Səyahətnamədə həmçinin yerli əhalinin neftdən istifadə edilməsi barədə maraqlı faktlara rast gəlmək olar: «Bakı ətrafı düzənlikdə neftin qazından torpaq od tutub alovlanır. Yerli sakinlər evlərində torpağı 2 və ya 3 verşok (4,4 sm-ə

bərabər uzunluq vahidi) dərinliyndə qazaraq oraya gil boru yerləşdirir və oradan (borudan) qalxan qazı yandırırlar və nəticədə güclü alov əmələ gəlirdi. Onun üstünə qazan qoyaraq yemək bişirirlər» (54,170-171).

Neftdən müxtəlif məqsədlərlə – evi qızdırmaq, yemək hazırlamaq və evi işıqlandırmaq üçün istifadə edilirdi. F.İ.Soymonov yazırdı: «Bakı şəhəri Rusiya hakimiyyəti altında olduğu zaman zabit və əsgərlərin hər birinə istifadə etmək üçün odun əvəzinə müəyyən miqdarda neft verilirdi» (54,54,174). Səyyah İ.Lerx zabit və əsgərlərə odun əvəzinə verilən neftin miqdarını dəqiq göstərərək yazırdı: «Bakı rus qoşunları tərəfindən ələ keçirildikdən sonra hər bir əsgərə 7 batman, kapitana 50 batman, qərargəh zabitinə 100 batman, polkovnikə 130 batman işlətmək üçün odun əvəzinə neft verilirdi» (37,15).

Abşeron yarımadasından çıxarılan neft bir sıra ölkələrə ixrac edilirdi. Neft dəniz yolu ilə İrana, Orta Asiyaya, Dağıstana, Şimali Qafqaza, Hindistana, Osmanlı Türkiyəsinə, Rusiyaya və hətta Qərbi Avropaya aparılırdı (14,227). F.İ.Soymonov Xəzər dənizini tədqiq edərkən Bakı limanında neft aparmağa gələn çoxlu ticarət gəmisinin lövbər saldığının şahidi olmuşdu (54,43). Bakının ağ nefti ilə maraqlanan I Pyotr general-leytenant M.A.Matyuşkinə «Bakıdan bir neçə pud ağ nefti ya özün ilə gətirməyi, ya da göndərməyi» göstərişini vermişdi (35,603-604).

Səyahətnamədə neftin daşınma vasitələrin-

dən də bəhs olunur. F.İ.Soymonov 1726-cı ildə Qızılağac körfəzində olarkən yerli gəmiyə rast gəlmişdi. Yerli gəminin məhv olunmasını əmr edən F.İ.Soymonov gəmidə 1000-ə qədər neftlə doldurulmuş qoyun dərisindən düzəldilmiş tuluqlara rast gəldiyini yazırdı (54,232-233).- Səyyah tuluqların hazırlanması üsulundan bəhs edərək qeyd edirdi ki, «qoyunun qarnını doğramadan dərisini soyurdular, boynunu və ayaqlarını bağlayırdılar. Sonra dərinin üst hissəsinin yununu qırxırdılar və ora neft tökərək ağzını möhkəm bağlayırdılar» (54,232).

Ruslar buraya gəlməmişdən əvvəl də hər il neftdən küllü miqdarda gəlir əldə edilirdi. Səfəvilər dövründə neftdən əldə edilən gəlirin əhəmiyyətini anlayan I Şah Soltan Hüseyn (1694-1722) 1711-ci ildə Bakının neft və duz mədənlərinin xüsusi şəxslərə icarəyə verilməsi haqqında fərman vermişdi. Bunun nəticəsində şah sarayı neftdən çoxlu gəlir əldə edirdi (8,1077).

Bəzi səyahətnamələrdə Səfəvi şahı dövründə əldə edilən gəlirlərlə Rusiyanın bu əraziləri işğal etdikdən sonra əldə etdiyi gəlirlər müqayisəli şəkildə göstərilmişdi. Məsələn, fransız missionerlari şah dövründə neftdən əldə edilən gəlirin 12000 tümən, İ.Gerber isə 50000 rubl və ya 5000 tümən olduğu haqqında məlumat verirdilər (22,17;23,99). F.İ.Soymonova görə isə, rus qoşunu Bakı şəhərini işğal etdikdən sonra hər il neftdən əldə edilən gəlirin miqdarı 20000 rubla və ya 2000 tümənə bərabər idi (54,174).

Müqayisədən görünür ki, şah dövrünə nisbətən rus işğalı dövründə Bakı neftindən əldə olunan gəlir xeyli azalmışdı.

Niyazabad özünün ticarətilə məşhur olan bir yerdir. Burada orta əsrlərdən ticarət yarmarkası fəaliyyət göstərirdi. Rusiyadan və digər ərazilərdən gəlmiş ticarət gəmiləri burada lövbər salırdı. F.İ.Soymonovun səyahətnaməsində Niyazabad limanı haqqında maraqlı məlumata rast gəlmək olar. O, yazır ki, «Burada (Niyazabad limanında) ticarət əsasən xam ipəklə aparılırdı. Azərbaycanlı və erməni tacirləri xam ipəyi dəvə və at karvanlarında Şamaxıdan gətirirdilər» (54,38). Rus tacirləri xam ipəyi satın almaq üçün Niyazabad limanına gəlirdilər və eyni zamanda onlar satmaq üçün buraya mahud, kətan, yuft (yumşaq dəri növü) və müxtəlif xırdavat, iynə, oymaq və s. mallar gətirirdilər (54,38). Niyazabadda satış mallarını yığmaq üçün çoxlu anbar tikilmişdi (23,89). Niyazabad limanında qızğın ticərət aparılması ölkədə baş verən ümumi böhrandan əvvəlki dövrlərə aid idi. F.İ.Soymonov səyahətnaməsində təsvir etdiyi dövrdə Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi burada da ticarət xeyli zəifləmişdi. O yazır ki, «Hacı Davudun başçılığı ilə olmuş üsyandan qabaq burada azərbaycanlılar, ruslar, dağıstanlılar, gürcülər və ermənilər bir-biri ilə ticarət edirdilər. Lakin üsyançılar bütün yolları bağladığına və burada yerləşən anbarlar qarət edildiyinə görə Niya-

zabadda ticarət zəifləyir» (54,138;23,89).

Beləliklə, F.İ.Soymonovun səyahətnaməsinin XVIII əsrin əvvəlləri üçün Azərbaycanın iqtisadi vəziyyətinin öyrənilməsi baxımından dövrün mənbə səciyyəli əsərləri içərisində xüsusi çəkiyə malik olması səyahətnamədə toplanmış materialların və tarixi faktların mötəbərliyindən irəli gəlir. Azərbaycanın iqtisadi durumu haqqında dolğun məlumat verən bu əsərin tədqiqi əsərin dəyərini qiymətləndirməyə imkan verir və əsər son dərəcə əhəmiyyətli hesab edilməlidir.

# NƏTİCƏ

XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin ən mürəkkəb dövrlərindəndir. Bu zaman Azərbaycan dərin iqtisadi və siyasi böhran keçirən Səfəvi imperiyasının tərkibinə daxil idi. Həmin dövr üçün Azərbaycan tarixinin iqtisadi və siyasi vəziyyətinin öyrənilməsində F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahıtnaməsi xüsusi yer tutur.

Nəşr olunduğu vaxtdan indiyədək bu səyahətnaməyə tez-tez müraciət edilmişdir. F.İ.Soymonovun səyahətnaməsinin ilkin adı «Xəzər dənizinin təsviri və dənizçilik juranlının xülasəsi» adlanırdı. Rusiya Elmlər Akademiyasının üzvü, tarixçi doktor Q.F.Miller onun bu «jurnal»ını əsas götürərək «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adı altında 1763-cü ildə Sankt-Peterburqda çap etdirmişdir.

F.İ.Soymonov səyahətnaməsində Xəzər dənizinə ekspedisiyası zamanı səkkiz illik fəaliyyəti nəticəsində şahidi olduğu və eşitdiyi hadisələri qələmə almışdır. Q.F.Miller səyahətnaməni çapa hazırlayarkən bəzi hadisələri dəqiqləşdirmək məqsədilə bir sıra mənbələrdən - C.Belin «Rusiyadan keçməklə müxtəlif Asiya ölkələrinə: xüsusən İsfahana, Pekinə, Dərbən-

də Konstantinopola Belin səyahəti», Korneli de Brüinin «Moskvaya, İrana və Şərqi Hindistanın bir hissəsinə səyahət», İ.Gerberin «1728-ci ildə Xəzər dənizinin qərb tərəfindən - Həştərxan ilə Kür çayı arasındakı xalqlar və ərazilər və onların vəziyyəti haqqında məlumat», İ.Lerxin «İohan Lerxin səyahətnaməsindən çıxarış, 1733-1735-ci illər Moskvadan Həştərxana, oradan Xəzər dənizinin qərb sahillərində yerləşən ölkələrə davam edən səyahəti», Yenə onun «1746-1747-ci illərdə doktor və kolleksiyanın məsləhətçisi Lerxin İrana ikinci səyahəti», C.Hanveyin «İngiltərərədən Rusaya vasitəsilə İrana və Rusiya, Almaniya və Hollandiya Vasitəsilə geriyə səyahətinin jurnalı ilə birlikdə Xəzər dənizində Britaniya ticarətinin oçerki», I Şah Soltan Hüseynin (1694-1722) qvardiya zabiti Mahmud bəyin 1725-ci ildə alman zabiti tərəfindən Dərbənd şəhərində qələmə alınmış hekayəsindən, səfir İsmayıl bəyin 1724-cü ildə «Peterburq xəbərləri»ndə alman dilində çap olunmuş məlumatından, Xzər dənizinin ticarət tarixindən bəhs olunarkən A.Kontarinin «Şöhrətli Venesiya respublikasının məşhur İran şahı Uzun Həsən sarayının səfiri Ambroca Kontarininin səyahəti», A.Cenkinsonun «Gündəliyi», A.Olearinin «Moskvaya və Moskvadan keçməklə İrana, oradan da geriyə səyahətin təsviri», E.Kempferin «Yad ölkələrin gözəlliyi» və başqa səyahətnamələrdən istifadə etmişdur.

Səyahətnamənin təhlili göstərir ki, əsərdə Azərbaycanın iqtisadi vəziyyətinin öyrənilməsi, Xəzər dənizinin təsviri və I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşü əsasında verilmişdir. Xəzər dənizinin qərb sahillərini tədqiq edərən səyyah Azərbaycanın dəniz sahili əyalətləri ilə maraqlanmış və səyahətnaməsində Dərbənd, Bakı şəhərlərinin, Niyazabad kimi limanın iqtisadi vəziyyətini təsvir etmişdir. F.İ.Soymonovun səyahətnaməsinə əsasən, Xəzər dənizinin sahilində yerləşən şəhərlərin iqtisadi cəhətdən inkişaf etmiş şəhərlər olduğu qənaətinə gəlmək olar. Xüsusilə, Dərbənd və Bakı şəhərləri kənd təsərrüfatı, təbii sərvətləri və ticarətləri ilə daha məşhur idi. Səyahətnamədə həmin şəhərlərdə müxtəlif ölkələrdən ticarət məqsədilə gəlmiş iş adamlarına rast gəlindiyi göstərilir.

Səyahətnaməyə əsasən müəyyən etmək olar ki, I Pyotrun başçılığı ilə Xəzərsahili ərazilərə rus qoşunlarının yürüşünün məqsədi Xəzər dənizinin Azərbaycan əyalətləri də daxil olmaqla Astrabada, Mazandarana qədər qərb sahillərini işğal etmək idi. Əsərdə I Pyotr yürüşün əsil məqsədini gizlətməklə güya I Şah Soltan Hüseynə (1694-1722) kömək adı altında ölkədə baş vermiş üsyanları yatırmaq planı əsasında çıxış etdiyini inandırmağa çalışır və bu tarixi yürüş «İran yürüşü» adı altında təqdim edilir. Lakin səyahətnamədə yürüşdə əsas məqsədin böyük ticarət mərkəzi olan

Şamaxı şəhərini Hacı Davudun başçılığı altında fəaliyyət göstərən üsyançıdardan təmizləməkdən ibarət olduğu qeyd edilir. Eyni zamanda əsas hadisələr Xəzərsahili Azərbaycan əyalətlərində cərəyan edirdi.

Onu da qeyd etmək yerinə düşərdi ki, F.İ.Soymonov özünün «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsində hadisələri qələmə alarkən əsasən mənsub olduğu dövlətin - Rusiyanın mənafeyi baxımından çıxış etmişdir. Yürüşdə Rusiya dövlətinin əsl məqsədini gizlədərək bunu cənub sərhədlərinin təhlükəsizliyi və ticarəti qorumaqla bağlayırdı.

Səyyah səyahətnaməsində yerli əhalinin rus qoşunlarına müqavimətinə mənfi münasibətini bildirir. Əsərdə rus qoşununa müqavimət göstərən yerli əhali «düşmən» adlandırılırdı.

Bütün bunalar baxmayaraq, F.İ.Soymonovun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» adlı səyahətnaməsi XVIII əsrin birinci yarısında Azərbaycan tarixinin öyrənilməsi baxımından qiymətli mənbə hesab olunmalıdır.

## РЕЗЮМЕ

В монографии Ф.И.Соймонова «Описание Каспийского моря и чинимых на оном российских завоеваний, яко часть истории государя Императора Петра Великого» иследованы политическо-экономическое положение истории Азербайджана в первой четверти XVIII века.

Книга состоит из «Введения», двух глав, «Заключения», списка использованных источников и литературы и извлечения путевых заметок.

Во «Введении» обоснована актуальност научного исследования, рассматривается важность изучения политического и экономического положения Азербайджана в путевых заметок Ф.И.Соймонова.

В первой главе говорится о жизни и о его путевых заметок «Описание Каспийского моря чинимых на оном российских завоеваний, яко часть истории государя императора Петра Великого». Здесь приводится краткая автобиография путешественника, и его деятельность в западных берегах Каспия. Кроме того, приводится характеристика источниковедения путешественника.

Во второй главе в монографии путевых заметок Ф.И.Соймонова «Описание Каспийского моря и чинимых на оном российских

завоеваний, яко часть истории государя Императора Петра Великого» источником названных историй политическо – экономического положения Азербайджана в первой половине XVIII века состоит из двух частей

В первой  части говорится о походах Петра I во главе русских войск в Прикаспийские зоны, а также о причинах похода, и о его последствиях. Здесь основное внимание уделяется завоеванию городов Дербента, Баку, Сальяны и Ришты.

Во второй части ссылаясь на данные этого путешествия рассматривается  экономическое состояние Азербайджана.

В заключении обобщены выводы приводимые в ходе иследования.

В монографию Ф.И.Соймонова из путевых заметок было добавлено часть переводов экономического положения Азербайджана, в том числе и карта военных походов.

## SUMARY

## QARAYEV ELCHIN TEYMUR OGLU

F.I.Soymonov's travel book collid "Description of the Caspian sea and Russian invasions there, and a part of history of the Emperor Peter the Yreat" as a source on Azerbaijan history.

In the monograph callid "F.I.Soymonov's tpavel book "Description of the Caspian sea and Russian invasions there, and a part of history of the Emperor Peter the Great" is throun light upon the political and economic situation of Azerbaijan in the first guarter of the XVIII century.

The book consists of introduction, two chfpters, conclusion, list of sources and literature and extract from the travel book.

In the introduction the theme actuality has been graunded and spoken about the importance of F.I.Soymonov's trfvel book in studying the political and economik situation in Azerbaijan.

Chapter 1 is called "F.I.Soymonov's life and his travel book "Description of the Caspian sea and Russian invasions there, and a part of history of the Emperor Peter the Yreat". Here is spoken abaut the travellers brief biography and his activity in investigating the west coasts of the Caspian sea. Besides the features of author's

book as a source and the level of studying is shown there.

The second chapter called “F.I.Soymonov’s “Description of the Caspian sea and Russian invasions there, and a part of history of the Emperor Peter the Yreat as a source on political and economic history of Azerbaijan” consists of 2 parts. In the first part is spoken about the reasons, move and results of occupation marches of Russian troops led by Peter I on Pri-Caspian lands, including Azerbaijan. Here mainly, has been thravn light upon the invasions of Darband, Baki, Salyan and Rasht.

And in the part upon travel book the economic situation in Azerbaijan has been described.

In the conclusion theses and summaries appearing from the investigations are given.

Translations of extracts from F.I.Soymonov’s travel book relating the economik situation in Azerbaijan and maps reflecting the maches have been added to the monograph fs well.

# ƏLAVƏLƏR

F.İ.Soymonovun səyahətnaməsindən çıxarışlar:

**II fəsil.** 1719 və 1720-ci illərdə Xəzər dənizinin qərb sahillərinin təsviri. Dərbənd şəhərinin coğrafi və iqtisadi vəziyyəti haqqında .

Gəmidən baxanda dəniz tərəfdən Dərbənd şəhərinin yeri çox əlverişli idi. Ona görə də, şəhərin və onun yaxınlığında yerləşən əyalətlərin planını tərtib etmək üçün cənab Soymonovun əlinə bəhanə verdi. O,çox aydın təsəvvür etdi ki, Dərbənd şəhəri yuxarı,orta və aşağı olmaqla- üç hissəyə bölünüb. O həmçinin orada (Dərbənddə) qütbün hündürlüyünü $42^0$ $6^/$ koordinantda qeydə aldı, Oleari isə onu yalnız $41^0$ $50^/$ və Xristofor Burro u Qakluytada isə $41^0 52$ göstərilmişdi…. Oleari dövründə olduğu kimi, həmin vaxt şəhərin aşağı hissəsi boş idi. Burada bağlardan başqa heç nə yox idi. Şəhərin ətrafında çoxlu kəndlər və iki tərəfində uzaqdan qoşuna oxşayan böyük ağ daşlardan qəbirsanlıq görünürdü. Bağlar alma, armud, gavalı, ərik, əncir və digər meyvələrlə bol idi. Üzüm ağaclara sarmaşmışdı. Tarlada düyü, buğda, arpa və bol zəfəran əkirdilər. Dərbəndin arxasında keçilməz hündür dağlar görünürdü (36-37).

Niyazabad limanının təsviri.

Onlar Dərbənddən Niyazabad sahilinə getdilər, yaxud Niyazabadın o yerinə gəldilər ki, onların dayanması üçün əlverişli idi. Həştər-

xandan olan rus gəmiləri buraya adətən ticarət məqsədilə yan alırdı. Olearinin qeydinə əsasən 15′ aşağıda müəyyən edilmiş o (Niyazabad limanı), bizim dənizçilərin ölçüsünə görə $41^{0}30'$ yüksək koordinant altında yerləşirdi. Ümumi adı Niyazabad olan müxtəlif çaylar burada dənizə tökülürdü. Həmin vaxt burada iki rus, üç azərbaycanlı gəmisi var idi. Burada liman olmadığına görə gəmilər sahilə çıxarılırdı. Orada liman olmadığı üçün gəmilər sahildədirlər. Dənizin dibində torpaq yumuşaq olduğuna və (gəmilərə) xətər toxunmadığı üçün burada lövbər salınması ümumi adi haldır. Nə vaxt ki, yenidən açıq dənizə çıxmaq istədikdə, onda lövbərdən enmək daha əlverişlidir. Orada rus və azərbaycanlı tacirləri arasında fasiləsiz ticarət bazarı var idi. Yaxınlıqda heç bir yaşayış olmadığı üçün onlar bərbad çadırlarda yaşayırdılar. Əsas ticarət xam ipəkdən ibarət idi. Azərbaycanlılar və ermənilər Şamaxıdan buraya dəvə və atlarda xam ipək gətirirdilər. Orada Rusiya mallarından əsasən mahud, kətan, yuft (yumuşaq dəri növü) və müxtəlif xırdavat-iynə, oymaq, güzgü və s. mallar satılırdı. Yuftdan azərbaycanlıların savrı (çarıq?) adlandırdığı ayaqqabının arxası üçün istifadə edirdilər. Onlar özləri üçün palçıqlı gündə uzaq yerlərə gedərkən ondan uzunboğaz çəkmənin üstündən geyinən tufli düzəldirdilər, əgər onlar evə gələndə onu qapının ağzında çıxarırdılar. Adətən gürcülərin və menqerelilərin öz mal-

larını gətirdiyi əvvəlki dövrlərdə olduğu kimi, həmin vaxt Niyazabadda ticarət çox da böyük deyildi. Yazırdılar ki, ləzgi(dağıstanlı) üsyançıları və quldur Davud yolları zorla kəsmişdi (səh.37-38).

Dərbənddən cənubda olan ərazilərin təsviri.

Ümumiyətlə, dağlar Dərbənddən cənub istiqamətində keçməsinə baxmayaraq, o ölkə (əyalət) haqqında qeyd etmək lazımdır; lakin bəzi yerlərdə (dağlar) dəniz sahilinə toxunmadan 50 verst aralı keçir. Beləliklə, dağlarla dəniz arasında çoxlu çayları, meşələri və əhalisi olan düzənlik yerləşir. Burada yaxşı mal-qara tövlələri, əkin yerləri və bol meyvələri olan bağlar vardı. Bu əyaləti Xəzər dənizi sahillərində ən gözəl yer hesab etmək olar. Bura Niyazabad limanı, Beş-Barmaq dağ silsiləsinin ətrafları, Niyazabad limanından cənubda yerləşən ərazilər məxsus idi (səh.38-39).

Bakı şəhərinin coğrafi vəziyyəti və iqtisadi həyatı haqqında.

Abşeron burnu $40^{0}23^{/}$ koordinantda yerləşir və qarşısında qədimdən «şah» adlanan tanınmış yer var. Onlar həmin yerdən keçərək Bakı şəhərinə gəldilər. O şəhər yarımdairə halında qurunun içərisinə girmiş körfəzdə yerləşirdi. Bütün körfəz gəmilərin dayanması üçün əlverişli idi və hər yerdə lövbər atmaq üçün yaxşı suxuru vardı. Onun qarşısında duran Revel adasına oxşayan Nargin və Vulf adlanan

iki ada yerləşirdi. Bakı ağ daşdan üç sıra divarla əhatə olunmuşdu. Çöl divarın hündürlüyü bir, orta divarın hündürlüyü iki, içəri divarınkı isə üç sajen (3 arşına və ya 2,134 metrə bərabər uzunluq ölçüsü) idi. Şəhərdə müxtəlif məsciddən başqa məşhur I Şah Abbas zamanında tikilmiş böyük daş ev nəzərə çarpırdı. Lakin o, boş idi. Onlar şəhərin qarşısında İranın (və yaxud Azərbaycanın) digər limanlarına neft aparmaq üçün gəlmiş çoxlu ticarət gəmiləri gördülər. Bu torpaq ticarətə böyük gəlir gətirən nefitdən ibarət idi (səh. 42-43).

Kür çayının mənsəbi, Qızılağac körfəzi və Astara haqqında.

Həmin heyyət və üç şnavı götürərək onlar 1720-ci ilin yayında ikinci səyahətə yola düşürlər. Onlar mayın axırlarında Həştarxandan hərəkət edərək düz Kür çayının mənsəbinə gedirlər. Lakin Kür çayının əvvəlki tanınmış mənsəbindən başqa, dənizə tökülən digər dörd qolu vardı, onlardan ikisi birinci qola paralel axır və şərqə tökülür. Digər iki qolu isə başqalarından ayrılaraq cənuba axır. Aşağıda sahilin vəziyyəti şərqdən qərbədir, həmin körfəzdə iki qol bütün sahil boyu durmuşdu və körfəz kimi açıq deyildi. Axırıncı, yaxud cənubdan qərbə olan (qol) hamısından böyük qoldur. Bir qədər aralıda yerləşən, Kür çayının adı ilə adlanan ada $39^0$ $3^1$ yüksək qütbdə yerləşirdi.

Onlar Kür çayı körfəzində olarkən sahildən çox da uzaq olmayan şimaldan cənuba uzanan

Qızılağac adasını tapdılar, onun arxasında Qızılağac adlanan körfəz var idi. Burada dənizə bir-birindən çox da aralı olmayan üç- Doşit(?), Lənkəran, Astara çayları tökülür. Onlar (səyyahlar) xəritədə $38^{0}30^{/}$ koordinantda qeyd edilən Astara çayının körfəzində sahilə çıxdılar və onda yerli bəy və yaxud rəis onları görərək dostcasına salamlayaraq qonaq dəvət etdi. Karl fon Verden, knyaz Urusov,Soymonov üç qardemarinlə birlikdə ona qonaq getdilər. Bəy onları sahildə yerləşən, dörd dirəkdən və qamışla örtülmüş çadıra dəvət etdi. Zabitlər onunla əyləşəndə o(bəy) qardemarinləri göstərərək soruşdu: O biri üç nəfər kimdi?. Ona dedilər ki, onlar gənc zadəgan dənizçilərdi. Onda bəy xahiş edir ki, onlar da əyləşsin. O bizimkiləri kənddən gətirilmiş yerli yemək və içkilərə dəvət etdi. İçki qatı üzüm şirəsindən hazırlanmış doşabdan ibarət idi. O şirə duru bal kimi qatı idi. Onu içəndə su ilə qarışdırırdılar. Sonra dəmir qolbaqlar asılmış əla qabalın olduğu musiqiçilər çalmağa və oxumağa başladı. Bəy dedi ki, o adlı-sanlı İran şahı Ənuşirəvanın dövründə düzəldilmişdi. Sonra o davam edərək dedi ki, belə tərifə sizin də İmperator layiqdir, ona görə ki, mən Hələbdə və Suriyada olarkən onun böyük işləri haqqında digər yerlilərimə nisbətən çox eşitmişəm. Sonra o, onların səfərinin səbəbini soruşur: ona belə cavab verdilər: nə edirlərsə rus ticarət gəmilərinin təhlükəsiz gedib gəlməsi səbəbinə edirlər. Baxmayaraq ki,

o (bəy) onları sözlərlə tərifləyirdi, lakin əslində görünür ki, yalnız ticarət gəmiləri üçün edilməsinin əksini düşünürdü. «Bütün toxumlar» o dedi: vaxtında bəhrə verir». Nəyə görə belə deyir, izahat vermək üçün soruşduqda o ancaq gülümsədi və söhbəti başqa səmtə yönəltdi. Ticarətin müzakirəsini arxayın etmək üçün o belə cavab verdi: ticarət məqsədi ilə gəlmiş tanış dostlarını görməkdənsə onları görmək daha xoşdur. Ondan artıq heç nə öyrənə bilmədik. Zabitlər qonaqlıq üçün ona təşəkkürlərini bildirərək onlarla gəmiyə minməyi xahiş etdilər. Lakin o boyun qaçıraraq cavab verdi ki, suda olanda həmişə onun başı ağrıyır. Onlar o yerdən gedəndə hörmət əlaməti olaraq yeddi top atəşi ilə onu (bəyi) salamladılar (48-50).

**III fəsil.** 1722-ci ildə Böyük Pyoturun Xəzərsahili İran əyalətlərinə yürüşü.

1722-ci il iyunun-15-də yazılmış «Manifest»in məzmunu:

«Rus tayfalarının İmperatoru, Şimal ölkələrinin torpaqlarının, səhərlərinin, axşamlarının və günortalarının sahibi,dənizlərinin padşahı, bir çox yerlərin və vilayətlərin hakimi və s.

Şövkətli, əzəmətli, xoşbəxt və vüqarlı, köhnə istəkli, yüksək məqamlı dostumuz Şah Həzrətlərinin xidmətində olan izzətli və hörmətli Süpəhsalarlara, Xanlara, Qorçibaşılara, Topçubaşçılara, ordu başçısı Bəylərbəylərə, Sultanlara, Vəzirlərə və başqa zabitlərə, sıravi əsgərlərə, min və yüzbaşılara, həmçinin hörmətli

alimlərə, imamlara, müəzzinlərə və digər dini şəxslərə: kəndxudalara, tacirlərə, ticarət adamlarına, sənətkarlara və hər hansı millətə və qanuna tabe olmasından asılı olmayaraq bütün təbbələrə, mənim xahişimi yetişəcək hörmətlilərə məlum olsun ki,

Bizim İmperatordan aldığımız, Allahımız İsa Məsih Həzrətlərinin anadan olduğu ilin 1712-ci ilində (hicri ilinin 1124)-cü ilində, şövkətli, əzəmətli və xoşbəxt dəyərli ulu dostumuz, qonşu dövlət və torpaqların sahibi, qonşumuz Şah Həzrətlərinin ixtiyarında olan ləzgi vilayətinin əmiri Davud bəy və Qızıkumık əyalətinin əmiri Surxay həmin ərazilərdən müxtəlif xalqlardan fitnəkar və qiyamçı dəstə toplayaraq şah Həzrətlərinə qarşı üsyan qaldırmışlar, həmçinin Şirvan əyalətində yerləşən Şamaxı şəhərini hücumla tutmuşlar, onlar nəinki, Şah Həzrətlərinin çoxlu təbbələrini qətlə yetirmişlər, həm də buraya ticarət məqsədilə gəlmiş rus tacirlərini qəddarcasına qətlə yetirmişlər, onların 400000 rubl həcmində mallarını talan etmişlər. Beləliklə, müqaviləyə zidd olaraq Bizim dövlətin ümumi asayişinə ziyan yetirmişlər.

İmperator Həzrətlərinin əmrinə əsasən Həştərxan qubernatoru üsyançıların başçılarından əvəz verilməsini tələb etməsinə və I Pyotrun öz tərəfindən şahın yanına elçi göndərməsinə baxmayaraq əvəz alınmamışdır. Şah Həzrətləri qiyamçıları cəzalandırmağı arzu etsə də, kifayət qədər güclü olmadığından bu işi yubandırır.

Yuxarıda göstərilən canilər heç bir cəza almadığına görə bizim Rusiya dövlətinin adı və namusu təhqir olunmuşdur. Qalib gəlməyimiz üçün Allahtalanın dərgahına yalvarıb özümüz məğlubedilməz qoşunumuzla hər iki tərəfə ziyan vurmuş və təngə gətirmiş üsyançıları ləyaqətlə cəzalandırmağı umid edirik.

Şövkətli, əzəmətli və bizim əziz dostumuz Şah Həzrətlərinin pənahında olanlar, hökumət başçıları, hakimlər, farslar(azərbaycanlılar), başqa xalqlar, ermənilər, gürcülər və o tərəfdə olanlar padşahımızın mərhəmət vədinə arxayın olsunlar. Həqiqətən, təkidlə buyururuq ki, yuxarıda sözü gedən vilayətlərin əhalisinə və orada olan əcnəbilərə zərər yetirilməyəcək.Heç kim onların mülkiyyətinə, kəndinə, obasına toxunmayacaq. Biz əsgərlərimizə, bütün piyada və suvari qoşun başçılarına və eləcə də generallara, zabitlərə və bütün komandirlərə heç kimi cüzi də olsa incitməməyi möhkəm tapşırmışıq. Əgər bizdən kimsə cinayət başında ifşa olunsa o saat cəzasını alacaqdır. Bu şərtlə ki, siz yaşadığınız yerdə möhkəm dayanasınız, mülkiyyətinizin qarət olunmasından qorxmayasınız, gizlənməyəsiniz, əmlakınızı dağıtmayasınız. Əgər eşitsək ki, insafsız zalımlara qoşulmusunuz, onlara açıqca və ya gizlincə pulla, azuqə və başqa ehtiyatla kömək etmisiniz, yaxud padşahımızın mərhəmətli vədlərinə hörmət və ehtiram etməyib evlərinizi, kəndlərinizi tərk edərək qaçmısınız, onda zərurət üzündən hökmən sizin

hamınızı düşmən hesab edək və rəhimsizcəsinə qılınc və silahla hücum edərək hamınızı öldürək. Onda siz qırılacaqsınız və bütün əmlakınız qarət olunacaq. Lakin günah sizin üzərinizə düşür və tökülən qanlar üçün qiyamətdə Allahtalanın hüzurunda özünüz cavab verəcəksiniz.

Həmçinin Osmanlı dövlətinin bu ərazilərdə ticarət və digər işlərlə məşğul olan təbbələri, İmperatorun fərmanına əsasən göstərilən ərazilərə qoşunumuz daxil olduqda qorxmasınlar, ticarətlərini və işlərini əvvəlki kimi sakit və qorxmadan davam etdirsinlər. Sizin əmlakınızın təhlükəsizliyi üçün bizim əsgər və zabitlərə ciddi əmr verilmişdir ki, şöhrətli Osmanlı dövlətinin bu ölkələrdə olan tacirləri əgər yerlərində sakit dayansalar, onların əmlaklarına cüzi də olsa zərər yetirilməyəcək, yaxud sıxışdırılmayacaq. Çünki hər iki Ali dövlətlərimizin arasında bağlanmış müqavilə möhkəm olub və xüsusən ruhumuzun tələbinə uyğun əbədi olacaqına Ali dövlətlərimiz şəhadət verir. Biz şübhə etmirik ki, Türkiyə tərəfindən də əhd peymana riyayət ediləcək.

Bu səbəblərə görə, İmperatorumuzun əmrinə əsasən fərman nəşr etdirərək tezliklə sizə göndərdik ki, eşitmədik və bilmədik deməyəsiniz. Beləliklə, siz göstərilənlərə əməl etsəniz, sizə can sağlığı və sağ-salamat olmağımızı arzu edirik. İsa Məsihin anadan olmasının 1722-ci il 15 iyununda Həştərxanda yazılmışdır» (səh.58-64).

**VI fəsil**. Bakı ekspedisiyası haqqında.

Neft haqqında.

Cənab Soymonovun sözlərinə görə, Bakı şəhərindən 12 verst (1,06 kilometrə bərabər uzunluq ölçüsü) aralı Abşeron yarımadasında bir neçə verst ərazini əhatə edən, neft yerləşən və bir neçə yeri fasiləsiz yanan quru düzənlik var. Həmçinin torpaqdan qaz çıxırdı, əgər kimsə ora alov aparsa yanardı və ondan müxtəlif məqsədlər üçün istifadə edirdilər. Bu ölkə (ərazi) digər ərazilərdən bir neçə dəfə aşagıda idi və dairəvi vadi görünüşünə malik idi. Orada 4-dən 10 funta qədər dərinliyində olan bir neçə ağ neft quyusu, həmçinin doqquz daş taxt və 7 fut dərinliyində içməli suya malik qazılmış quyusu olan bir bağ yerləşirdi. O taxtlardan 500 addıma qədər aralı elə yer var ki, çartlamış torpaqdan dayanmadan səssiz-küysüz və o yerə yaxınlaşana ziyan yetirməyən alov çıxır. Düzənlikdə bəzən çox, bəzən az xeyli belə geniş yanan yer vardi. Əgər alov əks tərəfdə zəifləyirdisə torpaqda maddə atəş yaradaraq yanmayan yeri yandırırdı. Çoxlu su ilə onları (alovu) söndürmək mümkün olmasına baxmayaraq, yağış alova heç bir zərər yetirmir. Daş taxtda qədim iran dini olan atəşpərəstliyə sitayiş edən hind zəvvarları yaşayırdı. Onlar heç nədən korluq çəkmirdi, ona görə ki, yaxınlıqda olan ölkələrdən, xüsusən də Bakıda yaşayan hind tacirləri sitayiş üçün buraya gəlirdilər. Lakin ola bilsin ki,bu zəvvarlar öz

xeyirləri üçün fasiləsiz alovu saxlamağı cəhd edirdilər və əgər bir yerin alovu tükənirdisə, digər yeri yandırırdılar. Deyəsən torpaqdan qalxan alovun başlanğıcının eyni cür qazı vardı. Əgər torpaqda iki, yaxud üç verşok (4,4 sm-ə bərabər uzunluq vahidi) dərinliyində sərbəst dar fiqurlu oyuq düzəldilsə və oyuqa alov yaxınlaşdırdıqda bütün fiqurlu oyuq o saat yarım arşın hündürlükdə yanır. Əhali evlərdə həmin dərinlikdə torpağı qazaraq oraya dörd və beş verşok hündürlüyündə gil boru yerləşdirir və borunun içərisindən çıxan qazı talaşa yaxud küləşlə yandırırdılar. Çöldə olduğu kimi borunun yuxarısından qalxan alova yerli əhali qazan qoyaraq özlərinə yemək bişirirdilər. Onlar eyi gür qamışdan düzəldilmiş borudan çıraq əvəzinə istifadə edirdilər, onun içərisindən qazı buraxaraq yuxarısından yandırırdılar. Bəziləri bir neçə üst-üstə yığılmış cürbəcür belə borulardan fiqurlu çıraq düzəldirdilər. Çünki, bütün dəliklərdən çıxan qazlar yuxarı hissədə yanır, lakin orta borunun içərisindən qalxan alov isə bir qədər azalır. Boru quru qamışdan düzəldilməsinə baxmayaraq, alovdan tez yanıb qurtarmır. Buna səbəb borunun ətrafına toxunmadan alovun müqavimətsiz qalxmasıdır. Hind zəvvarlarının hücrələri elə isti olurdu ki, onlar başqa od istəmirdilər. Əgər onlar çıraqlarını söndürmək istəsələr onu mahudla örtürdilər. Bu üsulla yerli əhali hörürdülər və rəngləyirdilər: yama

qazaraq oraya əhəng daşı qoyub qazı yandırırdılar və (qaz) o vaxta kimi yanırdı ki, daş qızırdı. Onda oraya atılmış torpağı alov möhkəmləndirirdi. Qazın alovu əvvəlki oddan onunla fərqlənirdi ki, o daha təmiz spirt yanan kimi yanırdı. Ondan nə tüstü, nə də his əmələ gəlirdi və evdə his etmədiyinə görə rahat idi. İyi kükürd, barıt və iynəyarpaq ağacının yağının iyinə oxşayırdı. Deyəsən yanan qaz yerin alt qatlarında olan neftdən əmələ gəlirdi. Lakin neft lampada zəif yanırsa onun alovu yağın alovundan çox da fərqlənmir və otaqda ondan his olurdu: o lmzımi təmiz və işıqlıdır. Belə qazın olmadığı yerin üst qatını o səbəbə qazırlar ki, onun dərinliyi nadir hallarda dörddə bir arşın olur. O torpaq qurudur, xüsusi torpağa nisbətən daha çox quma oxşayır.

Lakin Bakıda odun çatışmadığına görə neft verirdilər, ona görə ki, nəinki bütün Xəzər dənizi ətrafında yerləşən əyalətlərdə və İranın özündə çıraqda (neftdən) istifadə edirdilər və o, yemək bişirmək üçün lazım olurdu... Bir qədər torpaq atırdılar, (üzərinə) neft tökərək yandırırlar, o güclü alovla yanır. Alovun üzərinə sacayaq, onun üstünə isə yeməklə dolu tava qoyurdular. O, oduna nisbətən daha tez yanırdı. Torpağı çubuqla nə qədər çox qarışdırsalar, bir o qədər alov güclü yanırdı. Lakin onda qara və təmiz olmayan neftdən istifadə edirdilər: ondan his və pis iy əmələ gəlirdi. Otaq (neftdən) qaralsa da, lakin xörək dadlı olurdu. Bakı şəhə-

rinin Rusiya hakimiyyəti altında olduğu həmin vaxtda hər bir zabit və əsgərə neftin müəyyən miqdarını verirdilər. Lakin neft ticarətindən dövlət xəzinəsinə hər il 20000 rubl gəlir gəlirdi (169-174).

**VII fəsil**. Gilan səfəri haqqında.

Yenə Dərbənd şəhəri haqqında.

24-dən 30-u noyabra (1724) qədər general (M.A.Matyuşkin) Dərbənd şəhərində oldu. Orada hələ polkovnik Yunger komandanlıq edirdi. O, yerli köhnə və yeni salınmış zəfəran bağlarından həmin ildə yığılmış bir neçə dəmir yeşik zəfəranı ona göstərdi. General həmin zəfəranı Sankt Peterburqa İmperatora göndərməyi əmr etdi. Həmin vaxt Dərbənddə İmperator həzrətləri tərəfindən Həştərxan bağlarından göndərilmiş üzümdən macar ustalarının düzəltdiyi yeni şəhab içirdilər. O, macar şərabından yaxşı olmamasına baxmayaraq, lakin yerli şərabdan daha yaxşı idi. Şərabı çaxır adlandırırlar, yerli əhali yüksək təzyiq altında üzümü əzərək ona su əlavə edib çubuqla qarışdırırdılar. Buna görə də, o(şərab) tünd dada malik deyildi, möhkəmliyi aşağı idi. Macar ustaları deyirdilər: «Dərbənd üzümündən macar şərabından yaxşı şərab düzəltmək mümkün deyil, çünki Dərbənd yaxınlığında torpaq şoran olduğuna görə üzüm duzlu olur».

Onlar Dərbənddə olarkən naibin qonağı oldular, (naib) onlara dedi: «Dərbənd şəhəri iran şahları olan Şah Qubadın və oğlu Ənuşi-

rəvanın dövründə salınmasına baxmayaraq, lakin ondan əvvəl Böyük İsgəndər tərəfindən hündür daş sədd tikilmişdi və indi də qalıqları görünür». İnandırmaq üçün perqament üzərində qədim ərəb dilində yazılmış kitab olduğunu elan etdi. Bu hadisə cənab Soymonovda həmin qədim tarixi bilmək arzusu oyatdı. General Matyuşkinin xahişinə görə o, həmin kitabı Naibdən alaraq özü ilə Gilana götürdü. Generalın yanında olan baş tərcüməçi, Kazandan olan tatar dini alimi kitabı rus dilinə tərcümə etdi (183-184).

**VIII fəsil.** Xəzər dənizinin təsviri üçün yeni dəniz səfəri.

Neftin daşınması haqqında.

Cənab Soymonovun məqsədi belə idi ki, Qızılağac körfəzinin mükəmməl təsvirini başa çatdırsın. Ona görə də o, kiçik yerlərdə istifadə etmək üçün özü ilə Gilandan bot (avarlı, yelkənli gəmi) götürmüşdü. Kür çayına gələn o, güclü fırtınaya görə məcburən bir neçə gün orada qalır. Qekbota əvvəlki kimi su sızır. Xoşbəxtlikdən külək şimaldan əsirdi, çünki yan duran gəmilər torpaq tərəfdən qorunurdu. Göstərmək lazımdır ki, su dayaz idi. Əks halda (küləyə) qarşı durmaq asan olmayacaqdı. Elə ki, güclü külək sakitləşdi (onlar) onda yerli qayığı gördükləri Qızılağac körfəzinə getdilər. Cənab Soymonov miçmanı (hərbi dəniz donanmasında birinci zabit rütbəsi) qayıqda onu tutmaq üçün ardınca göndərdi. Miçmana

adamları və malları öz qayığına götürmək , yerli qayığı batırmaq əmr olunur. Lakin yükün böyük hissəsi tuluq adlanan, qoyun dərisində saxlanan neftdən ibarət idi. Bu tuluqu belə hazırlayırdılar: qoyunun qarnını doğramadan dərisini soyurdular, boynunu və ayaqlarını bağlayırdılar. Sonra dərinin üst hissəsinin yununu qırxırdılar və ora neft tökərək möhkəm bağlayırdılar. Neft tökülmüş belə tuluqların sayı qayıqda 1000-ə qədər idi, miçman onların sayının çoxluğuna görə qayığa götürə bilmədi. O ancaq adamları və xırda malları götürdü. Qayığı batırmaq üçün doğramasına baxmayaraq, lakin sonradan yandırmışdı, tezliklə yanğından neft alışıb yanaraq havada qatı bulud kimi qara tüstü əmələ gətirdi. Cənab Soymonov bu işdən narazı qaldı, çünki Salyan, Lənkəran, Astara camaatı təşvişə düşdülər və qonşularının ehtiyatlı olması üçün dağlarda məşəl yandırdılar. Təhlükə olmuşdu ki, düşmən onlara mane olmasın. Lakin heç bir pis hadisə baş vermədi. Cənab Soymonov körfəzdə özünün bütün işini icra edir, halbuki, gəmilər körfəzdə lövbər salmışdı. Körfəzdə onlara 40 nəfərə yaxın adamı olan iki qayıq rast gəlir, onlardan ancaq az hissəsi əsir götürülür, qalanları isə buraxılır. Bunun əksinə olaraq, 10 öküz, 100 qoyun və 13 yağ tuluğundan ibarət yük qənimət götürülür (səh. 232-233).

# ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan tarixi 7 cilddə, III cild. Bakı, «Elm» Redaksiya-nəşriyyat və Poliqrafiya mərkəzi, 1999, 534 s.
2. Dəlili H.Ə.Azərbaycan rus münasibətləri Azərbaycan və fars dilli sənədlərdə, 1722-ci il (sənədlər külliyatı).Bakı, «Elm» nəşriyyatı, 1976, 107s.
3. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyəti, 1964, 123 s.
4. Kruşinski Y.T. Xristian səyyahının tarixi (farscadan tərcümə edəni Ş.Fərzəliyev). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 105 s.
5. Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı, «Elm» nəşriyyatı,1986, 88s.
6. Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı- Azraycan münasibətlri. Bakı «Elm» nəşriyyatı,2002, 370s.


## Rus dilində


7. Алкадари Г.Э.Асари-Дагестан, Махачгала, Дагестанский институт истории, археологии и этнографии научного центра Российский Академии Наук, 1994, 222с.

8. Акты Кавказской Археографической Комиссии (АКАК) I том, Тифлис, 1866.
9. Алиев Ф.М. Письмо бакинцев Петру I в 1722г. ДАН Азерб.ССр, 1964, с.57-60
10. Алиев Ф.М.Антииранские выступления и борьба против турецской оккупации в Азербайджане в первой половине XVIII века, Бакы, «Елм», 1975,230с.
11. Алиев Ф.М. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане. Баку, «Елм», 1979, 122с.
12. Алиев Ф.М.Азербайджано-русского отношения, Баку, 'Елм»,1985, 175с.
13. Арунова М.Ф. и Ашрафян К.З. Государства Надир шаха Афшара (очерки общественных отношений в Иране 30-40-х годов XVIII в.) Москва, Изд-ва, вост. лит.,1958, 284с.
14. Ашурбейли С.Б. История города Бакы (период средневековья). Баку. Азернешр , 1992, 407с.
15. Бакиханов А.А.Гюлистани Ирам. Баку, «Елм», 1991, 207с.
16. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. О-ва обьедин. и изучения Азербайджана. Баку, 1925, 150с.
17. Бадраддини Алибей. Гаима. Изв.-Азерб.ССР, из серии истории, философии и права, Баку, 1988, № 3-4

18. Бруин де Корнели. Извлечение из путешествия Корнели де Бруин (перевод с франц. на рус. яз. Азбезгуза).AMEA TİEA fond 1, siyahı 1, iş 480
19. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803гг., СПб, том1, 548с.
20. Бутурлин Д.Военная история походов россиян в XVIII веке. (Часть вторая, заключающая описание персидской войны с 1722 по 1734гг. перевод с французского штабскапитан Корнилович). СПБ, 1823, 255с.
21. Волынски А.П. Извлечение из дневника А.П.Волынского. см. Зевакин Е.И. Азербайджан в начале XVIII в. Журнал посланника Волынского 1715-1718гг. Изд. об-ва обследов и изучения Азерб.ССР, №8, выпуск IV, Баку, 1929
22. Выдержки из записей французских миссионер Маза, Башуда, Флорио и др. (перевод с франц. язк.на рус. Абезгуза) AMEA TİEA fond 1, siyahı 1, iş 471
23. Гербер И.Г.Описание стран и народов вдоль западного берега Каспийского моря. 1728, В кн. История, география и этнография Дагестана XVIII - XIXвв. (архивные материалы), Москва, Изд, восточной литературы , 1958, с.60-118.
24. Голденберг Л.А. Феодор Иванович Сой-

монов (1692-1780), Москва,1966.
25. Гончаров В.Г. Ф.И.Соймонов- первый русский гидрограф, Москва,1954.
26. Гусейнов Ш.С. Сельского хозяйства Азербайджана в первой половине XVIII в. Автореферат диссертации на соискание ученой степени кандидат исторических наук, Баку, 1970
27. Джалальян Е.Х. Краткая история страны Албанской (1702-1722гг), Баку, 1989, 39с.
28. Зевакин Е.С.Прикаспийские провинции в эпоху русский оккупации XVIII веке. Баку, Известия общества обследования и изучения Азербайджана, 1927, №5, 133с.
29. Западный берег Каспийского моря при Петра Великом. «Журнал министерство народного просвещения», СПб, 1848, вып.2, с.2-17
30. Иванов М.С. Очерк истории Ирана. Москва, Госполитиздат, 1952, 468с.
31. История, география и этнография Дагестана, XVIII - XIXвв (архивные материалы). Москва, 1958, 367с.
32. Кавказский календарь, Тифлис, 1851.
33. Кафенгауз Б.Внешняя политика России при Петре I, Москва государственное издательство политической литературы, 1942, 87с.
34. Княжецская Е.А. Петр I-организатор исследований Каспийского моря. См. Воп-

росы гографии Петровского времени. Ленинград,1975, с.24-37.
35. Комаров В.В. Персидские войны 1722-1725гг. «Русский вестник» 1867, № 57
36. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII в. Баку, АН Азерб.ССР, 1948, 226с.
37. Лерх И.Я.Извлечения из дневника путешествия доктора Иоганна Якоба Лерха (первое и второе путешествия, перевод с немец. яз.Абезгуза) AMEA TİEA fond 1, siyahı 2, iş 486,491
38. Лопухин А.И.Журнал путешествие через Дагестан, 1718г. В кн. история, география и этнография Дагестана, XVIII - XIXвв (архивные материалы), Москва, Изд., восточной литературы, 1958, 6-58с.
39. Лысцов В.П.Персидский поход Петра I , 1722, Из-во Московск. Унив-та, 1951, 245с.
40. Мамедова Г.Н. Некоторые вопросы истории Азербайджан в журнале консула Абрамова. Изв. АН Азерб.ССР, серия общест.наук, 1977, №2
41. Материалы-военно-ученаго архива главнаго штаба, том1, СПБ, 1871, с. 507-544
42. Мелгунов Г.В.Поход Петра Великого в Персию. «Русский вестник», 1874,т.110, с.5-60
43. Мустафазаде Т.Т. Азербайджан и русско-

турецские отношения в первой трети XVIII в. Баку, «Элм», 1993, 238с.

44. Неверовский А.А.Краткий исторический взгляд на Северный и Средний Дагестан до уничтожения влияния лезгинов на Загафказье, СПб, 1848
45. Новосельцев А.П. Из истории классовой борьбы в Азербайджане и Восточной Армении в XVII - XVIII вв. см. «Исторические записки», 1960, №67
46. Пайчадзе Г.Г. Русско-грузинские отношения в 1725-1735гг. Тбилиси, Мецниереба, 1965, 172с.
47. Петрушевский И.П.Азербайджан в XVI-XVIII вв. (Сборник статей по истории Азербайджана), выпуск 1, Баку, Изд-во АН Азерб.ССР,1949, 310с.
48. Петрушевский И.П., Строева А.В., Беленицкий. История Ирана с древнейших времен до конца XVIII в. Ленинград, Изд-во. Ленинград.Унвер-та, 1958, 390с.
49. Полиевктов М.А. Европейские путешественники XIII- XVIII вв. по Кавказу. Тифлис,1935.
50. Попов А.Н. Сношение России с Хивою и Бухарою при Петра Великом. СПб, 1853, 185с.
51. Русские мореплаватели, Москва,1953.
52. Русский Биографический Словарь,т.29.-СПБ.1909.с.44-48.

53. Спридонова Е.В.Экономическая политика и экономические взгляды Петра I. Москва, Гос. изд.полит.лит., 1952, 287с.
54. Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний, как часть истории Государя императоря Петра Великого (сост. Ф.И.Соймоновым, с доп., Г.Ф.Миллера), СПб,Изд, имп, Акад.наук, 1763, 380с.
55. Соловьев С.М.История Россия с древнейших времён. кн IX, Т, XVIII. Москва, Соцэкгиз, 1963, 380с.
56. Соловьев С.М. Петр Великий на Каспийском море, «Вестник Европы», 1868, март, книга 3-я, с.164-202
57. Ханвей Д. Исторический очерк британской торговли на Каспийском море, с журналом автора о путешествии из Англии через Россию и Персию и обратно через Россию, Германию и Голландию. 1и 2 том (перевод с англ. яз.Л.М.Кирякова) AMEA TİEA, fond 1, siyahı 1, iş155,158.
58. Штейнберг Е.Л. Первые исследователи Каспия ( XVIII-XIX вв.), Москва,1949.
59. Эзов Г.А. Сношение Перта Великого с армянским народом, СПб,1898
60. Юзефович Т. Договоры России с Востоком.СПб,1869, 298с.

## M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **GİRİŞ** | | 4 |
| **I FƏSİL.** | F.İ.Soymonovun həyatı və onun «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» səyahətnaməsi | 9 |
| **II FƏSİL.** | «Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri» səyahətnaməsi XVIII əsrin birinci yarısında Azərbaycanın siyasi və iqtisadi tarixinin mənbəyi kimi | 34 |
| | 2.1. Siyasi vəziyyət | 34 |
| | 2.2. İqtisadi vəziyyət | 101 |
| **NƏTİCƏ** | | 112 |
| **ƏLAVƏLƏR** | | 120 |
| **ƏDƏBİYYAT SİYAHISI** | | 134 |